# DİNSİZLİYİN DİNİ İLƏ MÜBARİZƏ

Xeyr, Biz haqqı batilin üstünə atarıq və o da onun işini bitirər. Bir anda batilin yox olub getdiyini görərsiniz...(Ənbiya surəsi, 18)

HARUN YƏHYA

# MÜNDƏRİCAT


GİRİŞ

DİNSİZLİYİN DİNLƏRİ: MATERİALİZM VƏ DARVİNİZM

MATERİALİZMİN MEYDANA GƏTİRDİYİ SAXTA DİNLƏR

DİNSİZLİYİN "ODA ÇAĞIRAN" LİDERLƏRİ

"DİNSİZ BİR MİLLƏT YAŞAYA BİLMƏZ"

DİNSİZLİYİN DİNİ İLƏ MÜBARİZƏ ÜSULLARI

DİNSİZLİYİN DİNLƏRİNİ MƏĞLUB EDƏN HƏQİQƏT

NƏTİCƏ

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr

də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# GİRİŞ

Kitabın adını oxuduğunuz vaxt bəlkə də öz özünüzə, görəsən “dinsizliyin dini” nədir? kimi sual verə bilərsiniz. Çünki bir çox insana görə din anlayışı yalnız Allahın vəhyinə əsaslanan müqəddəs dinlərdən ibarətdir. Və ya “batil” din olaraq məlum olan bir qisim inanclar vardır ki, bunlar da Buddizm, Hinduizm kimi təlimlərdir. Dinsizlik isə adından da göründüyü kimi, din əxlaqını tamamilə rədd edən, Allahın varlığını inkar edən bir anlayışdır.

Lakin hal-hazırda dünyada “din” olaraq adlandırılmış, amma əslində sanki bir din kimi mənimsənilmiş başqa inanc sistemləri də mövcuddur. Məhz biz bu kitabda dünyada hakim olan materializm, kommunizm kimi ideologiyaları, bunların özlərinə guya elmi dayaq kimi gördükləri darvinizmi və bunlardan başqa dinsizliyə əsaslanan bütün sistemləri “dinsizliyin dinləri” olaraq adlandırdıq. Çünki bu ideologiyalar, inanclarıyla, praktikasıyla, gündəlik həyata istiqamətli normalarıyla dinsiz bir din halına gəlmişlər. Hər birinin sanki məbud kimi gördükləri liderləri, hər bir sözünü əzbərdən bildikləri və heç vaxt dəyişdirilməyəcək bir həqiqət kimi qəbul etdikləri kitabları vardır. Bu saxta dinlər çox böyük bir sürətlə yayılır, sitayiş edənlərin sayı gündən günə artır. Çünki bunların ardınca gedənlər “dinsizliyin dini”ni dünyaya hakim etmək üçün çox ciddi səy göstərirlər. Kitablar yazaraq, məqalələr nəşr edərək, həmişə bu batil dinləri təbliğ etməklə haqq dinə qarşı mübarizə aparırlar.

Dinsizlik dinini müdafiə edənlərin qarşılarındakı ən böyük maneələr isə Allahın inanan qullarına bir rəhbər kimi endirdiyi vəhyi, yəni Qurani-Kərim və Peyğəmbər (s.ə.v)-in sünnəsidir. Quranda haqqında danışdığımız batil dinlərlə aparılacaq mübarizə təsvir edilir və bu şərəfli vəzifə inananlara verilir. Allahın vəhyinə tabe olan səmimi müsəlmanların üstünə çox böyük məsuliyyət düşür. Bu batil dinlərin əsassızlığını izah etmək vəzifəsini öhdəsinə götürəcək, bu yolda ciddi bir şəkildə çalışacaqdır, əlindəki bütün imkanlardan bu yolda istifadə edəcək inanclı şəxslərə ehtiyac vardır.

20-ci əsrdə və hal-hazırda yaşadığımız dövrdə, dinsizlik dini bəlkə də tarixdə ilk dəfə bu qədər çox yayılmağa imkan tapmış və bu dinin tərəfdarları da Allahın Quranda bildirdiyi kimi **“...haqqı batil ilə aradan qaldırmaq üçün...” (Kəhf surəsi, 56)** mübarizə aparırlar. Buna görə də xüsusilə bu dövrdə, Quranda təsvir edilən bu şərəfli mübarizədə iştirak etmək, dinsizliyin dininin bütün əsaslarını fikri olaraq qüvvədən salmaq çox böyük əhəmiyyətə malikdir.

Allah bu şərəfli vəzifəni boynuna götürən qullarına çox əhəmiyyətli bir müjdə də vermişdir. Quranda, **“Xeyr, Biz haqqı batilin üstünə atarıq və o da onun işini bitirər. Bir**

**anda batilin yox olub getdiyini görərsiniz. Allaha aid etdiyiniz sifətlərə görə vay halınıza!" (Ənbiya surəsi, 18)** ayəsində xəbər verildiyi kimi, batil mütləq yox olacaq.

# AĞILLI DİZAYN, YƏNİ YARADILIŞ

Kitabda vaxtaşırı qarşınıza Allahın yaratmasındakı mükəmməlliyi vurğulamaq üçün istifadə etdiyimiz "dizayn" sözü çıxacaq. Bu sözün hansı məqsədlə istifadə edildiyinin doğru başa düşülməsi çox əhəmiyyətlidir. Allahın bütün kainatda qüsursuz bir dizayn yaratması, Rəbbimizin əvvəlcə planlaşdırdığı, sonra yaratdığı mənasına gəlməz. Bilinməlidir ki, yerlərin və göylərin Rəbbi olan Allahın yaratmaq üçün hər hansı bir "dizayn" etməyə ehtiyacı yoxdur. Allahın dizayn etməsi və yaratması eyni anda baş verir. Allah pakdır, müqəddəsdir. Allahın, bir şeyin və ya bir işin olmasını dilədikdə onun olması üçün sadəcə "Ol" deməsi kifayətdir. Ayələrdə belə buyurulur:

**Bir şeyi yaratmaq istədikdə ona təkcə: "Ol!" deyər, o da olar. (Yasin surəsi, 82)**

**Göyləri və yeri yaradan Odur. O, bir işi yaratmaq istədikdə ona ancaq: "Ol!" – deyər, o da olar. (Bəqərə surəsi, 117)**

# DİNSİZLİYİN DİNLƏRİ: MATERİALİZM VƏ DARVİNİZM

Maddəçilik ya da indiki vaxtda istifadə edilən adı ilə materializm, çox qədim dövrlərdən bəri mövcud olan fikir sistemlərindən biridir. Materializm, yeganə həqiqi varlığın maddə olduğunu müdafiə edər. Bu batil anlayışa görə maddə əzəldən bəri var və sonsuza qədər də mövcud olacaq. Materializmin ən əhəmiyyətli xüsusiyyəti isə bir Yaradıcının varlığını və hər cür dini, inancı rədd etməsidir. Yer üzündə dinsizliyi özünə əsas prinsip seçən bir çox cərəyan, ideologiya və fikir sistemi mövcuddur. Ancaq materializm, dini inkar edən bu cərəyanların böyük bir hissəsinin əsasını meydana gətirər. Başqa sözlə dinsizliyin ən təsirli dini materializmdir.

Materialist anlayışa, şumerlərdən, keçmiş yunan dinlərinə qədər tarixin hər dövründə rast gəlinmişdir. Ancaq bu batil inanc əsasən XIX əsrdə yayılıb, özünə zəmin hazırlamış, bir fikir sistemi halına gəlmişdir. Çox böyük bir sürətlə yayılan bu materialist anlayışın qarşısında həmişə əhəmiyyətli bir maneə olmuşdur. Maddənin əzəli olduğunu iddia edən materializmin qarşısındakı bu böyük maneə, "kainatın və canlıların necə meydana gəldiyi" sualıdır.

Həmin əsrdə Çarlz Darvinin ortaya atdığı təkamül nəzəriyyəsi, materialistlərin qarşısında bir maneəyə çevrilən bu suala tam da onların axtardıqları, amma əslində heç bir əsası olmayan cavabı vermişdir. Darvinin ortaya atdığı əsassız nəzəriyyəyə görə cansız maddələr öz- özünə təsadüfən bir araya gəlmiş və bunun nəticəsində ilk hüceyrə də təsadüfən yaranmışdır. Darvinizmə görə yer üzündəki canlıların hamısı, bu ilk hüceyrənin təsadüflər nəticəsində təkamülləşməsiylə meydana gəlmişdir.

Darvin bu iddialarıyla əslində elm tarixindəki ən böyük yanılmanın memarıdır. Heç bir konkret elmi tapıntıya əsaslanmayan nəzəriyyəsi, özünün də qəbul etdiyi kimi yalnız bir "düşüncə"dir. Hətta Darvinin, "*Növlərin Mənşəyi*" adlı kitabındakı "Nəzəriyyənin Çətinlikləri" başlıqlı uzun hissədə etiraf etdiyi kimi, təkamül nəzəriyyəsi bir çox əhəmiyyətli sual qarşısında aciz qalmışdır.

Yenə də Darvin elm inkişaf etdikcə nəzəriyyəsinin qarşısındakı bu çətinlikləri aradan qaldıra biləcəyinə və yeni elmi tapıntıların nəzəriyyəsini gücləndirəcəyinə ümid etmişdir. Bunu da kitabında tez-tez ifadə etmişdir. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir qüvvədən salmışdır. Belə ki, təkamül nəzəriyyəsi bu gün, lehinə icra edilən bütün təbliğatlara baxmayaraq, Avstraliyalı məşhur molekulyar bioloq Maykl Dentonun *Evolution: A Theory in Crisis* (Təkamül, Böhran İçində Bir Nəzəriyyə) adlı kitabında vurğuladığı kimi "böhran içində bir nəzəriyyə"dir.(1)

Ancaq XlX əsrdə təkamül nəzəriyyəsi ilə əlaqədar elmi həqiqətlər məlum deyildi. Və özlərinə elmi bir dəstək axtaran materialistlər üçün bu nəzəriyyə əldən verilməyəcək bir fürsət idi. Çünki Çarlz Darvin, nəzəriyyəsinə əsaslanaraq bir Yaradanın varlığını inkar edirdi. O dövrdə insanın özbaşına təsadüflərin təsiriylə cansız maddələrdən meydana gəldiyi iddiası, materialistlərin ən çox eşitmək istədikləri şey idi.

Təkamül nəzəriyyəsinə gətirdiyi tənqidlərlə və nəşr etdiyi kitablarla elmi dairələrdə çox hörmətli bir yerə sahib olan Çikaqo Universiteti professorlarından Filip Conson, təkamül nəzəriyyəsinin dinsiz fikri cərəyanlar üçün daşıdığı əhəmiyyəti belə izah edir:

...Darvinizmin qəbul edilməsi Allahın varlığının inkar edilməsi mənasına gəlirdi və nəticə etibarilə Allahın vəhyinə əsaslanan dinin əvəzinə təkamülçü naturalizm əsasında yeni bir inanc yaradıldı. Bu yeni inanc yalnız elmin deyil, dövlətlərin, hüququn və əxlaqın da əsas inancını meydana gətirdi, müasirliyin əsas dini fəlsəfəsi hesab olundu.(2)

Bəs Filip Consonun yuxarıdakı sözləriylə də ifadə etdiyi bu dinsiz fəlsəfənin sahiblərinin əsl məqsədləri nədir?

Allahın varlığını və din əxlaqını inkar edən bir cəmiyyət yaratmaq istəyən materialistlər, insanın, qarşısında özünü məsul hiss edəcəyi bir varlığın olmadığını iddia edirlər. Öz səhv anlayışları üzündən, insanın özbaşına və məsuliyyətsiz olmasını və heç kimə hesab vermək məcburiyyətində olmamasını istəyərlər. Materialistlərin bu cahilyana ehtirası, materialist bir elm adamı tərəfindən belə ümumiləşdirilir:

İnsan, kainatda başa düşmək qabiliyyətinə və potensialına sahib tək varlıqdır. Amma şüursuz və ağılsız maddələrin bir məhsuludur. Beləcə öz-özünə yaranmağı bacarmış insan, yalnız özünə qarşı məsuldur. (3)

Yuxarıdakı sitatda ifadə edilənin nə qədər məntiqsiz bir nəticə olduğu, ağıl və vicdan sahibi hər insanın asanlıqla başa düşə biləcəyi bir həqiqətdir. Bu sözlərin sahibi olan materialist elm adamı, insanın yaranmasının öz müvəffəqiyyəti olduğunu iddia edir. Halbuki, aydındır ki, insan yaranmasının heç bir mərhələsində iradədən istifadə etməmiş və qərar vermək səlahiyyətinə də sahib olmamışdır. Allah insanı yer üzündə qüsursuzca var etmişdir. Amma tarixən materialist zehniyyətin özünü "məsuliyyətsiz" hiss etmə ehtirası, onu şüursuz və ağılsız maddələrdən şüurlu və ağıllı planlar gözləmək sayıqlamasına yönəltmişdir.

Həmçinin bunu da xatırlatmaq lazımdır ki, dinsizlərin yuxarıda ifadə edilən bu özbaşına və məsuliyyətdən azad olmaq istəkləri yalnız XlX və XX əsrdə yaşayan materialistlərə və təkamülçülərə aid deyil. Allah Quranda keçmiş cəmiyyətlərdə də eyni

düşüncəyə sahib insanların olduğunu bu şəkildə bildirmişdir:

**Bəlkə insan özbaşına qoyulacağını güman edir? Məgər o, kişi toxumundan axıdılan bir damla nütfə deyildimi? Sonra laxtalanmış qan oldu. Allah onu yaradıb kamil bir görkəmə saldı. Ondan da bir cüt kişi və qadın yaratdı. Məgər O, ölüləri diriltməyə qadir deyil? (Qiyamət surəsi, 36-40)**

Allah insanı bir damla nütfədən yaratmış, ardınca da ayələrdə də bildirildiyi kimi onu "kamil bir görkəmə salmış"dır. Yəni insanın öz varlığı haqqında hər hansı bir qərar verməyə səlahiyyəti yoxdur, çünki yaradılmışdır. Amma Allahın bu açıq-aşkar lütfünə baxmayaraq, bəzi insanlar yuxarıdakı nümunədə görüldüyü kimi öz iradələri ilə yarandıqları və "özbaşına" olduqlarını iddia edə bilirlər.

Materialist fikir sistemlərinin və təkamül nəzəriyyəsinin "məsuliyyətsiz, özbaşına insan həsrəti", indiki vaxtda da cəmiyyətə, elm və fikir dünyasına hakimdir. Buna görə də mənəvi dəyərləri heçə sayan, cəmiyyətdəki bərabərlik və nizamı təmin edən bütün əxlaqi dəyərlərə qarşı müharibə elan edən bu səhv anlayışın bir nəticəsi olaraq, getdikcə artan bir sürətlə əxlaqi pozulmaya məruz qalan nəsillər yetişdirilmişdir.

Bu gün elm, materialist düşüncənin və təkamül nəzəriyyəsinin etibarsız olduğunu, heç bir elmi dəlilə əsaslanmadığını, hətta elmi tapıntılar ilə təkzib edildiyini aydın şəkildə göstərir. Ancaq 150 il ərzində təkidlə davam etdirilən ictimai təlqinə görə, materialist düşüncə və təkamül nəzəriyyəsi hələ də bir çox insan tərəfindən sanki sübut edilmiş bir həqiqət kimi müdafiə olunur. Çünki bu anlayışın qabaqcıllarının, Allahın varlığını inkar edə bilmələri, insanları din əxlaqından və hər cür mənəvi dəyərdən uzaq tuta bilmələri üçün materializmə və təkamül nəzəriyyəsinə ehtiyacları vardır. Əks təqdirdə əllərində dinsizliklərini təlqin edə biləcəkləri hər hansı bir material qalmayacaq.

# NİYƏ ELMİN TƏKZİB ETDİYİ BİR NƏZƏRİYYƏNİ HƏLƏ DƏ MÜDAFİƏ EDİRLƏR?

İndiki vaxtda bir çox elm adamı, elmi həqiqətlərə baxmayaraq niyə hələ də təkamül nəzəriyyəsini və materializmi müdafiə etdiklərini əslində açıq-aşkar etiraf edir. Məsələn, Filip Conson, təkamül nəzəriyyəsinin qızğın müdafiəçilərindən və dövrümüzün ən qatı materialistlərindən biri olan Harvard Universitetindən olan genetik Riçard Levontinin bir elm adamı olaraq məqsədini ifadə etdiyi cümləsini nəql etmiş və bu şərhi vermişdir:

Əsl problem insanlara ən yaxın ulduzun nə qədər uzaqlıqda olduğunu göstərmək və ya hansı genlərdə hansı məlumatların olduğu haqqında məlumat vermək deyil... Əsl problem insanların dünya ilə əlaqədar ağılsız və fövqəltəbii izahları rədd etmələrini təmin etməkdir. İnsanların öyrənməli olduqları, bəyənsəniz də, bəyənməsəniz də budur: “Biz, bütün fenomenləri maddələrin arasındakı maddi əlaqələrdən yaranan, maddi bir dünyada yaşayan, maddi varlıqlarıq”. Başqa sözlə insanlar Allahın varlığını inkar edən materializmə inanmalıdır...[4]

Levontinin bu ifadələri, materialist fikri müdafiə edənlərin əslində necə səhv bir məntiq anlayışına sahib olduqlarını da göstərir. Çünki bu gün elmin ortaya qoyduğu həqiqətlər, materializmin irəli sürdüyü iddiaların ağıl və məntiqlə tamamilə ziddiyət təşkil etdiyini ortaya qoymuşdur. Amma materialistlər hər cür elmi dəlilə baxmayaraq, kor-koranə aludə olduqları inanclarını qorumaqda qərarlıdırlar və bu uğurda xidmətlərini davam etdirirlər. Sidney Universitetindən olan, antropoloq dr. Maykl Volker də təkamül nəzəriyyəsinə niyə xidmət edildiyini belə izah edir:

”Bir çox elm adamı və texnoloqların Darvinin nəzəriyyəsini təsdiq etmələrinin tək səbəbi, bu nəzəriyyənin Yaradanın varlığını rədd etməsi olduğunu qəbul etmək məcburiyyətindəyik.[5]

Darvinizmin elmdən kənar iddialarını rədd edən məşhur elm adamı Filip Conson isə, darvinizmin niyə elmin dinsiz liderləri üçün “əvəzolunmaz” bir əhəmiyyəti olduğunu və niyə hər nə bahasına olursa olsun onu müdafiə etməyə çalışdıqlarını belə izah edir:

Müasir elmin liderləri, özlərini “dindarlara”, yəni bir Yaradanın varlığına inananlara qarşı başlanılan bir mübarizənin qabaqcılları olaraq görürlər... Darvinizm isə “dinə” qarşı başlanılan bu mübarizədə əvəzolunmaz ideoloji bir rol oynayır. Məhz buna görə də bu gün elmi dairələr, darvinizmi sınaqdan keçirməyi deyil, nə olursa olsun müdafiə etməyi qarşılarına məqsəd qoymuşlar. Elmi tədqiqatların qaydaları da, bu ideologiyanı təsdiqləyəcək şəkildə müəyyənləşdirilir.[6]

Materialist və ateist fəlsəfənin ən qabaqcıl müdafiəçiləri və bunları bütün dünyaya yaymağı qarşılarına məqsəd qoyan "dinsizliyin liderləri", Consonun da ifadə etdiyi kimi, Darvinin təkamül nəzəriyyəsini öz ideologiyalarına guya elmi əsas təmin etdiyi üçün müdafiə etmişlər.

Bu vəziyyətin nümunələrinə keçmişdə, təkamül nəzəriyyəsinin ilk ortaya atıldığı günlərdə də rast gəlinmişdir. Məsələn, dialektik materializmin qurucularından, din düşməni olan Fridrix Engels təkamül nəzəriyyəsinin, özünün müdafiə etdiyi fikirlər baxımından nə qədər əhəmiyyətli olduğunu dəfələrlə ifadə etmişdir. Engels, Darvinin *Növlərin Mənşəyi* kitabını oxuduqdan sonra belə demişdir:

Bizim nəzəriyyəmiz təkamül nəzəriyyəsidir, əzbərlənəcək və mexaniki olaraq təkrarlanacaq bir ehkam deyil.[7]

Dialektik materializmin digər məşhur adı Karl Marks isə, yaxın dostu Fridrix Engelsə yazdığı bir məktubda darvinizm haqqındakı düşüncələrini belə ifadə etmişdir:

Bizim fikirlərimizin təbii tarixi əsasını ehtiva edən kitab məhz budur.[8]

Amerikalı botanika professoru Konvey Zirkle isə, kommunizmin qurucuları olan Marks və Engelsin darvinizmi niyə mənimsədiklərini aşağıdakı sözləri ilə izah edir:

Marks və Engels, təkamül nəzəriyyəsini, Darvinin "Növlərin Mənşəyi" adlı kitabı nəşr olunan kimi mənimsədilər... Təkamül, kommunizmin qurucuları üçün, insanların fövqəltəbii bir gücün müdaxiləsi olmadan necə ortaya çıxması sualına gətirilən cavab idi və buna görə də müdafiə etdikləri materialist fəlsəfənin əsaslarını dəstəkləmək üçün istifadə edilə bilərdi. Üstəlik, Darvinin təkamülü izah etmək forması, yəni təkamülün bir təbii seleksiya müddəti daxilində inkişaf nəzəriyyəsi onlara o vaxta qədər hakim olan dini düşüncələrə qarşı çıxma fürsəti verirdi. Təbii seleksiya nəzəriyyəsi sayəsində, elm adamları təbii dünyanı materialist bir terminologiya ilə izah etmək imkanı əldə edirdilər.[9]

Bu ifadələrdən də aydın olduğu kimi, materialist bir dünyagörüşünə sahib olan Marks və Engelsin, Darvini dəstəkləmələrinin ardındakı tək səbəb dinə olan düşmənçilikləri idi. Əslində elmi baxımdan heç bir dəyəri olmayan, yalnız Darvinin təxəyyülündən qaynaqlanan bəzi mexanizmləri təkidlə müdafiə etmələri buna görə idi. Necə ki, Fridrix Engels bir kitabında Darvinin nəzəriyyəsini nə üçün əhəmiyyətli gördüyünü belə ifadə etmişdi:

Darvin, bütün təbii varlıqların, bitkilərin, heyvanların və insanın özünün, milyonlarla ildir ki, ənənəvi bir təkamül prosesinin məhsulları olduğunu sübut etmək metafizik təbiət fikrinə ən ağır zərbəni endirdi.[10]

Göründüyü kimi Engels, təkamül nəzəriyyəsinin yer üzündəki milyonlarla canlı

növünün necə yarandığını izah edə bildiyini zənn etmə yanılmasına düşmüşdü. Amma Darvinin nəzəriyyəsinin sübut olduğunu zənn edən və dövrünün elmi cəhətdən yaxşı inkişaf etmədiyini ortaya qoyan yalnız Engels deyildi. Keçmişdə yaşamış kommunist və dinsiz liderlərin ən qanlısı olaraq tanınan Cozef Stalin də tərcümeyi halında təkamül nəzəriyyəsinə verdiyi əhəmiyyətə belə diqqət çəkmişdi:

Məktəblərdəki şagirdlərimizin zehnini altı gündə yaradılış əfsanəsindən təmizləmək üçün onlara üç şeyi xüsusilə öyrətməliyik: dünyanın yaşını, geoloji mənşəyini və Darvinin təlimlərini.[11]

Göründüyü kimi materialist inanca sahib olan fikri cərəyanların və Darvinin təkamül nəzəriyyəsinin şərik olduqları məqam dinsizlikdir. Bu fikri cərəyanları müdafiə edənlərin yeganə məqsədləri insanların hamısına Allahın varlığını inkar etdirməkdir. Allah, **"Biz, onları atəşə çağıran rəhbərlər qıldıq; qiyamət günü yardım görməzlər".** (Qəsas surəsi, 41) ayəsiylə insanların inkar etmələri üçün səy göstərən bu liderlərin varlığını Quranda bildirir. (Ətraflı məlumat üçün Dinsizliyin "Atəşə Çağıran" rəhbərləri bölümünə baxın)

Ancaq Allah başqa bir ayədə, insanları inkara sövq edənlərin məruz qalacaqları aqibətə də bu şəkildə diqqət çəkir:

**...Allahın ayələrini yalan sayan və onlardan üz çevirən kəsdən daha zalım kim ola bilər? Ayələrimizdən üz çevirənləri üz çevirdiklərinə görə pis əzabla cəzalandıracağıq. (Ənam surəsi, 157)**

Materializmin çökdürülməsi, həmçinin dünyada gün keçdikcə daha da çox yayılan dinsizliyin aradan qaldırılması mənasına da gəlir. Bunun üçünsə, insanlara maddənin əzəli və əbədi olmadığının izah edilməsi və təkamül nəzəriyyəsinin elmi baxımdan tamamilə etibarsız bir nəzəriyyə olduğunun yayılması lazımdır. (Kitabın "Maddənin Ardındaki Sirr" hissəsində maddənin əzəli və əbədi olmadığına aid məlumatlar verilir və materialistlərin öz ifadələri ilə bu məlumatlar, "materializmin bütün mədəniyyət fakturasını yox edir"). Bunun sayəsində Allahın varlığını inkar edən düşüncə sistemlərinin hamısı yox edilmiş olacaq.

Bu, materializmi gözləyən qaçılmaz aqibətdir. Allahın bir ayəsində bildirdiyi kimi, **"Onların etiqad etdiyi şey (din) məhvə məhkumdur və gördükləri iş batildir".** (Əraf surəsi, 139)

# DARVİNİZMİN DİNSİZLİK ÜÇÜN ƏHƏMİYYƏTİ

Bəlkə də bu kitabı oxuyanların bəziləri, darvinizm və materializm kimi fikirlərin dinsizliyin ən əhəmiyyətli dayağı sayıla bilməyəcəyini, bir çox insanın bu anlayışlardan heç bir xəbərinin olmadığı halda dinsiz ya da dindən tamamilə xəbərsiz bir həyat yaşadığını düşünə bilər. Bu fikir ilk baxışda doğru kimi görünə bilər: Yaşadığımız əsrə baxdıqda, insanların bir çoxunun heç bir şey düşünməməyə əsaslanan bir həyat yaşadıqları müşahidə olunur. Xüsusilə də gənclər arasında, yalnız çox pul qazanıb əyləncəli həyat yaşamağa əsaslanan səthi bir mədəniyyət inkişaf etmişdir. Bu səthi mədəniyyət daxilində "mən necə yarandım, kim məni yaratdı" kimi suallara yer yoxdur. Bu insanlar nə özlərini Allahın yaratmış olduğunu düşünər, nə də azğın ideologiyalarını dərk edərlər. Başlarını dolduran fikirlər, kino ulduzlarının həyatı, estrada müğənnilərinin qalmaqalları və buna bənzər tamamilə boş mövzulardır. Cəmiyyətin böyük bir qismi də yenə necə yarandıqları kimi "dərin" mövzularla maraqlanmaz. İnsanların bütün fikirləri, öz sözləriylə desək, "dolanışıq dərdi", ya da oxşar dünyəvi mövzular və aktual məsələlər üzərinə cəmlənmişdir.

Nəticədə cəmiyyətdə darvinizmə inanan, materialist fəlsəfəni şüurlu surətdə mənimsəyən insanların sayı elə də çox olmaz. Bəzi insanların din əxlaqından uzaq yaşamalarının səbəbi, çox vaxt ağıllarının bomboş olmasıdır. Məhz buna görə də, yuxarıda haqqında danışdığımız "Darvinizm və materializm bu qədər əhəmiyyətlidirmi?" sualı doğulur. Ancaq əgər bu mənzərə bir az daha yaxından araşdırılsa, həqiqətdə darvinizmin dinsizliyi yaşadan ən əhəmiyyətli ünsür olduğu aydın olar. Çünki darvinizmi mənimsəyən kütlə, cəmiyyət daxilindəki nisbəti az da olsa, o cəmiyyətə fikri cəhətdən istiqamət verən bir kütlədir. Məsələn, ABŞ-da aparılan bir ictimaiyyət araşdırmasında, cəmiyyətin yalnız 9%-nin ateist təkamülçü olduğu ortaya çıxmışdır. Amma bu 9%-lik təbəqə, universitetlərdə, mətbuatda, rəsmi elm təşkilatlarında və ya film sektorunda hakim vəziyyətdədir. Cəmiyyətə istiqamət verən, təhsil siyasətini müəyyənləşdirən, mətbuat vasitəsilə xalqın şüurunu formalaşdıran təbəqə, böyük miqyasda bəhsi keçən ateist təkamülçülərdən ibarətdir.

Diqqətlə baxsaq, eyni vəziyyətin bir çox ölkədə keçərli olduğu görünər. Bu məqamda maraqlı bir göstərici, kommunist ideologiyanı müdafiə edən kəslərin, fikri və mədəni sahələrdəki göstərdiyi səyləridir. Məlum olduğu kimi bu gün kommunizm, bir neçə ölkədən başqa, siyasi bir sistem olaraq çökmüşdür. Amma həqiqətdə kommunizm hələ də bəzi dairələr tərəfindən tez-tez gündəmdə saxlanılır. Çünki əhəmiyyətli olan kommunizmin fikri əsasını meydana gətirən materialist fəlsəfədir və materialist fəlsəfə hələ də yaşayır.

Kommunistlər də “Marksın iqtisadiyyat nəzəriyyəsində bəzi səhvlər vardı, amma materializm yaşayır” mesajını tez-tez verirlər. Bir çox ölkəyə baxdıqda, kommunistlərin mədəni cəhətdən ciddi bir təşkilatlandıqları, sənət, elm, fəlsəfə kimi sahələrdə olduqca əhəmiyyətli bir təsir yaratdıqları görünə bilər. Nəşriyyatların əhəmiyyətli bir hissəsi, onların nəzarətindədir. Kitab sərgilərində onların fikirləri ön plana çıxır. Böyük media təşkilatlarını istiqamətləndirən, buralarda icmalçı kəslərin əhəmiyyətli bir hissəsi də, “68 qurşağı” kimi tanınan və ya “köhnə tüfəng” olaraq adlandırılan Marksist mənşəli kəslərdir. Bunlar kommunizmin iqtisadi olaraq çökdüyünü qəbul etmələrinə baxmayaraq, materialist fəlsəfəyə olan bağlılıqlarını davam etdirir və öz aləmlərində “din xalqın tiryəkidir” deyə düşünməyə davam edirlər.

Darvinizm, bu kəslərin dinidir. Darvinizmə hər nə olursa olsun kor-koranə inanır və əllərindəki imkanlardan istifadə edərək bu nəzəriyyəni yaşatmaq üçün səy göstərirlər. Cəmiyyətin əhəmiyyətli bir hissəsi “mən necə yarandım” sualı üzərində heç düşünmədən bomboş bir zehinlə yaşaya bilir. Amma bu sualı düşünən insanların çoxu, bir qədər əvvəl də ifadə etdiyimiz kimi kommunist təşkilatlanmaya görə darvinizmlə aldadılırlar.

Gənc bir insan universitetə getdikdə darvinist müəllimlərin təlqininə məruz qalır, kitab sərgilərini gəzərkən darvinist və ateist kitablarla qarşılaşır, bir incəsənət sərgisinə, teatra getdikdə, yenə eyni mesajlara məruz qalır. Beləcə cəmiyyətin təhsilli və şəhərli təbəqəsini təsiri altına alan dinsiz bir mədəniyyət yaradılır. Darvinizm isə bu mədəniyyətin ən böyük əsasıdır.

Bu sehrin təsiri altına düşənlər, darvinizmin elmi bir həqiqət olduğunu zənn edir, din əxlaqını isə guya “xalq təbəqələrinin sahib olduğu ənənəvi bir inanc” kimi görür. Necə ki, Quranda inkarçıların, **“Onlardan: “Rəbbiniz peyğəmbərinə nə nazil etmişdir?” – deyə soruşduqda, onlar: “Bu, keçmişdəkilərin nağıllarıdır!” – deyərlər” (Nəhl surəsi, 24)** deyə cavab verdikləri bildirilir. Halbuki, həqiqətdə din əxlaqının yaşanması, insanın Yaradanımız olan Allaha dönüb-yönəlməsidir, Rəbbimizin bildirdiyi haqq olan bir həqiqətdir. Amma darvinizmlə aldadılan kəslər, bu həqiqəti qavraya bilməyəcək qədər şüursuzlaşmışdır.

Bu din əxlaqından uzaq mədəniyyətin aradan qaldırılması üçün, darvinizmin və materialist fəlsəfənin elmi üsulla yox edilməsi məcburidir.

# MATERİALİZMİN MEYDANA GƏTİRDİYİ SAXTA DİNLƏR

Əvvəlki hissədə də gördüyümüz kimi insanları din əxlaqını yaşamaqdan uzaqlaşdıran, mənəvi dəyərlərini korlayan ən təhlükəli fikri cərəyanlardan biri materializmdir. Hal-hazırda mövcud olan cəmiyyətlərin böyük bir hissəsi, fərqində olsa da, olmasa da, materialist dünyagörüşünün təsiri altındadır. Ancaq burada əhəmiyyətli bir məqam ifadə edilməlidir. Materialist dünyagörüşünə sahib olmağın tək əlaməti, Allahın varlığını açıq şəkildə inkar etmək deyil. İnsanların böyük bir hissəsi Allahın varlığını qəbul edirlər, amma buna baxmayaraq materialist dünyagörüşünə sahibdirlər. Quranda bu səhv məntiqə sahib insanlarla əlaqədar çoxlu sayda ayə vardır. Bu ayələrdən bəzilərində belə buyrulur:

**De: "Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqlara və gözlərə hakim olan kimdir? Ölüdən diri çıxaran, diridən də ölü çıxaran kimdir? İşləri yoluna qoyan kimdir?" Onlar deyəcəklər: "Allah!" De: "Bəs belə olduğu halda Allahdan qorxmursunuz?". O sizin Haqq Rəbbiniz olan Allahdır. Haqdan sonra zəlalətdən başqa nə ola bilər? Siz necə də haqdan döndərilirsiniz! (Yunis surəsi, 31-32)**

**De: "Əgər bilirsinizsə, deyin görüm yer və onun üstündə olanlar kimindir?" Onlar: "Allahındır!" - deyəcəklər. De: "Bəs düşünüb ibrət almayacaqsınız?" De: "Yeddi göyün Rəbbi və əzəmətli Ərşin Rəbbi kimdir?" Onlar: "Allahdır!" - deyəcəklər. De: "Bəs qorxmursunuz?" De: "Əgər bilirsinizsə, deyin görüm hər şeyin hökmü əlində olan, himayə edən, Özünün isə himayəyə ehtiyacı olmayan kimdir?" Onlar: "Allahdır!" - deyəcəklər. De: "Bəs necə olur ki, aldanırsınız?" Xeyr, Biz onlara haqqı gətirdik. Onlar isə yalançıdırlar! (Muminun surəsi, 84-90)**

**Əgər sən onlardan: "Göyləri və yeri kim yaratmışdır?" - deyə soruşsan, onlar mütləq: "Allah!" - deyəcəklər. De: "Bir deyin görək, əgər Allah mənə bir zərər toxundurmaq istəsə, sizin Allahdan başqa ibadət etdikləriniz Onun zərərini aradan qaldıra bilərlərmi? Ya da O mənə bir mərhəmət göstərmək istəsə, onlar Onun mərhəmətinin qarşısını ala bilərlərmi?" De: "Mənə Allah yetər. Təvəkkül edənlər yalnız Ona təvəkkül edirlər!" (Zumər surəsi, 38)**

Yuxarıdakı ayələrdə də göründüyü kimi, bu kəslərdən inanclarının nə olduğunu soruşduqda Allaha və dinə inandıqlarını deyərlər. Lakin Allahın qüdrətini lazım olduğu kimi təqdir edə bilməz, Ona başqa varlıqları şərik qoşarlar. Məhz bu insanlar, haqq dindən uzaq bir dünyagörüşünün meydana gətirdiyi saxta dinlərə mənsubdurlar. Keçmişdə olduğu kimi, dövrümüzdə də insanların bir hissəsi "din" olaraq Allahın vəhyinə əsaslanan həqiqi dinə deyil, dinsizliyin meydana gətirdiyi saxta və süni dinlərə tabe olurlar.

Yuxarıda haqqında danışdığımız insanlarla yanaşı bir də açıq şəkildə Allahı və axirəti inkar edən kəslər də vardır. Bu kəslər digər insanların da özləri kimi inkara yönəlmələri üçün səy göstərərlər. İndiki vaxtda əksər hissəsi, materializmin və təkamül nəzəriyyəsinin bağlıları olaraq qarşımıza çıxan bu insanlar, digər insanlara da öz inancları istiqamətində təlqinlər verirlər.

Ancaq materialistlərin Allahın varlığını bilən, amma gücünü təqdir edə bilməyən ənənəvi bir din anlayışına sahib cəmiyyətlərdə tətbiq etdiyi üsullar, ateizmə daha meyilli olan cəmiyyətlərdə tətbiq etdiklərindən fərqlidir. Materialistlər hər cəmiyyətin strukturuna görə formalaşdırdıqları yeni dinlər və maddəni əsas götürən təlqinlərlə insanları, Allahın elçiləri vasitəsiylə endirdiyi haqq dinlərdən uzaqlaşdırmağa çalışırlar.

Xurafatların olduğu, əslindən uzaqlaşdırılmış bir din anlayışına sahib insanların isə dinsizliklə mübarizə aparması və dinsizliyi təsirsiz hala gətirməsi qeyri-mümkündür. Hətta belə bir din anlayışı dinsizliyə bilərək və ya bilməyərək dəstək verəcəkdir. Buna görə də materialist dünyagörüşüylə yaradılan saxta dinlərin xüsusiyyətlərinin üzərində dayanmaq və bu azğın din anlayışlarını tanımaq dinsizliklə mübarizə mövzusunda olduqca əhəmiyyətlidir. Sonrakı səhifələrdə əvvəlcə dinsizliyin dinlərindən bu kitabın da mövzusu olan ikisinin, yəni materialist və təkamülçü dinin bəzi xüsusiyyətləri üzərində dayanacağıq. Və bu saxta dinlərin inanc formalarının, Quranda bildirilən bütpərəst inanclarla aralarındakı diqqət çəkən oxşarlıqları araşdıracağıq.

# XXI ƏSRİN BÜTPƏRƏSTLƏRİ

Allah Quranda, Özündən başqa varlıqlara tapınan, cansız bütləri məbud qəbul edən insanların varlığından və elçilərinin bu insanlarla olan mübarizəsindən bəhs edir. Bir çox insan keçmişdə yaşamış və cansız bütlərə tapınan bu cəmiyyətlərin ibtidai bir həyat yaşadıqlarını və buna görə də belə bir din anlayışına sahib olduqlarını zənn edər. Hətta dövrümüzdəki bəzi inkişaf cəhətdən geri qalmış Afrika qəbilələrinin totemlərə tapınmalarını da, bu cəmiyyətlərin ibtidai olmalarıyla əlaqələndirirlər.

Halbuki, Quranda bütə ibadət etdikləri ifadə edilən cəmiyyətlərin inanc və dünyagörüşlərini diqqətlə araşdırdıqda, dövrümüzdəki insanların bir qisminin yaşayışlarıyla aralarında çox böyük oxşarlıqlar olduğunun fərqinə vararıq. Bu bütpərəst cəmiyyətlər necə özlərinə cansız heykəlləri, taxtadan, daşdan hazırlanmış əşyaları məbud qəbul etmişlərsə, indiki vaxtda da cansız maddələri özlərinə yeni məbud seçən anlayışlar vardır. Bütpərəstlərlə dövrümüzdəki bəzi anlayışlar arasındakı bənzərliklərə keçmədən əvvəl, Quranda Allahın bütpərəst cəmiyyətlər haqqında verdiyi bəzi məlumatlar üzərində dayanaq.

Quranda haqqında danışılan bütpərəst birliklərdən biri hz. İbrahimin qövmüdür. Ayələrdə belə buyrulur:

**Bir zaman o, atasına demişdi: "Atacan! Nə üçün eşitməyən, görməyən və sənə heç bir faydası olmayan bir şeyə sitayiş edirsən? (Məryəm surəsi, 42)**

**Bir zaman o öz atasına və tayfasına: "Bu nə heykəllərdir ki, siz onlara sitayiş edirsiniz?" – demişdi. Onlar: "Biz atalarımızı onlara ibadət edən görmüşük!" – demişdilər. İbrahim demişdi: "Doğrusu, siz də, atalarınız da, açıq-aydın bir azğınlıq içindəsiniz". (Ənbiya surəsi, 52-54)**

Ayələrdə də bildirildiyi kimi hz. İbrahimin öz atası və qövmü, öz əlləriylə hazırladıqları, heç bir şey yaratmağa qadir olmayan cansız maddələri məbud kimi qəbul etmişdilər. Bir varlığı məbud kimi qəbul etməyin mənası, o varlığın yaratmaq, ruzi vermək, bərəkət vermək, şəfa vermək, əzab vermək, təbiət hadisələrini yaratmaq kimi xüsusiyyətlərin hamısına və ya bir qisminə sahib olduğunu qəbul etmək deməkdir. Hz. İbrahim dövründə belə ibtidai bir inanca sahib olan bütpərəstlər öz əlləriylə hazırladıqları cansız heykəllərin bu cür xüsusiyyətlərə sahib olduqlarını iddia edir və onların qarşısında əyilərək bu bütlərə ibadət edirdilər.

Bu qövmün dövrümüzdəki bəzi inanc sistemləriylə olan təəccüblü bənzərliklərini isə sonrakı sətirlərdə bildirəcəyik.

# DÖVRÜMÜZDƏKİ CƏMİYYƏTLƏRDƏ HAKİM OLAN BÜTPƏRƏST DİN

Bütpərəstlər daşdan, taxtadan yonulmuş, cansız, danışma qabiliyyəti olmayan, bir sözlə, heç bir şeyə qadir olmayan heykəllərin güc sahibi olduqlarını iddia etmişlər. Hətta bu bütlərin bütün kainatı yaratdıqlarına və kainatın fəaliyyətinə nəzarət etdiklərinə inanmışlar. Buna görə də onların qarşısında əyilmiş, sağlamlığı, bərəkəti və ruzini onlardan istəmişlər.

Bu həqiqətlər nəzərə alındıqda, dövrümüzdə də eyni bütpərəst məntiqi yaşadanların varlığı aydın şəkildə ortaya çıxar. Materialistlər və təkamülçülər, eyni keçmiş dövrdə yaşamış olan bütpərəstlərin, daşdan düzəldilmiş heykəlləri kainatın və canlıların yaranmasında güc sahibi gördükləri kimi, şüursuz atomlardan ibarət olan cansız maddələrin bir gücə sahib olduqlarını iddia edərlər. Bu cansız maddələrin təsadüflər nəticəsində bir yerə gələrək öz-özlərini əmələ gətirdiklərini və olduqca mürəkkəb və qüsursuz xüsusiyyətlərə sahib olan canlıları meydana gətirdiklərini iddia edirlər.

Üstəlik, onlara görə kainatda baş verən hər hadisə yenə cansız və şüursuz atomlardan ibarət olan "təbiət"in bir fəaliyyətinin məhsuludur. Məsələn, təkamülçülərə və materialistlərə görə bir qasırğa və ya bir zəlzələ "təbiət"in qərar verməsiylə meydana gəlir və bu hadisələri izah edərkən "təbiət ananın qəzəbi" və ya "təbiətin möcüzəsi" kimi terminlərdən istifadə edərlər. Amma "təbiət" deyilən gücün nə olduğunu, haradan qaynaqlandığını izah edə bilməzlər. Əslində, "təbiət ana" və ya "təbiət" olaraq adlandırdıqları bu dırnaq arası güclər, keçmişdə yaşayan bütpərəst cəmiyyətlərin "torpaq ana", "bərəkət tanrısı" kimi adlar verdikləri bütlərindən fərqlənmir. Aradan sadəcə simvollar götürülmüş, gözlə görülməyən cansız maddələr və təsadüflər məbud qəbul edilərək, onların yaratma gücünə sahib olduqları iddia edilmişdir.

Təkamülçülərin və materialistlərin bu gizli məbudlarını, özü də qatı bir təkamülçü olan Fransız zooloq Pier Pol Qraze belə izah edir:

... (Təkamülçülərin canlıların izahı olaraq qarşıya qoyduqları) Təsadüf, ateizm pərdəsi altında gizli şəkildə tapınılan bir növ məbud halına gəlmişdir.[12]

Təsadüfləri, cansız maddələri, şüursuz atomları yaratma gücünə sahib varlıqlarmış kimi zənn etmək, əlbəttə ki, ağılsızlıqdır. Bütpərəstlər necə öz əlləri ilə hazırladıqları bütlərin bütün varlıqları yaratdıqlarına inanırlarsa, təkamülçülər və materialistlər də cansız maddələrin öz-özlərinə canlı varlıqları yaratdıqlarına inanırlar. Bu inancın mənşəyi, cansız maddələri ağıl və iradə sahibi, qərar verə bilən və bu

qərarları həyata keçirə bilən varlıqlar kimi qəbul etməyə qədər gedib çıxır və beləcə əslində hər şey məbud kimi görülür.

Məsələn, quru torpaqda çox gözəl bir qoxuyla və göz oxşayan bir rənglə bitən bir gülü təkamülçülər məbud qəbul etmişlər, çünki gülün öz-özünə meydana gələ biləcəyinə, yəni bir gülü əmələ gətirən cansız maddələrin gülü öz-özlərinə hazırlayıb yaratdığına inanırlar. Eynilə təkamülçülər portağalları, almaları, çiyələkləri, bananları, üzümləri, ağacları, çiçəkləri, ceyranları, aslanları, filləri, qarışqaları, bal arılarını, ağcaqanadları, dəniz altındakı bütün canlıları, torpaqdan çıxan qarpızı, cəfərini, bir sözlə, var olan hər bir şeyi canlı-cansız bütün varlıqları, öz özünə yarana bilmək qabiliyyətinə sahib bir məbud kimi görürlər. Çünki bütün bu saydığımız və burada saya bilmədiyimiz milyonlarla canlının öz şüurları və iradələri ilə bir inkişaf göstərdiklərini, hal-hazırdakı fiziki xüsusiyyətlərinə və şüur sərgiləyən davranışlarına sahib olduqlarını iddia edirlər.

Məsələn, təkamülçülər, bir bal arısının keçmişdə fərqli bir canlı olduğunu, daha sonra arı olmağa qərar verərək öz bədənində bal hazırlayan mexanizmlər qurduğunu iddia edərlər. Ağcaqanadların da əslində əvvəllər uça bilməyən canlılar olub, bir gündə özləri üçün bir cüt qanad yaradaraq uçmağa başladıqlarını deyərlər. Üstəlik, hal-hazırda insanların istehsal etdiyi helikopterlərlə, təyyarələrlə belə müqayisə edilməyəcək mükəmməlikdəki uçuş sistemləri inkişaf etdirərək...

Məhz təkamülçülərin yer üzündə mövcud olan milyardlarla canlı ilə əlaqədar danışmağa bu cür bir çox hekayələri vardır. Və bu hekayələrin hamısında diqqət çəkən ortaq məqam, canlıları meydana gətirən cansız atomların və ya yaşadıqları cansız təbiətin ağlı, şüuru və elmi olduğuna istiqamətlidir. İzah etdikləri bütün bu ssenarilərə “təbii seleksiya”, “təsadüfi mutasiyalar”, “coğrafi izolyasiya” kimi elmi görünüş verən terminlərlə bəzəyərlər. Amma nəticədə müdafiə etdikləri şey, təbiəti meydana gətirən cansız maddələrin öz-özünə qüsursuz canlılar yarada bildikləri iddiasıdır.

Bundan çıxan nəticə, bütün bu varlıqların müstəqil məbudlar kimi qəbul olunmalarıdır. Yəni təkamülçülərin yüz minlərlə, milyonlarla, hətta kvadrilyonlarla bütü vardır, banan bütü, portağal bütü, ağcaqanad bütü, cəfəri bütü, pişik bütü, qərənfil bütü, gül bütü, balina bütü, zürafə bütü, tovuz bütü, kəpənək bütü, hörümçək bütü, akasiya bütü, naringi bütü, qarışqa bütü, fil bütü, bənövşə bütü və s... Çünki bu inanca görə, bu varlıqların hamısı özünü və özlərindən sonrakı nəsillərini yarada bilən bir məbuddur.

Təkamülçülərə görə müxtəlif maddələri meydana gətirən şüursuz atomlar həmçinin atmosferi də qüsursuzca dizayn etmiş və quraraq “yaratmışdır”lar. (Allahı tənzih edirik) Beləcə atmosfer, dünya üçün qoruyucu bir tavan olmuş və yer üzündə

canlıların meydana gələ bilməsi və yaşaya bilməsi üçün lazım olan bütün xüsusiyyətləri özündə saxlaya bilmişdir. Yəni maddəni məbud qəbul edənlərin bu mövzuda da güc sahibi gördükləri bütləri vardır, karbon bütü, oksigen bütü, helium bütü, hidrogen bütü, azot bütü, dəmir bütü...

Yenə bu səhv inanca görə, görmə qabiliyyəti olmayan atomlar əvvəlcə bir yerə gəlmişlər, sonra bir-biriylə razılaşaraq qüsursuz bir iş görmüşlər və bunun nəticəsində də görə bilən bir gözü əmələ gətirmişlər. Ancaq elə şüurlu və planlı davranmışlar ki, gözdən əvvəl gözü yerləşdirəcəkləri göz çuxurunu yaratmaq üçün digər atomların fəaliyyətlərini də təmin etmiş və bunun üçün meydana gəlməsi lazım olan təsadüfləri səbirlə gözləmişdirlər. Gözü meydana gətirən atomlar, belə mükəmməl bir orqanı və duyğunu yarada bildikləri üçün təkamülçülərə görə görməyi təmin edən "məbudlar"dır. Yəni keçmişdə yaşamış insanlar necə özlərinə yağış yağdıracağına inandıqları xəyali "yağış tanrısını" məbud qəbul etmişdirlərsə, təkamülçülər də gözə aid atomları, gözü meydana gətirən məbudlar kimi qəbul etmişlər.

Bu məntiqə görə, materialist və təkamülçü dinin, kvadrilyon vurulsun kvadrilyon vurulsun kvadrilyondan daha çox tapındıqları və yaradıcı kimi qəbul etdikləri məbudları vardır. Kainatda görünən hər varlığın öz-özünə və təsadüflər nəticəsində meydana gəldiyini demək, kainatdakı hər varlığı təsadüflərlə birlikdə məbud kimi qəbul etmək deməkdir. Şüursuz atomların və təsadüflərin qüsursuz və nöqsansız dizaynlar ortaya çıxardıqlarını iddia etməklə, totemlərin önündə əyilib, taxta heykəldən sağlamlıq və bərəkət istəmək eyni ağılsızlığın məhsuludur. Dəyişən tək şey yaşanılan əsrlərin adıdır.

# TƏKAMÜLÇÜLƏRİN SAXTA MƏBUDLARI: ŞÜURSUZ ATOMLAR

Üstündə daş, torpaq, beton və ya asfalt deyə yeridiyiniz, kreslo deyə oturduğunuz, ağ ciyərlərinizlə hava deyə nəfəs aldığınız, yaşaya bilmək üçün yediyiniz yeməklər ilə bədəninizin 2/3-dən çoxunu təşkil edən su və hətta bütün bədəninizin daxilində və xaricində mövcud olan canlı-cansız hər şey atomlardan meydana gəlmişdir. Həmçinin kainatı meydana gətirən ulduzlar, qalaktikalar, günəşlər və bu vaxt yaşadığınız dünya da eynilə sizin kimi atomlardan meydana gəlmişdir. Gəzdiyiniz hər yerdə, olduğunuz hər küncdə, şəhərin hər binasında, tozunda, havasında yenə atomlar vardır.

Məlum olduğu kimi bütün canlılar da karbon, hidrogen, oksigen, kalsium, maqnezium, dəmir kimi elementlərin atomlarından meydana gəlir. Buna görə də insan da bu atomlardan meydana gəlir. Darvinizm isə bu atomların şüursuz təsadüflər nəticəsində bir yerə gəldiklərini iddia edir. Yəni təkamülçü məntiqə görə bəhsi keçən şüursuz atomlar yığını, şüurlu bir insanı, məsələn atom energetikası üzrə ixtisaslaşmış bir atom mühəndisini meydana gətirməyə qərar vermişlər.

Bu axmaq iddianı bir az daha ətraflı araşdırmaq lazım gəlsə qarşımıza belə bir nəticə çıxar: Səbəbi qeyri-müəyyən olan bir gücün təsiriylə müxtəlif atomlar meydana gəlmiş, daha sonra bu atomlar təsadüfən bir yerə gələrək ulduzları, planetləri, yəni bütün göy cisimlərini yaratmışlar. Daha sonra yenə eyni atomların təsadüfü şəkildə bir yerə gəlməsiylə olduqca mürəkkəb quruluşda canlı bir hüceyrə meydana gəlmiş, sonra da atomlardan ibarət olan bu canlı hüceyrə guya bir təkamül müddəti keçirərək olduqca fövqəladə sistemlərə malik canlıları və ən son mərhələdə də olduqca şüurlu olan insanı meydana gətirmişdir. Tamamilə təsadüflər nəticəsində yaranan insan yenə təsadüflər nəticəsində yaranan alətlərlə, məsələn, bir elektron mikroskopla öz-özünə yaranan atomları kəşf etmişdir. Elə darvinizmin elmi bir tezis kimi irəli sürdüyü məntiq tam olaraq budur.

Belə olduqda təkamül nəzəriyyəsi, açıq şəkildə hər bir atomu "məbud" kimi qəbul edir. Ağıl və şüur sahibi insanı meydana gətirən atomların özlərinə aid bir şüurları və iradələri yoxdur. Amma təkamülçülər hanısısa səbəbə görə bu cansız atomların bir yerə gəlib, məsələn, bir insanı yaratdıqlarını, sonra da bu "atomlar birliyi"nin oxumağa, universitet bitirməyə qərar verdiyini iddia edirlər.

Bu iddiaya görə atomların həmçinin çox maraqlı qabiliyyətləri də vardır, bu atomlar yenə atomlardan ibarət olan yeməkləri yeyər, yeyərkən dadını hiss edər, yenə

atomlardan ibarət olan gülü iyləyərkən də qoxusundan həzz alarlar. Eyni atomlar olduqları məkanın temperaturunu hiss edərlər. Bu vaxt atomlar maqnitofondan çıxan səs dalğalarını dinləyib, musiqinin ritmini tuta bilərlər. Təkamülçü iddiaya görə çoxlu sayda atom bir yerə gəldikdə düşünə bilər, darıxa bilər, sevinər və ya kədərlənər. Üstəlik komediya filmini seyr edib, seyr edərkən də qəhqəhə çəkib gülə bilir.

Məhz bu məqamda artıq keçmiş qövmlərin taxtadan, daşdan hazırladıqları bütlərlə atomlar arasında bir fərq qalmır. Necə ki, keçmiş qövmlər taxta parçalarının bəzi güclərə sahib olduqlarını iddia etdikləri kimi, təkamülçülər də şüursuz atomların eyni güclərə sahib olduqlarını deyirlər.

Halbuki, kainatda mövcud olan heç bir şeyin bir təsadüf nəticəsində meydana gələ bilməyəcəyi, ancaq üstün bir şüur və iradənin varlığı ilə yarana biləcəyi aydın bir həqiqətdir. İstər insanın, istərsə də təbiətin hər incəliyində çox böyük ağlın və elmin izləri müşahidə olunur. Məhz bu elmin və ağlın sahibi göylərin və yerin Rəbbi olan Allahdır.

Allah heç bir gücü olmayan bütlərə tapınan qövmlərin gördükləri işin batil olduğunu və etiqad etdikləri əqidənin də "məhvə məhkum olduğunu" belə xəbər vermişdir:

**Biz İsrail oğullarını dənizdən keçirtdik və onlar öz bütlərinə tapınan bir qövmə rast gəldilər. Onlar dedilər: "Ey Musa! Onların məbudları olduğu kimi, bizim üçün də bir məbud düzəlt". Musa dedi: "Həqiqətən, siz cahil bir tayfasınız. Şübhəsiz ki, bunların etiqad etdikləri əqidə məhvə məhkumdur, gördükləri işlər isə batildir". Musa dedi: "O, sizi aləmlərdən üstün etdiyi bir halda, mən sizin üçün Allahdan başqa məbudmu arayım?" (Əraf surəsi, 138-140)**

# GÜNƏŞ DİNİ

Dövrümüzdəki təkamülçü və materialistlərlə keçmişdəki bütpərəst cəmiyyətlər arasındakı digər bir bənzərlik, hər iki qrupun da Günəşə tapınmağa əsaslanan dini bir inanca sahib olmalarıdır.

Günəşə tapınmaq, tarixin ən qədim dövrlərindən bəri mövcud olan azğın bir inancdır. Günəşin onlara istilik və işıq verdiyini görən insanlar, bu vəziyyət qarşısında varlıqlarını bu göy cisminə borclu olduqları zənninə qapılmış və Günəşi məbud qəbul etmişlər. Bu azğın inanc tarixdə bir çox cəmiyyəti Allahın haqq dinindən uzaq tutmuşdur. Quranda bu mövzuya toxunulur və hz. Süleyman dövründə yaşayan Səba xalqının Günəşə ibadət etdikləri belə izah edilir:

**Mən onun və tayfasının Allahı qoyub günəşə səcdə etdiklərinin şahidi oldum. Şeytan onların əməllərini özlərinə gözəl göstərmiş və onları haqq yoldan çıxartdığına görə haqqın yolunu tapa bilmirlər. Şeytan ona görə belə etmişdir ki, göylərdə və yerdə gizli olanı aşkara çıxardan, sizin gizlətdiklərinizi də, üzə çıxartdıqlarınızı da Bilən Allaha səcdə etməsinlər. (Nəml surəsi, 24-25)**

Diqqət yetirilsə, insanların Günəşə tapmaları, tam bir cəhalətin və ağılsızlığın nəticəsidir. Günəşin Yerə istilik və işıq verdiyi doğrudur, ancaq bunun üçün şükür edilməli olan varlıq, Günəş deyil, onu yaratmış olan Allahdır. Heç bir şüuru olmayan bir maddə yığını olan Günəşi Allah bir vaxtlar yoxdan yaratmışdır. Gələcəkdə bir gün də yanacağı tükənəcək və sönüb gedəcək. Allah Günəşi də, bütün digər göy cisimlərini də yoxdan yaratmışdır və buna görə də bütün bu varlıqlara görə öyülüb ucaldılması lazım olan Allahdır. Bir ayədə bu həqiqət belə izah olunar:

**Gecə və gündüz, günəş və ay Onun dəlillərindəndir. Əgər siz Ona ibadət edirsinizsə, onda günəşə və aya səcdə etməyin, onları yaradan Allaha səcdə edin. (Fussilət surəsi, 37)**

Maraqlı olan, dövrümüzdəki təkamülçülərin də əvvəlki Günəş dinlərinin əsas inancını təkrarlayaraq, varlıqlarını Günəşə borclu olduqlarını müdafiə etmələridir. Təkamülçü qaynaqlara baxdıqda, dünyadakı bütün canlıların qaynağının Günəş olaraq göstərildiyi görünər. Təkamülçülərə görə Günəşdən gələn şüalar dünyada ilk canlıların

yaranmağa başlamasını təmin etmişdir. Daha sonrakı canlı növlərini meydana gətirən də yenə Günəş enerjisi və Günəş şüalarından ötrü baş verən mutasiyalardır. Təkamülçülərin bu mövzudakı yanaşmasını ən yaxşı ümumiləşdirən adam isə, məşhur Amerikalı ateist və təkamülçü Karl Saqan olmuşdur. Saqan *Cosmos* adlı kitabında, *"əgər insanlar özlərindən böyük bir şeyə tapınacaqlarsa bu Günəş olmalıdır"* deyə yazmış və belə əlavə etmişdir:

"Atalarımız Günəşə ibadət edirdilər və bu şəkildə heç də axmaq iş görmürdülər".[13]

Karl Saqanın müəllimi olan təkamülçü astronom Harlou Şaplen isə, "bəziləri başlanğıcda Allah vardı deyir, mən isə başlanğıcda hidrogen vardır deyirəm" sözüylə məşhurdur. Yəni Şaplen hidrogen qazının vaxt ərzində öz-özünə insanlara, heyvanlara, ağaclara çevrildiyinə inanır. Diqqət yetirilsə, bütün axmaq təkamülçü fikirlərin əsasında, maddi varlıqların və təbiətin ilahlaşdırılması inancı durur. Təkamülçülərin dini, maddəyə və təbiətə tapınmaqdır.

Ağıl sahibi insan isə, kainatın və təbiətin cansız və şüursuz maddələrin bir əsəri olmadığını, əksinə gördüyü hər incəlikdə fövqəladə bir ağıl, plan və sənət olduğunu başa düşər. Beləliklə, də Allahın varlığını və möhtəşəm yaratmasını qavrayar. Ancaq indiki vaxtda bir çox insan bu həqiqətə qarşı kordur və maddəyə ibadət etməyə davam edir. Çünki Səba xalqı nümunəsində olduğu kimi, **"...Şeytan onların əməllərini özlərinə gözəl göstərmiş və onları haqq yoldan çıxartdığına görə haqqın yolunu tapa bilmirlər". (Nəml surəsi, 24)**

## “MATERİALİST VƏ NATURALİST TAUNU (XƏSTƏLİYİ)”

Həyatı boyunca dinsizliklə mübarizə aparmış olan Bədiüzzaman Səid Nursi də, Quranın bir təfsiri olaraq hazırladığı Risalə-i Nur Külliyyatında tez-tez “təbiətpərəst və naturalist taunu”ndan bəhs etmişdir. Bədiüzzamanın “təbiətpərəstlik, yəni təbiətə tapınma və materializm, yəni yalnız maddənin varlığını qəbul etmə xəstəliyi” kimi adlandıran bu ifadəsi, dinsizliyin əsasını meydana gətirən materializm və darvinizmə diqqət çəkir. Bədiüzzaman, “təbiətpərəst və naturalist” olaraq adlandırdığı bu dinsiz cərəyanların ağılsızlıqlarını çox təfərrüatlı olaraq izah etmişdir. Bu şərhlərindən biri belədir:

Yaxud fironlaşmış materialist filosoflar kimi, “Öz-özünə yaranırlar. Öz-özlərini bəsləyirlər. Özlərinə lazım olan hər şeyi yaradırlar” deyə düşünürlər ki, imandan, qulluqdan çəkinirlər. Deməli, özlərini bir Yaradıcı zənn edirlər. Halbuki, bir şeyin Yaradıcısı hər şeyin Yaradıcısı olmalıdır. Deməli, təkəbbür və qürurları onları olduqca axmaqlaşdırmışdır ki, bir ağcaqanada, bir mikroba qarşı məğlub olacaq acizi, hər şeyə qadirmiş kimi zənn edərlər.

Bəli, ağılları gözlərinə sükut etmiş materialist filosofların hikmətsiz hikmətləri, heçliyə əsaslanan fəlsəfələrinə görə təsadüfə bağlı olan zərrələrin hərəkətini, bütün qanunlarına əsas tutaraq, İlahi yaradılışa qaynaq göstərmişlər. Sonsuz hikmətlərlə bəzənmiş yaradılışı, hikmətsiz, mənasız, qarmaqarışıq bir şeyə əsaslandırmalarının, nə qədər ağılsız bir hərəkət olduğunu çox az şüuru olan bilər.[14]

İnsanların özlərinə bir “ilahlıq” xüsusiyyəti verməri olduqca səhvdir. Necə ki, Bədiüzzaman da yuxarıdakı ifadələrində bu həqiqətə toxunur. İnsanın Allah qarşısında aciz bir varlıq olaraq bu qüsursuz kainatın yaranmasını “təsadüflər”lə əlaqələndirməsinin, Allahın varlığını açıq-aşkar inkar etməsinin nə qədər böyük bir nankorluq olduğuna diqqət çəkmişdir. Bədiüzzaman, başqa ifadələrində isə indiki vaxtda bu tip bir dinsizlik cərəyanının çox sıx olaraq yaşanacağına, insanların bu “dinsizlik dini”ndən mütləq xilas olmalarının lazım olduğuna diqqət çəkmişdir:

Materialist, maddəçi fəlsəfəsindən gələn Nəmrud kimi bir fikir cərəyanı, Axırzamanda materialist fəlsəfənin vasitəçiliyi ilə yayılaraq güclənər, Allahı inkar edəcək bir dərəcəyə gələr... Bir ağcaqanada məğlub olan və bir ağcaqanadın qanadını belə yaratmaqdan aciz bir insanın ilahlıq iddasında olması nə dərəcə axmaqca bir məsxərəlik olduğu məlumdur.

Bədiüzzamanın da üzərində dayandığı kimi cansız maddələrin öz-özünə kainatı və canlıları yaratdıqlarına inanmaq olduqca ağılsızlıq və məntiqsizlikdir. Belə bir inanca

sahib olanların ağıl və mühakimə qabiliyyətinə sahib insanlar olduqlarını demək qeyri-mümkündür. Necə ki, hz. İbrahim də əvvəlki səhifələrdə izah etdiyimiz hekayənin davamında, əlləriylə yonub düzəltdikləri bütlərə tapınan qövmünün ağılsızlığını belə ifadə etmişdir:

**İbrahim dedi: "Elə isə Allahı qoyub sizə heç bir fayda və zərər verə bilməyən bütlərəmi tapınırsınız? Tfu sizə də, Allahdan başqa tapındıqlarınıza da! Doğurdandamı, siz dərk etmirsiniz?" (Ənbiya surəsi, 66-67)**

# MATERIALİST VƏ TƏKAMÜLÇÜ DÜNYAGÖRÜŞÜNÜN MEYDANA GƏTİRDİYİ SAXTA DİNLƏR

Kitabın əvvəlindən etibarən xüsusilə diqqət çəkdiyimiz kimi, materialistlərin ən böyük məqsədi Allahı və dini inkar edən, özbaşına insan birlikləri yaratmaq və heç kimə heç bir şey üçün hesab verməyən bir insan modeli meydana gətirməkdir.

Buna görə də materialist fəlsəfənin əsasında Allahın varlığını inkar edən, hər cür mənəvi dəyəri, dürüstlük, qardaşlıq, paylaşma, sevgi, sülh kimi gözəl əxlaqa dair hər cür xüsusiyyəti rədd edən bir cəmiyyət arzusu durur. Materialistlər bu arzularını reallaşdırmaq üçün əvvəlcə, materialist anlayışın cəmiyyət içində yayılmasının və əsaslı bir surətdə yerləşdirilməsinin lazım olduğunu bilirlər.

Buna görə də, indiki vaxtda insanların böyük bir qismini təsiri altına almış materializm və onun dırnaqarası elmi əsası olan təkamül nəzəriyyəsi haqq dini qətiyyən qəbul etməz. Materializm ancaq batil, yəni saxta bir dinin varlığını qəbul edə bilər. Neo-darvinist cərəyanın qabaqcıllarından biri olan Corc Qeylord Simpson təkamülçülər tərəfindən qəbul edilmiş dini belə ifadə edir:

Əlbəttə ki, bir din olaraq müəyyənləşdirilən və dini hisslərə əsaslanan və hələ varlıqlarını qoruyan bəzi inanc sistemləri vardır. Bunların təkamüllə uyğunluğundan qətiyyən söhbət gedə bilməz və buna görə də romantik təsirlərinə baxmayaraq, intellektual olaraq müdafiə olunmaları da qeyri-mümkündür. Ancaq romantik çərçivədə qalmaları şərtiylə, mən bunların təkamüllə bir yerdə mövcud ola biləcəklərini müdafiə edirəm. Başqa sözlə, təkamül və doğru din, bir-biriylə uyğunlaşa bilərlər.[15]

Təkamülçü Simpson ümumiyyətlə doğru dinin, "romantik çərçivədə qalmaq şərtiylə" öz dünyagörüşləri ilə birlikdə davam etdirilə biləcəyini ifadə edir. Bu təkamülçü elm adamının "doğru din" olaraq nəzərdə tutduğu din isə, əlbəttə ki, Allahın vəhyinə əsaslanan haqq din deyil. Bu din, həqiqətləri ifadə etməyən, insanlara yalnız romantik olaraq təsir edən, materialist düşüncə istiqamətində yaradılmış "dinsiz" bir dindir. İndiki vaxtda "mən dinə inanıram" deyən insanların bəziləri isə əslində fərqində olmadan, materialistlərin "doğru din" olaraq qəbul etdikləri bu saxta dini yaşayırlar.

Aşağıda bu saxta dinlərin bəzi xüsusiyyətləri üzərində dayanılacaq. Göründüyü kimi bunların hamısı cəmiyyətdə din adı altında geniş şəkildə yaşanan yanlış inanclardır. Lakin bəzi insanlar ümumiyyətlə düşünməyə çox vərdiş etmədikləri üçün, bu inanclardakı yanlışlığı da fərq edə bilməzlər. Buna görə də haqq dini bilən səmimi möminlərin, insanları dinsizliyin bu yanlış dinlərinə qarşı xəbərdar etmələri və onlara Allahın qullarına bir hidayət və rəhbər olaraq endirdiyi Quranı və həqiqi dini izah

etmələri çox əhəmiyyətli bir məsuliyyətdir.

## 1. Allahın səmada olduğuna inanan bir din

İnsanların böyük bir hissəsi Allahın varlığına inanmalarına baxmayaraq, Allahın harada olduğu ilə əlaqədar olduqca azğın inanclara sahibdirlər. Çünki materialist dünyagörüşünə görə maddə mütləqdir və maddədən kənarda hər hansı bir varlığın olması qeyri-mümkündür. Bu dünyagörüşünün təsiri altında olan insan isə Allahın bu maddələrin arasında bir yerə sahib olmasının lazım olduğunu düşünər. Ancaq Allahın necə bir məkanının ola biləcəyini təxəyyülündə canlandıra bilməz.

Eyni yanlış anlayışa sahib insanların keçmişdə də var olduqları Quranda bildirilmişdir. Quranda Fironun Allaha çatmaq üçün göyə uzanan bir qüllə inşa etdirmək istədiyindən bəhs edilir. Onun bu azğın inancı Allahın qüdrətini qavraya bilməməsindən və maddəni mütləq varlıqmış kimi zənn etməsindən qaynaqlanır:

**Firon dedi: "Ey əyanlar! Mən sizin üçün özümdən başqa bir məbud tanımıram. Ey Haman! Mənim üçün palçığın üzərində od qala və bir qüllə düzəlt ki, Musanın məbudunun yanına qalxım. Mən, həqiqətən də, onu yalançılardan hesab edirəm. (Qəsas surəsi, 38)**

Məkanı Allah yaratmışdır və Özü məkandan münəzzəhdir. Məkana bağlı olan, yalnız yaradılmış olan varlıqlardır. Allahın varlığı hər yeri əhatə edər, buna görə də Allah hər an hər yerdədir. (Bu mövzunun təfərrüatlarını "Dinsizliyin Dinlərini Məğlub Edən Həqiqət" hissəsində oxuya bilərsiniz.)

Materialist dünyagörüşünün təsirindən bu aydın həqiqəti qavraya bilməyən insanların tabe olduqları saxta dinə görə isə Allah səmada bir yerdədir. Bəzi insanların dua edərkən yalnız səmaya baxmalarının bir səbəbi də budur. Halbuki, Allahın hər yerdə olduğunu bilən biri, hara baxırsa baxsın Allahın orada olduğunu bilir. Allah bu həqiqəti ayələrində belə bildirir:

**Məşriq də, məğrib də Allahındır! Hansı səmtə yönəlsəniz, Allahın Üzü orada olar. Həqiqətən, Allah hər şeyi Əhatəedəndir, Biləndir. (Bəqərə surəsi, 115)**

**Gözlər Onu dərk etmir. O isə gözləri dərk edir. O, Lətifdir, hər şeydən**

**Xəbərdardır. (Ənam surəsi, 103)**

### 2. Allahın kainatı və insanları yaratdıqdan sonra, öz başlarına buraxdığına inanan bir din

İnsanların tabe olduqları saxta dinlərin inanclarından biri də, Allahın əvvəlcə bütün kainatı və canlıları yaratdığı, ancaq bundan sonra heç bir şeyə qarışmadan, səmadakı məkanından hadisələri izlədiyidir (Allahı tənzih edirik). Bu yanlış anlayışa görə, insanlar öz müqəddəratını da özləri təyin edirlər.

Halbuki, Allah məkandan olduğu kimi zamandan da münəzzəhdir. Buna görə də Allah insanları və bütün kainatı yaradanda onları keçmişləri və gələcəkləri ilə, yəni taleləriylə birlikdə "tək bir an" olaraq yaratmışdır. Biz gələcəyimizi yaşamadan bilmərik. Ancaq Allah hər insanın gələcəyini və yaşayacağı hər anını bilir, çünki bizim hər anımızı, hər danışmağımızı, hər hərəkətimizi də yaradan Allahdır. Saxta dinlərə mənsub insanların zənn etdikləri kimi Allah kainatı yaradıb, sonra özbaşına buraxmamışdır. Allah kainatda mövcud olan hər canlını başlanğıcları, həyatları və sonları ilə birlikdə meydana gətirmişdir. Tək bir yarpağın, budağından qopub, yerə düşməsindən bir insanın həyatı boyunca yaşayacağı hadisələrin hamısına qədər hər şey, Allahın müəyyənləşdirdiyi tale üzrə baş verər. Allah bu həqiqəti bir ayədə belə xəbər verir:

**Qeybin açarları Onun yanındadır, Onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-məhfuzda) olmasın. (Ənam surəsi, 59)**

**Axı sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır (Saffat surəsi, 96)**

### 3. Cənnət və cəhənnəmin varlığına inanılmayan bir din

Materialist düşüncənin təsiri altında yaşayan insanların bir hissəsi Allahın varlığına inansalar belə, cənnət və cəhənnəmin varlığına inanmazlar. Bunun ən əhəmiyyətli səbəbi yalnız gözləriylə gördüklərini həqiqət zənn etmələridir. Gözləri ilə görmədikləri və ya əlləri ilə hiss etmədikləri müddət ərzində bir şeyin varlığından əmin ola bilməyəcəklərini düşünürlər.

Halbuki, ağlından və vicdanından istifadə edən bir insan üçün, Allahın və axirətin varlığıyla əlaqədar bir çox dəlil var. Canlıların yaşaması üçün qüsursuz bir xəyal və bənzərsiz bir tərzdə yaradılan yer üzündə və səmada, bütün canlı maddələrin elementi olan hüceyrənin olduqca mürəkkəb quruluşunda, rəngləri, iyləri, içində yaşayan növbənöv canlılarla, möhtəşəm gözəllikdəki təbiətdə Allahın bir çox yaradılış dəlili vardır. Bütün canlıları qüsursuzca yoxdan var etmiş Allahın hər birini ölümlərindən sonra diriltməyə qadir olduğuna da şübhə yoxdur. Lakin buna baxmayaraq inkarçı insan, inadkarlıqla iman etmir.

Ağlından istifadə edən bir insan isə, Allahın canlıları ilk dəfə yaratdığını da, onları yenidən diriltməyə qadir olduğunu da dərk edər. Ayələrdə, bu həqiqəti dərk edə bilməyən inkarçılardan belə bəhs edilir:

**Onlar deyirlər: "Biz sür-sümük və toz halına düşdüyümüz zaman yeni bir məxluq kimi dirildiləcəyikmi?" De: "İstər daş olun, istər dəmir, və ya sizə nəhəng görünən bir məxluq olun, yenə də Allah sizi diriltməyə qadirdir". Onlar deyəcəklər: "Bizi həyata kim qaytaracaq?" De: "İlk dəfə sizi yaradan!" Onlar istehza ilə başlarını yırğalayıb: "Bəs bu nə vaxt olacaqdır?" - deyəcəklər. De: "Bəlkə də, yaxın zamanda oldu!" O gün Allah sizi çağıracaq. Siz də Ona həmd edərək çağırışına cavab verəcək və dünyada çox az qaldığınızı güman edəcəksiniz. (İsra surəsi, 49-52)**

Dini inkar edən insanların, Allahın Quranda bildirdiyi "ölümdən sonrakı dirilişi" dərk edə bilməmələrinin və bu həqiqətə şübhə ilə yanaşmalarının səbəbi, yenə ön fikirli materialist inancdır. Materialist anlayışa görə insan maddələrin qarşılıqlı təsirindən yaranan bir varlıqdır. Hətta insanın zəkası, hissləri kimi maddə ilə izah edilə bilməyəcək xüsusiyyətləri belə materialistlərə görə maddələrin qarşılıqlı təsiriylə meydana gəlir. Buna görə də bu insanlar yenidən dirilişi maddənin özünü təkrar inşa etməsi olaraq izah edər və heç cür bunun necə ola biləcəyini dərk etməzlər. Yəni yox olan bir maddənin təkrar geri gələ biləcəyini heç cür qəbul etməz.

Halbuki, əgər başa düşə bilmədikləri məqam yox olmuş və çürümüş bir bədənin necə yenidən diriləcəyidirsə, onsuz da insanın ən əvvəl bir yoxluqdan yaradıldığını düşünmələri lazımdır. Yer üzündə bir insana, hətta hər hansı bir canlıya aid tək bir zərrə belə mövcud olmadığı bir halda, Allah insanı yoxdan var etmişdir. Həqiqət belə olduqda, ikinci dəfə yaradılış barəsində sual vermək və ya "necə ola bilər" deyə bu həqiqətə şübhə etmək böyük bir ağılsızlıqdır. Allah ayələrində dirilişə şübhə edənlər haqqında belə buyurur:

**Məgər Biz ilk yaradılışdan zəiflədikmi? Xeyr! Onlar yeni yaradılış olan dirilmə barəsində şübhə içindədirlər. İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik. Biz ona şah damarından da yaxınıq. (Qaf surəsi, 15-16)**

Bu mövzuyla əlaqədar digər bir həqiqət isə insanı insan edənin, bədəninin deyil, ruhunun olmasıdır. Yəni insana dirilik verən əlli-altmış kiloluq ət və sümükdən ibarət olan bədən deyil, ruhdur. Ölümlə birlikdə insanın bədəni yox olar, ancaq ruhu yox olmaz. Ölüm yalnız insanın ruhunun olduğu məkanın dəyişməsidir, yəni axirət həyatının başlamasıdır. Ruh mövzusunda Allah Quranda bizə bu məlumatları verir:

**Sonra onu düzəldib müəyyən şəkilə salmış və ona Öz ruhundan üfürmüş, sizə qulaqlar, gözlər və ürək vermişdir. Siz necə də az şükür edirsiniz! Onlar deyirlər: "Biz torpağın içində yox olandan sonra yenidənmi yaradılacağıq?" Doğrusu, onlar öz Rəbbi ilə qarşılaşacaqlarını inkar edirlər. De: "Sizə müvəkkil olan ölüm mələyi canınızı alacaq, sonra da Rəbbinizə qaytarılacaqsınız!" (Səcdə surəsi, 9-11)**

Ancaq inkarçı insanların ön mühakimələri çox aydın bir həqiqəti belə başa düşmələrinə maneə törədir. Allah axirətin varlığını dərk edə bilməyən, tək həyatlarının bu dünya olduğunu zənn edən və öldükdən sonra yox olacaqlarına inanan bu insanların ağıl və anlayış qabiliyyətlərindən məhrum olduqlarını bir çox ayəsində bildirmişdir:

**Nəfsinin istəyini ilahiləşdirən şəxsi gördünmü? Allah əzəli elmi sayəsində onu azğınlığa saldı, qulağını və qəlbini möhürlədi, gözünə də pərdə çəkdi. Allahdan başqa kim onu doğru yola yönəldə bilər? Məgər düşünüb anlamırsınız? Onlar dedilər: "Həyat ancaq bizim dünya həyatımızdır. Kimimiz ölür, kimimiz də doğulur. Bizi öldürən ancaq zamandır". Bu haqda onların heç bir biliyi yoxdur. Onlar ancaq zənnə qapılırlar. (Casiyə surəsi, 23-24)**

Həqiqətləri görə bilən, materialist inancın təsirindən xilas olaraq səmimi və aydın təfəkkürlə düşünə bilən insanlar isə axirətin varlığına heç bir şübhə duymadan qəti olaraq iman edərlər:

**O kəslərə ki, namaz qılır, zəkat verir və axirətə qətiyyətlə inanırlar. Onlar öz Rəbbindən gələn doğru yoldadırlar. Məhz onlar nicat tapanlardır. (Loğman surəsi, 4-5)**

**O kəslər ki, qeybə iman gətirir, namaz qılır və Bizim onlara verdiyimiz ruzidən Allah yolunda xərcləyirlər; O kəslər ki, sənə nazil olana və səndən əvvəl nazil olanlara iman gətirir, axirətə də yəqinliklə inanırlar. (Bəqərə surəsi, 3-4)**

Nəticə etibarilə dinsizliyin dini ilə mübarizədə toxunulmalı olan iki əhəmiyyətli mövzu var. Bunlardan biri təkamül nəzəriyyəsinin elmi baxımdan əsassızlığını izah etməkdir. Beləcə insanlar təsadüflərlə yaranmadıqlarını, özlərini Allahın yaratdığını və ona qarşı məsul olduqlarını görə biləcəklər. Digər mövzu isə, maddənin əsli haqqında insanları məlumatlandıraraq ön mühakimələrindən xilas olmalarını və həqiqi dini başa düşə bilmələrini təmin etməkdir. Çünki bir maddə yığınından ibarət olmadığını qavrayan insan Yaradanımız olan Allahın sonsuz qüdrətini də dərk etmiş olacaq.

Allahın hər şeyi əhatə etməsi, zamandan və məkandan münəzzəh olması, bütün varlıqları taleləriylə yaratması, cənnət və cəhənnəmin varlığı və insanların davranışlarını da yaradanın Allah olması kimi, haqq dinin bildirdiyi həqiqətlər əslində başa düşülməsi və qavranılması çox asan mövzulardır. Amma bəzi insanlar bu həqiqətləri anlamaq istəməzlər və buna görə də çətin göstərməyə çalışarlar. Bunun səbəbi insanların bilərək və ya bilməyərək materialist dünyagörüşünün təsiri altında qalmalarıdır. Bunun üçün insanlar maddə ilə əlaqədar ön mühakimələrindən xilas olaraq maddənin əslini öyrənməlidirlər.

Bu kitabın sonunda yer verilən “Dinsizliyin dinlərini məğlub edən həqiqət” hissəsi maddənin əslini ortaya qoyur və insanlara indiyə qədər bir sirr kimi görünən mövzuların əslində olduqca aydın həqiqətlər olduqlarını göstərir. Burada qısaca yer verilən bu əhəmiyyətli mövzuları, sonrakı hissələrdə daha təfərrüatla görəcəksiniz.

# DİNSİZLİYİN "ODA ÇAĞIRAN" LİDERLƏRİ

İnsanları tarixən haqq yoldan sapdıran, onlara Allahı və dini inkar etməyi əmr edən, zalım və dikbaş xarakterli liderlər olduğu Quranda bildirilmişdir. Allah bir ayəsində bu insanları **"...oda çağıran rəhbərlər..." (Qəsas surəsi, 41)** kimi tanıtmışdır. Bu xüsusiyyət Quranda izah edilən hz. Musa hekayəsində, Firon adıyla qarşımıza çıxır. Lakin bu zorakı xarakterə bütün tarix boyu rast gəlmək mümkündür. Dinsizliyin liderliyini yerinə yetirən bu insanların demək olar ki, hamısı yaşadıqları cəmiyyətlərə qarşı eyni zalımlıqları etmiş, eyni üsullarla onları dindən uzaqlaşdırmış və insanları dünyada və axirətdə məhvə məhkum etmişlər.

Əsrimizdə Firon ilə eyniləşənlərin başında Rus və Çin inqilablarının qanlı liderləri Vladimir Lenin, Cozef Stalin və Mao Tse Tunq, onların baniləri Karl Marks və Fridrix Engels, bütün Avropanı qana bulayan mərhəmətsizliyi ilə tanınan Adolf Hitler kimi dinsiz və zalım liderlər gəlir. Çarlz Darvin isə bütün bu zalım liderlərin fikirlərini, ortaya atdığı təkamül nəzəriyyəsi ilə faydalandıran və dinsizliyə fərqli bir istiqamətdən liderlik edən bir addır.

Quranda xəbər verildiyi kimi tarixən Allahın elçiləri və saleh möminlər, bir birliyi xəbərdar etməklə vəzifələndirildikdə qarşılarına çətin düşmənlər kimi həmişə bu dikbaş karakterdeki liderlər çıxmışdır. Buna görə də elçilər göndərildikləri qövmlə deyil, qövmü öz təsiri və nəzarəti altında saxlayan "diktator" xarakterli liderlərlə fikri mübarizə aparmışlar. Çünki dinsizliyin liderlərinin razı salınmaları və ya fikirlərinin təsirsiz hala gətirilməsi, onlara inanan birliklərin da razı salınmaları deməkdir. Buna görə də elçilər ilk növbədə qövmün qabaqcılları ilə görüşmüş, onlara öz fikir və rəylərini bildirmişlər. Ayələrdə hz. Musanın din əxlaqını izah etməsi üçün ilk növbədə Firona göndərildiyi belə bildirilir:

**Biz Musanı möcüzlərimizlə və aydın bir dəlillə elçi göndərdik. Firon və onun əyanlarına. Onlar isə Fironun əmrinə tabe oldular. Halbuki, Fironun əmri doğru yol göstərən əmr deyildi. (Hud surəsi, 96-97)**

**Onlardan sonra Musanı möcüzələrimizlə Firon və onun əyanlarına elçi göndərdik. Onlar isə bunu inkar etdilər. Bir gör fəsad törədənlərin aqibəti necə oldu. (Əraf surəsi, 103)**

Yuxarıda bəhs etdiyimiz səbəblərə görə dinsizliklə mübarizədə liderlər çox əhəmiyyətli bir yerə malikdir. Daha əvvəl ifadə etdiyimiz kimi, indiki vaxtda dinsizliyin ən əhəmiyyətli cəbhəsi materializmi əsas götürən kommunizm, anarxizm kimi sistemlər və bütün dinsiz ideologiyalara dayaq olan təkamül nəzəriyyəsidir. Bu fikri cərəyanların və təkamül nəzəriyyəsinin baniləri də dövrümüzdəki dinsizliyin əsl liderləridir. Artıq bu liderlərin həyatda olmamalarına baxmayaraq, onların təsirləri hələ də qalır. Onların insanlar üzərindəki pis təsirləri hələ də davam edir və bəzi dairələr tərəfindən bu təsirin uzunmüddətli olmasına çalışılır. Elə isə dinsizliklə mübarizədə bu liderlərin həqiqi üzlərinin və məqsədlərinin ortaya qoyulması olduqca əhəmiyyətlidir. Bu mövzunun əhəmiyyətinin daha yaxşı başa düşülməsi üçün Qurandan və yaşadığımız əsrdə olan nümunələrdən misal gətirməklə “oda çağıran” dinsiz liderlərin bəzi xüsusiyyətlərinin və üsullarının araşdırılmasında fayda vardır.

# DİNƏ DÜŞMƏN OLMALARI VƏ ZORAKILIQDAN İSTİFADƏ EDƏRƏK XALQIN İMAN ETMƏSİNƏ MANE OLMALARI

Materializmi mənimsəyən və siyasi sistemlərini materializm üzərində quran Lenin, Stalin, Trotski və Mao kimi liderlərin ən böyük hədəfləri, dini aradan qaldırmaq olmuşdur. Əslində kommunizmin fikri atası olan Karl Marksın bu sözləri materialistlərin dinə olan dünyagörüşlərinin bir xülasəsidir:

Din xalqın tiryəkidir... Xalqın aldadıcı xoşbəxtliyi olaraq, dinin aradan qaldırılması xalqın həqiqi xoşbəxtliyinin elan olunduğu tələbdir.(16)

Marks, Engels və Leninin sitatlarının yer aldığı *Anarxizm və Anarko Sendikalizm* adlı kitabda isə kommunizmin din qarşısında göstərməli olduğu rəftar belə izah olunur:

Marksizm materializmdir. Bu xüsusiyyətiylə 17-ci əsr ensiklopediyaçılarının materializmi ya da Feuerbaççın materializmi qədər olduqca din düşmənidir. Bu yalandır. Ancaq Marks və Engelsin materializmi, materialist fəlsəfəni tarixə və ictimai elmlər sahəsinə tətbiq etməkdə ensiklopediyaçılardan və Feuerbaççdan daha irəli getmişdir. Dinə qarşı çıxmalıyıq, bu materializmə görə də Marksizmin "əlifba"sıdır. Amma Marksizm "əlifba" ilə kifayətlənməyən bir materializmdir. Marksizm daha irəli gedər. Belə deyər: Dinə qarşı mübarizə aparmağı bacarmaq lazımdır, bunun üçün də kütlələrə inancını və dinlərin qaynağını materialist yolla izah etmək lazımdır.[17]

Yuxarıdakı sözlərlə ifadə edilən və Marksla güclənən din düşmənçiliyi bütün kommunist rejimlərin ortaq xüsusiyyəti halına gəlmişdir. Nə qədər ki, Marksın ömrü bu azğın idealını reallaşdırmağa çatmasa da, Lenin onun iyrənc mirasına sahib çıxaraq, din düşməni bir rejim qurmuşdur. Stalin isə bu zalım rejimi kuliminasiya nöqtəsinə çatdırmışdır.

Bu məqsəd istiqamətində, Rusiya və Çində baş verən kommunist inqilab əsnasında məscidlər və ibadətgahlar bağlanılmış, kommunist çevrilişə qarşı çıxan insanlar vəhşicəsinə qətlə yetirilmişdilər. Məsələn, tarixdə ən qanlı qırğınlar törədən Cozef Stalin 20 milyondan çox insanı qəddarcasına öldürtmüşdü. Stalin *"ən çox sevdiyim şey, on minlərlə adamın ölüm fərmanını imzalayıb sonra da rahatlıqla yatmaqdır"* deyə biləcək qədər mərhəmətsiz bir xarakterə sahib idi. 9 milyonluq ölkədə 3 milyon adamı qətlə yetirən Kambocanın kommunist diktatoru Pol Pot da, Stalin kimi insanlara qarşı həyata keçirdiyi vəhşiliklə tanınan dinsizliyin liderlərindəndir. Albaniyanın kommunist lideri Ənvər hoca isə, ölkəsində hər cür dini inanc və ibadəti ağır cəzalarla qadağan etmiş və "dünyanın sözün əsl mənasında ateist olan ilk dövlətini

qurduğunu" elan etmişdir.

Bu liderləri, dinə qarşı duyduqları şiddətli düşmənçilikləri, mərhəmətdən, ürəyi yanmaqdan, sevgi və şəfqətdən uzaq simvollar və qürurları ilə "20-ci əsrin fironları" kimi göstərmək mümkündür. Çünki Firon da iman gətirənləri cəzalandırır və onlara müxtəlif işgəncələr edirdi. Quranda Fironun dikbaş xarakteri bu şəkildə bildirilir:

**Firon və onun əyanları tərəfindən özlərinə işgəncə veriləcəyindən qorxaraq Musaya öz qövmündən yalnız azsaylı bir nəsil iman gətirdi. Həqiqətən də, Firon yer üzündə qəddar hakim və həddi aşanlardan idi. (Yunis surəsi, 83)**

**Firon dedi: "Mən sizə izin verməmişdən əvvəl siz ona iman gətirdiniz? Şübhəsiz ki, o sizə sehr öyrədən böyüyünüzdür. Mən sizin əllərinizi və ayaqlarınızı çarpaz kəsdirib xurma ağaclarının gövdələrində çarmıxa çəkəcəyəm. Onda hansımızın əzabının daha şiddətli və daha davamlı olduğunu biləcəksiniz!" (Taha surəsi, 71)**

**Firon dedi: "Mən sizə izin verməmişdən əvvəl siz ona imanmı gətirdiniz? Şübhəsiz ki, o sizə sehr öyrədən böyüyünüzdür. Tezliklə biləcəksiniz! Mən sizin əllərinizi və ayaqlarınızı çarpaz kəsdirib hamınızı çarmıxa çəkdirəcəyəm". (Şuəra surəsi, 49)**

# DİNSİZLİYİ MÜDAFİƏ EDƏNLƏR "ATALARININ DİNİNƏ" TABE OLARLAR

Qəddarcasına qırğınlar törədən, qadın, uşaq demədən insanların canına qəsd edən diktatorların arxasından bu qədər çox insanın getməsi düşündürücüdür. Ancaq bu vəziyyət yalnız bizim əsrimiz üçün keçərli deyil. Quranda azğın inanclarından heç cür imtina etməyən insanlardan bəhs edilir və bu inanclar üçün "ataların dini" ifadəsindən istifadə olunur. İnkarçılar nə vaxt Allahın dininə tabe olmağa dəvət edilsələr, elçilərə öz dinlərini tərk edə bilməyəcəklərini, çünki atalarını bu dinə tabe olduğunu gördüklərini deyirlər. Bu ayələrdən bəziləri belədir:

**Onlara: "Allahın nazil etdiyinə tabe olun!" – deyildikdə, onlar: "Xeyr, biz atalarımızın tutduğu yolu tutacağıq!" – deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yola yönəlməyiblərsə necə? Kafirlərin məsəli çığırtı və bağırtıdan başqa bir şey anlamayanları (heyvanları) haylayanın (çobanın) məsəlinə bənzəyir. Onlar kar, lal və kordurlar, haqqı anlamazlar. (Bəqərə surəsi, 170-171)**

Hər cür dini və mənəvi dəyəri rədd edən dövrümüzün inkarcılarının vəziyyəti yuxarıdakı ayələrdə aydın şəkildə ifadə edilir. Onların mənimsədikləri dinlər də əslində "dinsizliyin dini"dirlər. Necə ki, dövrümüzdəki dinsizlər, atalarını, yəni Çarlz Darvini, Lenini, Stalini və Maonu bu dinə inanıb, bu dinin məbudlarına ibadət edərkən gördükləri üçün bu inanclarından heç vaxt imtina etməzlər. Onların ataları, canlıların cansız maddələrdən yarandığına, yer üzündəki bütün canlıların bir-birlərindən təsadüflər nəticəsində törədiklərinə, hər şeyi yoxdan var edən bir Yaradıcının olmadığına inanırdılar. Bu anlayışı müdafiə edənlər, təsadüflərin və təbiətin bir yaradıcı olduğuna, bir şüura və ya ağıla sahib olmayan bu iki gücün şüurlu və ağıllı seçimlər edə bildiyinə, yalnız maddənin mütləq olduğuna, əzəli və əbədi olduğuna dair batil bir inanca sahib idilər.

Elə dövrümüzdə "atalarının dini"nə tabe olan bəzi kəslər də üzərində heç düşünmədən, elmi baxımdan əsassızlıqları dəfələrlə sübut edilən bu boş sözlərə inanarlar. Üstəlik, iddialarının nə mənaya gəldiyini dərk etmədən, bunları qışqırtı-bağırtılarla, jurnallarında, qəzetlərində nəşr edir, mitinqlərində atdıqları şüarlarla müdafiə edirlər. Çünki ataları onlara bu azğın inancı miras qoyub getmişdir. Allah

Quranda, **“Onlar bunu bir-birinə vəsiyyətmi etmişlər? Xeyr, onlar həddi aşan adamlardır”. (Zəriyət surəsi, 53)** ayəsiylə inkarçıların bir-birlərinə inkarı miras qoyub getdiklərinə diqqət çəkir.

Bu dəyişməz fikir quruluşundakı insanların əksəriyyətinə kitablar dolusu elmi dəlil təqdim edilsə də, üstündə dayandıqları fikirlərin yanlışlığı şifahi və yazılı, müxtəlif formalarda izah edilsə də bu inanclarından imtina etməzlər. Çünki onlar atalarının dininə kor-koranə bağlanmış, buna görə də ağıl, anlayış və mühakimə qabiliyyətlərini itirmişdirlər. Beləcə çox kiçik bir uşağın belə asanlıqla görə bildiyi həqiqətləri görə bilməz hala gəlmişlər. Allah inkarçıların görmə və qavrama qabiliyyətlərini itirdiklərini Quranda belə xəbər vermişdir:

**Biz Cəhənnəm üçün bir çox cinlər və insanlar yaratdıq. Onların qəlbləri var, onunla anlamazlar; gözləri var, onunla görməzlər; qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır. (Əraf surəsi, 179)**

# ATALARININ SAXTAKARLIQLARININ GÖSTƏRİLMƏSİ

Materialistlərin və təkamülçülərin "atalarının dininə" bağlılıqdakı fanatik münasibətlərindən xilas ola bilmələri, insanların bu azğın anlayışların təsirindən çıxa bilmələri üçün əvvəlcə bu dinsizliyin liderlərinin əsl şəxsiyyətləri və məqsədləri ortaya qoyulmalıdır. Bunun ən təsirli yolu isə bu kəslərin müdafiə etdikləri fikirlərin əslində elm, ağıl və sağlam fikirlə tamamilə zidd olduğunu bütün dəlilləriylə isbat etməkdir. Həmçinin nümunəvi model olaraq gördükləri bütün bu liderlərin, gözlərində böyütdükləri kimi idealist fikir adamları və qəhrəmanlar olmadıqları, hətta dünyanı qaranlığa aparan əxlaqsızlıqlarıyla məşhur olan kəslər olduqları və qarşıya qoyduqları fikirlərin ağlı başında bir insan tərəfindən qəbul edilməsinin qeyri-mümkün olduğu göstərilməlidir.

Quranda oda çağıran liderlər kimi göstərilən bu azğın insanların arxasınca gedənlər, bu həqiqəti heç vaxt unutmamalıdırlar: Bu gün həyatda olmayan Lenin, Stalin, Darvin, Mao, Marks, Engels və digərləri ölüm mələyi canlarını alarkən bütün həqiqəti başa düşmüşlər. Bütün gücün Allaha məxsus olduğunu, insanların məsuliyyətsiz və özbaşına buraxılmadıqlarını, özlərini yoxdan var edən Allaha boyun əydiklərini, ölümün bir yoxluq olmadığını, əksinə ölümdən sonra özləri üçün çətin bir haqq-hesab və sonsuza qədər davam edəcək bir əzab gəldiyini və bundan heç vaxt xilas ola bilməyəcəklərini hamısı görmüşlər.

Bu gün bəhsi keçən kəslərin arxasınca gedənlər bu həqiqətləri hal-hazırda qəbul etməyə bilərlər. Ancaq ölüm mələyi "arxalarına və üzlərinə vura-vura" canlarını alarkən, eyni Firon və məbud qəbul etdikləri liderləri kimi onlar da bu böyük həqiqətləri bütün açıqlığıyla başa düşəcəklər. Ancaq onda çox gec olacaq, nə yalvarmaları, nə geri qayıdaraq etdikləri əməlləri düzəltmək istəkləri, Quranda bildirildiyinə görə, heç bir fayda verməyəcək. Onları cəhənnəm oduna aparan liderlərinə lənət edəcək, onların ən şiddətli əzabla cəzalandırılmalarını istəyəcəklər. Onlara kor-koranə tabe olduqları və Allahın onları xəbərdar etmək üçün vəzifələndirdiyi elçilərini dinləmədikləri üçün çox böyük bir peşmançılıq çəkəcəklər. Əgər dinsizliyin dinindən imtina etməsələr, axirətdə nə ilə yaşayacaqlarını Allah Quranda belə bildirir:

**Kafirlər dedilər: "Biz nə bu Qurana, nə də bundan əvvəlkilərə heç vaxt inanmayacağıq!" Kaş sən o zalımları öz Rəbbinin hüzurunda saxlanılıb bir-birinə söz qaytardıqları anda görəydin. Zəiflər, öz şəxsiyyətləri haqda yüksək rəydə olanlara deyəcəklər: "Əgər siz olmasaydınız, biz iman gətirərdik". Özləri haqda yüksək rəydə**

**olanlar da zəiflərə belə deyərlər: "Sizə doğru yol göstəricisi gəldikdən sonra sizi ondan bizmi yayındırdıq? Xeyr, siz özünüz günahkar idiniz". Zəiflər özləri haqda yüksək rəydə olanlara deyərlər: "Xeyr! İşiniz gecə-gündüz hiylə qurmaq idi. Siz bizə Allahı inkar etməyi və Ona şəriklər qoşmağı əmr edirdiniz". Onlar əzabı gördükdə peşmançılıq hissini gizlədərlər. Kafirlərin boyunlarına zəncirlər vurarıq. Onlar ancaq etdikləri əməllərə görə cəzalandırılarlar. (Səba surəsi, 31-33)**

**Kafirlərin başçılarına deyiləcək: "Bu sizinlə birlikdə Cəhənnəmə girən dəstədir. Başçılar deyəcəklər: "Onlara salam olmasın! Şübhəsiz ki, onlar odda yanacaqlar". Tabe olanlar deyəcəklər: "Xeyr, sizin özünüzə salam olmasın! Bunu bizə siz təqdim edirdiniz. Ora necə də pis qərar tutulan yerdir!" Onlar deyəcəklər: "Ey Rəbbimiz! Bunu bizə kim təqdim edibsə, onun əzabını odda ikiqat elə!" Günahkarlar deyəcəklər: "Bizə nə olub ki, dünyada ikən pis adamlar saydığımız kişiləri burada görmürük? Biz onları haqsızcasınamı məsxərəyə qoyurduq? Nə isə, onlar gözə dəymirlər?" Şübhəsiz ki, bu, od sakinlərinin bir-biri ilə höcətləşməsi bir həqiqətdir. (Sad surəsi, 59-64)**

**Biz onlara fasiq yoldaşlar qoşduq və bu dostlar onlara öndəkilərini və arxadakılarını gözəl göstərdilər (dünyanı sevdirib, axirəti unutdurdular). Onlardan əvvəl gəlib-getmiş cinlərdən və insanlardan olan ümmətlər barəsindəki Söz onlar barəsində də gerçək oldu. Həqiqətən də, onlar ziyana uğradılar. Kafirlər: "Bu Qurana qulaq asmayın, oxunarkən hay-küy salın. Bəlkə, qalib gələsiniz" - dedilər. Biz kafirlərə mütləq şiddətli bir əzab daddıracaq və onları etdikləri əməllərin ən pisi ilə cəzalandıracağıq. Budur Allahın düşmənlərinin cəzası - Od! Ayələrimizi inkar etmələri üzündən orada onları, cəza yeri kimi, əbədi yurd gözləyir. Kafirlər deyəcəklər: "Ey Rəbbimiz! Cinlərdən və insanlardan bizi tovlayıb yoldan çıxardanları bizə göstər ki, biz onları tapdağımız altına salıb yerlə-yeksan edək". (Fussilət surəsi, 25-29)**

Allah iman edən və həyatını din əxlaqını izah edərək və Quran əxlaqını nöqsansız yaşayaraq və yaşatmağa çalışaraq keçirən qulları üçün isə belə müjdə verir:

**Həqiqətən də: "Rəbbimiz Allahdır!" - deyib sonra düz yol tutan kəslərə mələklər nazil olub deyirlər: "Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin! Biz dünya həyatında da, axirətdə də sizin dostlarınızıq. Orada sizin üçün nəfsinizin çəkə biləcəyi hər şey hazırlanmışdır. Orada istədiyiniz hər şey vardır. Bağışlayan və Rəhmli**

**Allah tərəfindən verilən ziyafət kimi". İnsanları Allaha tərəf çağıran, yaxşı iş görən və: "Həqiqətən, mən müsəlmanlardanam!" – deyən kəsdən daha gözəl söz deyən kim ola bilər? (Fussilət surəsi, 30-33)**

## Nəticə

Bir insan ömrü boyunca "dinsizliyin dininə" görə yaşamış, hətta din əxlaqına həmişə qarşı çıxmış ola bilər. Ancaq əgər bu insan səmimi olaraq düşünər və vicdanının səsinə qulaq asarsa, Quranın hökmlərinin nə qədər doğru, açıq və asan olduğunu görəcək. Tövbə etdiyi təqdirdə Allahın bütün keçmiş günahlarını bağışlamasını ümid edə biləcək. Unutmaq olmaz ki, heç bir lider heç bir insana şəfaət edə bilməz, heç kim Allahın hüzurunda başqa bir adama fayda verə bilməz. İnsanların tək vəlisi, tək dostu və himayədarı aləmlərin Rəbbi olan Allahdır. Allah ayələrdə bu açıq həqiqəti dərk etmiş kəslərlə əlaqədar olaraq belə buyurur:

**Siz məni Allahı inkar etməyə, bilmədiyim bir şeyi Ona şərik qoşmağa çağırırsınız, mən isə sizi Qüdrətli və Bağışlayan Allaha çağırıram. Heç şübhəsiz ki, sizin məni çağırdıqlarınızın nə dünyada, nə də axirətdə çağırılmağa haqqı yoxdur. Bizim dönüşümüz Allahadır. Həddi aşanlar isə od sakinləridirlər. (Mömin surəsi, 42-43)**

# “DİNSİZ BİR MİLLƏT YAŞAYA BİLMƏZ”

İnsanların bir hissəsi din əxlaqının yalnız bəzi ibadətlərdən ibarət olduğu kimi yanlış bir fikrə sahibdir. Halbuki, həqiqi din Allahın fərz buyurduğu oruc tutmaq, 5 vaxt namaz qılmaq, zəkat vermək, qadınların hicab geyinmələri kimi ibadətlərlə yanaşı, insan həyatının hər anını əhatə edər və beləcə insanlara Quranda təsvir edilənlər istiqamətində bir dünyagörüşü və gözəl əxlaq qazandırar. Dininə bağlı, səmimi bir müsəlman Allahın rizasını, rəhmətini və cənnətini qazanmaq üçün həyatının hər anında Quranda təsvir edilən bu üstün əxlaqı yaşamağa cəhd edər. Heç vaxt və heç bir mühitdə dürüstlüyündən, səmimiyyətindən, soyuqqanlı rəftarlarından, hörmət və sevgi dolu xarakterindən, bir sözlə, gözəl əxlaqından güzəştə getməz. Məhz buna görə də Quran əxlaqını yaşayan insanların meydana gətirdikləri qruplarda, bütün insanların həsrətini çəkdiyi bu üstün xüsusiyyətlər yaşanar.

Məsələn, Quran əxlaqına uyğun həyat sürən bir ailədə, dövrümüzdəki ailələrdə yaşanan problemlərin heç biri yaşanmaz. İndiki vaxtda ana və atasına itaət etməyən, doğru ilə yanlışı bir-birindən ayıra bilməyən, təcavüzkar uşaqlara və uşaqlarına doğru ilə yanlışı izah etməyi lazımsız sayan, onları özbaşına buraxan, bir-biriləriylə belə yola getməyən ata-analara tez-tez rast gəlinir. Bu evlərdə sevgi, hörmət, mərhəmət və şəfqət əvəzinə mübahisə və təhqir hakimdir. Halbuki, Quran əxlaqı yaşandıqda, ata anaya itaət edən, hətta Allahın əmrinə görə onlara “uf” belə deməyən, doğru və yanlışı daha kiçik yaşlarından etibarən ayırd edə bilən, vicdanından istifadə edərək pis işlərdən uzaq duran uşaq yetişir. Uşaqlarını din əxlaqı ilə yetişdirərək dövlətə və millətə xeyirli insanlar olmaları üçün səy göstərən, bir-birlərinə də sevgi və hörmətlə yanaşan, davranışları və danışıqları ilə uşaqlarına nümunə olan ata-analar ortaya çıxar. Bir sözlə sevgi, hörmət və həmrəylik içində bir-birinə bağlı ailələr meydana gələr.

Ailə isə bir dövlətin ən fundamental vahididir. Ailə quruluşu güclü olan bir millətin dövlət quruluşu da çox güclü olar. Ancaq ailə quruluşu çökmüş, mənəvi dəyərlərini itirmiş, fərdləri arasında sevgi, hörmət, birlik və bərabərlik, vəfa duyğuları korlaşmış bir dövlətin güclü olması qeyri-mümkündür. Xüsusilə də dinsiz bir cəmiyyətin hədəf alındığı bəzi ölkələrdə bu mənəvi çöküş getdikcə sürətlənər və əxlaqi degenerasiya cəmiyyətin hər addımında özünü göstərər. Belə bir cəmiyyətdə həyat, yalnız qarşılıqlı maddi mənfəətlər əsasında qurular.

Bir-birlərinə çox yaxın ailə fərdləri arasında da sevgi, qardaşlıq, həmrəylik, fədakarlıq və sədaqət duyğuları kimi mənəvi duyğular korlandıqda, artıq o millətin varlığını davam etdirə bilməsi çox çətin olar. Çünki bu degenerasiya yalnız ailə mühitlərində yaşanmaqla kifayətlənməz, cəmiyyətin bütün təbəqələrinə yayılar.

Məktəblərdə, dost görüşlərində sevgi və hörmət əvəzinə, həsəd, ikiüzlülük, lağ, dedi-qodu kimi pis rəftarlar ortaya çıxar. İş yerlərində də bütün sistem mənfəət əlaqələri əsasında qurular. Heç kim heç kəsin haqqını qorumaz, ədalət mühiti yaşanmaz, məzlumlara qarşı şəfqət və mərhəmət duyulmaz. Bir sözlə, belə bir millətin fərdlərinin bir yerdə əmin-amanlıq və sülh içində yaşamaları qeyri-mümkün hala gələr.

Məhz buna görə də insanları dinsizliyə sövq edən, bu yolla mənəvi dəyərlərini korlayan dinsizliyin dinlərinin, fikri cəhətdən çökdürülməsi imanlı insanlara düşən böyük bir vəzifədir. Sonrakı səhifələrdə dinsizliyin ailə quruluşunu və cəmiyyətdəki sosial münasibətləri çökdürməkdən başqa, bir dövlətə nə kimi zərərlər verə biləcəyi daha təfərrüatlı araşdırılacaq. Bu araşdırma nəticəsində ortaya çıxan vəziyyət, "dövlətimə bağlıyam, millətimi sevirəm" deyən hər bir fərdin dinsizliklə necə ciddi bir mübarizə aparmasının lazım olduğunu yenidən ortaya qoyacaq.

# DARVİNİZMİN YETİŞDİRDİYİ TERRORİSTLƏR

Bu gün dünyanın hər bir yerində terror, soyqırım və qırğınlar yaşanır, günahsız insanlar vəhşicəsinə qətlə yetirilir, süni səbəblərlə bir-birlərinə düşmən hala gətirilən cəmiyyətlər ölkələri al-qana qərq edir. Bir-birlərindən çox fərqli tarixlərə, mədəniyyətlərə və ictimai quruluşlara malik olan ölkələrdə meydana gələn bu hadisələrin, hər ölkədə özünə xas bəzi səbəbləri və mənbələri ola bilər. Ancaq bir az araşdırıldıqda hər birinin maraqlı bir ortaq nöqtəsi olduğu görüləcək. Bu, dinsiz ideologiyaların cəmiyyətlər üzərində yaratdığı mənəvi təxribatdır.

Bu dinsiz ideologiyaların ən əhəmiyyətli ortaq xüsusiyyətlərindən biri isə, hərbiçilərini darvinizm ilə öyrətmələridir. Başda da ifadə etdiyimiz kimi təkamül nəzəriyyəsi, insanların özlərini məsul hiss edəcək və axirətdə hesab verəcəkləri bir Yaradıcı olduğu həqiqətini rədd edər. Bu nəzəriyyədən təlim alan bir insan da özünün məsuliyyətsiz və özbaşına olduğunu zənn edər. Buna görə də "onsuz da heç kimə hesab verməyəcəyəm" deyə düşünərək, hər cür insafsızlığı, əxlaqsızlığı və vicdansızlığı asanlıqla edər.

Təkamül nəzəriyyəsinin terrorizmə verdiyi ikinci əhəmiyyətli dəstək isə, bu nəzəriyyənin insanı inkişaf etmiş bir heyvan kimi göstərməsidir. Buna görə də darvinizmə inananlar bir insanın öldürülməsini hər hansı bir heyvanın öldürülməsi qədər asan görərlər. Separatçı terrorun bütün dünyada olduğu kimi ölkəmizdə də körpələri, qadınları, yaşlıları və minlərlə günahsız insanı gözünü belə qırpmadan öldürə bilməsinin arxasında duran səbəb Darvinçi anlayışdır.

Darvinizmin elmi baxımdan heç bir əsası olmayan boş bir söz olduğunun insanlara izah edilməsinin əhəmiyyəti bu məqamda təkrar ortaya çıxır. Darvinizmin elmi bir həqiqət olduğunu zənn edən, dini hisslərdən uzaq, Allah qorxusu olmayan bəzi kəslərə darvinizmə əsaslanan ideologiyalar təlqin edildikdə asanlıqla razı salınırlar. Və bu əhatəli təlqindən sonra digər insanlar kimi yaşayan sadə bir insan, əlinə silah götürüb dağa çıxa bilər, günahsız insanların canına qəsd edə bilər və dövlətinə qarşı çıxa bilər. Çünki bu kəslərə Allah, din, vətən, millət və bayraq sevgisi əvəzinə, dinsizlikləri və qanlı qırğınları ilə məşhurlaşmış Stalini, Lenini, Maonu sevib onlara hörmətlə yanaşmaları, insanı heyvan kimi göstərən Darvinin nəzəriyyəsinə görə düşünmələri öyrədilir.

Halbuki, Allahın varlığının dəlilləri və Quranda bildirilən gözəl əxlaq izah edildikdə insanlar arasında düşmənçilik, müharibə və xaos mühitlərini yaratmağı qarşılarına məqsəd qoyan bu cür ideologiyalara qapılmaları qeyri-mümkün hala gəlir.

Allaha iman edən, axirətdə bütün əməllərinin hesabını verəcəyini bilən bir insan, dövlətinə və millətinə güclü şəkildə bağlanar. Çünki Allah Quranda insanları fitnə-fəsad törətməkdən belə çəkindirmişdir:

**O, dönüb getdikdə yer üzündə fitnə-fəsad törətməyə, əkinləri və nəsilləri məhv etməyə çalışar. Allah isə fitnə-fəsadı sevmir. Ona: "Allahdan qorx!" - deyildikdə, lovğalıq onu daha da günaha sürükləyər. Ona Cəhənnəm kifayət edər. Ora nə pis yataqdır! (Bəqərə surəsi, 205-206)**

**Allahla əhd bağladıqdan sonra onu pozan, Allahın qovuşdurulmasını əmr etdiyi şeyləri kəsən və yer üzündə fitnə-fəsad törədənlərə gəlincə, onlar üçün lənət və pis yurd vardır. (Rad surəsi, 25)**

Bu ayələrdən də aydın olduğu kimi, Allahdan qorxan bir insan dövlətinə, millətinə ən kiçik zərər toxunduracaq bir hərəkətə belə göz yummaz. Çünki Allahdan qorxan bir insan Onun razı qalmayacağı və cəhənnəmdə əbədi bir əzab çəkməklə əvəzini verəcəyini bildirdiyi hər cür rəftardan diqqətlə çəkinər.

Allaha və axirət gününə inanmayan bir insan isə heç kimə hesab verməyəcəyini zənn edərək hər cür pis işi asanlıqla edə bilər. Bədiüzzaman Səid Nursi də dinsiz ideologiyaların, xüsusilə də kommunizmin yaratdığı anarxist quruluşu bir əsərində belə izah etmişdir:

Və sosializm isə bir qisim müqəddəs şeyləri yox etdiyindən, aşıladığı fikir, sonradan bolşevikliyə çevrildi. Və bolşeviklik də din əxlaqını, səmimiyyəti və insanları pozduğundan, əlbəttə ki, əkdikləri toxumlar heç bir hörmət tanımayan anarxistlik məhsulunu verəcək. Çünki insanın qəlbindəki hörmət və mərhəmət yox olsa, ağıl və qavrayış, o insanları çox dəhşətli və qəddar canavarlar hökmü altına salar, artıq siyasətlə idarə oluna bilməz.[18]

Bədiüzzamanın bu sözlərinin də işarə etdiyi həqiqət budur: Anarxiya, terror və iğtişaş bəlasının əsasında insanların hörmət, sevgi, mərhəmət kimi gözəl duyğulardan uzaqlaşması, əxlaqi və insani dəyərlərini itirməsi durur. Bu bəladan xilas olmaq üçün əvvəlcə, dinsizliyi aradan qaldırmaq və insanlara Allah qorxusunu və Quran əxlaqını öyrətmək lazımdır.

Bunu unutmamaq lazımdır ki, dövlətinə və millətinə qarşı qiyam qaldırıb, separatçı fəaliyyətlər göstərənlər qədər, bu vəziyyətə tamaşaçı qalaraq imkanları olduğu

halda dövlətinə dəstək olmayanlar da, eyni materialist dünyagörüşünü sahibdirlər. Bitərəf davranan kəslərin tək məqsədləri həyatda qala bilmələridir. Ətraflarında olub bitənlər özlərinə toxunmadığı müddətcə narahat olmayan bu kəslər, dinin insanlara qazandırdığı fədakarlıq, qardaşlıq, dostluq, dürüstlük və xidmət anlayışından məhrum olmuş kəslərdir. Bu kəslərin, şərəfli bir hədəfləri yoxdur. Həyatları boyunca yalnız dövlətin imkanlarından istifadə edərək, millətin üz-üzə olduğu təhlükələrdən xəbərsiz bir şəkildə öz nəfslərini təmin etməyə çalışarlar. Bu cür insanların vəziyyəti Quranda belə izah olunur:

**Allah eləcə də iki kişi barəsində məsəl çəkdi; onlardan biri laldır, heç bir şeyə gücü çatmır və öz ağasına bir yükdür. Onu hara yollasa, xeyirlə qayıtmaz. Məgər doğru yolda olub ədalətli işlər görməyi əmr edən bir kimsə ilə belə bir adam eyni ola bilərmi? (Nəhl surəsi, 76)**

Ayədə də ifadə edildiyi kimi "doğru yolda olub", dininə bağlı, Allahdan qorxub çəkinən, mənəvi dəyərlərə əhəmiyyət verən, vətəninə və millətinə xidmət etmək şövqü içində yaşayan bir adamın, yaşadığı cəmiyyətə böyük xeyirlər gətirəcəyi aydındır. Buna görə də insanların həqiqi dini öyrənmələri və Quran əxlaqına uyğun yaşamaları olduqca əhəmiyyətlidir. Bu üstün əxlaqı yaşayan insanları isə Allah bir ayəsində belə təyin etmişdir:

**Əgər onlara yer üzündə hökmranlıq versək, onlar namaz qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin aqibəti Allaha aiddir. (Həcc surəsi, 41)**

# DİNSİZLİYİN DİNİ İLƏ MÜBARİZƏ ÜSULLARI

İnsanların dünya və axirət əzabından xilas olmaları üçün dinsizliyin yer üzündən tamamilə qaldırılması olduqca əhəmiyyətlidir. Və dinsizliyin yer üzündən silinərək yerinə Quran əxlaqının yayılması da əvvəlcədən toxunduğumuz kimi bütün inananların məsuliyyətidir. “Mən dindaram, digər insanlar başlarının çarəsinə baxsınlar” demək, səmimi bir müsəlmanın vicdanına sığmaz. Aşağıdakı ayə bu vəzifəni bütün müsəlmanların üstünə ilahi bir vəzifə olaraq düşür. Allah hər mömini, yaxınlarını və bütün insanları cəhənnəm əzabından qorumaqla məsul etmişdir:

**Ey iman gətirənlər! Özünüzü və ailənizi yanacağı insanlar və daşlar olan oddan qoruyun! Onun başı üstündə Allahın onlara verdiyi əmrlərə heç vaxt asi olmayan, özlərinə buyurulanları yerinə yetirən amansız və güclü mələklər vardır. (Təhrim surəsi, 6)**

Bəzi kəslər isə “mən dinsizliklə necə mübarizə apara bilərəm?” deyə düşünə bilərlər. Bu, şeytanın insanları əyləndirmək, Quran əxlaqının yaşanmasının qarşısını almaq və dinsizliyin dininin yayılmasına zəmin hazırlamaq üçün verdiyi bir xəyaldır. Kitabın daxilində də qeyd olunduğu kimi dinsizliklə mübarizədə nəzərdə tutulan, dinsiz fəlsəfələrin və fikri cərəyanların elmi və ağıllı dəlillərlə əsassız olduqlarının ortaya qoyulması, bunların fikrən çökdürülməsidir. Çünki heç kim fikri cəhətdən çökmüş və elmi olaraq da heç bir əsası qalmamış bir ideologiyanın arxasınca getməz.

Buna görə də bu əhəmiyyətli fikri mübarizədə hər insanın edə biləcəyi bir xidmət mütləq vardır. Heç bir şeyə imkan tapmayanlar da, bu əhəmiyyətli mübarizədə iştirak edən, həyatını buna həsr edən kəslərə kömək etməli və dəstək olmalıdırlar. Məsələn, dinsizliklə mübarizə məqsədilə yazılmış kitabların və ya əsərlərin geniş bir oxucu kütləsi tərəfindən oxunmasını təmin etmək, bu kitablarda yazılanları yaxşı öyrənib bunları hər kəsə izah etmək, dinsizliklə mübarizə aparan, dinsizliyin fikrini çürüdən məlumatları bu cür yollarla dünyaya yaymaq kimi xidmətlər dinsizliklə mübarizənin əhəmiyyətli bir hissəsidir.

Unutmaq olmaz ki, Bədiüzzamanın da ifadə etdiyi kimi *“küfrə razı qalmaq küfr etmək olduğu kimi, zəlalətə, günaha, zülmə razı qalmaq da günahdır, zülmdür, zəlalətdir”*.[19] Buna görə də bitərəf qalanlar, dinsizliyə qarşı imkanı olduğu halda mübarizə aparmayanlar və ya mübarizə aparanlara dəstək olmaq əvəzinə problem çıxaranlar, əslində bilərək və ya bilməyərək dinsizliyə dəstək olur və onların işlərini

asanlaşdırırlar.

Səmimi bir mömin, heç vaxt bu əhəmiyyətli mövzularda bitərəf qalmaz. Həmişə Quranın əmr etdiyi mövzularda olduqca həssas, cürətli və qərarlı davranar. Vicdanından ötrü bu gün yer üzündə zülmə məruz qalan, aciz buraxılmış, ac, narahatlıq içində yaşayan və məzlum mövqedə olan hər insanın məsuliyyətini üzərində hiss edər. Məsələn, bu gün Kəşmirdə, Şərqi Türkistanda və Fələstində milyonlarla müsəlman yalnız dinlərindən ötrü zülmə məruz qalırlar. Yaşadığımız illərdə Kosovo və Bosniyada yüz minlərlə insan dəhşətli işgəncələrə məruz qalmış, yerlərindən, yurdlarından qovulmuş, dünyanın gözü qarşısında qətlə yetirilmişlər. Yalnız bəzi müsəlman ölkələrdə deyil, dünyanın bir çox yerində insanlar, dinsiz qruplara və ya dinsiz fikri cərəyanlara görə zülmə məruz qalmağa davam edirlər. Rusiyada illərdir ki, dinsiz nəsillər yetişdirilir, dinsizliyin dini çox böyük bir sürətlə yayılır. (Ətraflı məlumat üçün baxın. *Həll Yolu Quran Əhlaqı,* Harun Yəhya) Vicdan sahibi bir insan bunların heç birinə kor-koranə yanaşmaz. Məhz bu səbəblərə görə bütün müsəlmanların dinsizliyin insanlar üzərindəki zülmünü aradan qaldırmaq üçün var gücləriylə mübarizə aparmalıdırlar. Bunun ən ağıllı və ən təsirli yolu isə kitab boyunca ifadə etdiyimiz kimi fikri mübarizədir.

Bu hissədə əhəmiyyətli bir vəzifəni boynuna götürən insanların xüsusi olaraq üzərində dayandıqları mövzular müzakirə ediləcək və Quran ayələri istiqamətində, bu mübarizənin necə aparılmasının lazım olduğu izah ediləcək.

### Dinsizliyin bütlərini sındırmaq

Dinsizliyin dini ilə mübarizədə ən təsirli üsul, şübhəsiz ki, Quranda nümunə olaraq göstərilən hz. İbrahimin metodudur. Əvvəlki hissələrdə izah etdiyimiz kimi hz. İbrahimin dövründə yaşayan insanlar öz əlləri ilə düzəltdikləri bütlərə ibadət edir və hər mövzuda bu saxta ilahlarından mədət umurdular (Bilindiyi kimi bu, həmçinin tarix boyu bir çox inkarçı qövmün tətbiq etdiyi bir üsuldur). Hz. İbrahim isə bu insanlara qarşısında əyildikləri bütlərin heç bir şeyə gücü çatmayan, taxtadan hazırlanmış, cansız varlıqlar olduğunu xatırlatmış və onların məntiq və mühakimə pozğunluqlarını bütün açıqlığı ilə göz qabağına gətirmişdir.

Əvvəldən də ifadə etdiyimiz kimi, hz. İbrahim dövründə yaşayan insanlarla dövrümüzdəki "bütə tapınanlar" arasında elə də bir fərq yoxdur. O dövrdəki insanlar necə təkidlə taxta heykəlləri məbud kimi qəbul edirdilərsə, dövrümüzdəki dinsizlər də cansız atomları, şüursuz təbiəti, təsadüfləri məbud kimi qəbul edirlər. Şüursuz

atomların bir yerə gələrək, qüsursuz və möhtəşəm bir sistemi yaratmaqla qruplaşdığına inanırlar.

Hz. İbrahimin qövmünü bu azğın inanclarından xilas etmək, onları "ayıltmaq" üçün müraciət etdiyi üsul isə Quranda belə xəbər verilir:

**Bir zaman o öz atasına və tayfasına: "Bu nə heykəllərdir ki, siz onlara sitayiş edirsiniz?" – demişdi. Onlar: "Biz atalarımızı onlara ibadət edən görmüşük!" – demişdilər. İbrahim demişdi: "Doğrusu, siz də, atalarınız da, açıq-aydın bir azğınlıq içindəsiniz". (Ənbiya surəsi, 52-54)**

**Allaha and olsun ki, siz geriyə dönüb getdikdən sonra bütlərinizə bir kələk gələcəyəm!" Nəhayət İbrahim bütləri sındırıb qırıq-qırıq edərək yalnız onların ən irisini saxladı ki, bəlkə, ona müraciət edələr. (Ənbiya surəsi, 57-58)**

Ayələrdə xəbər verildiyi kimi hz. İbrahim, atasının və qövmünün həqiqətləri görməyəcək qədər kor olduqlarını gördükdə onların tapındıqları bütlərə bir hiylə qurmağa qərar vermişdir. Qövmü yanından uzaqlaşdıqda, tapındıqları cansız bütləri sındıraraq, onların öz ağıllarıyla tapa bilmədikləri aydın bir həqiqəti özlərinə dəlillə isbat etmişdir: Cansız bütlərin aciz olduqları və heç bir şey yarada bilməyəcəkləri həqiqətini...

Bütpərəstlər geri qayıtdıqda hz. İbrahimə niyə bütləri sındırdığını soruşduqları vaxt aldıqları cavab isə, ağılsızlıqlarını göz qabağına gətirməsi baxımından olduqca əhəmiyyətlidir:

**Onlar dedilər: "Məbudlarımızı sənmi bu kökə saldın, ey İbrahim?" İbrahim dedi: "Xeyr, bunu onların bu böyüyü etmiş olar. Əgər danışa bilirlərsə, özlərindən soruşun". Onlar öz-özlərinə müraciətlə: "Həqiqətən də, siz zalımlarsınız" – dedilər. Sonra yenə öz bildikləri batil əqidələrinə qayıdıb dedilər: "Axı sən bilirsən ki, bunlar danışmırlar". (Ənbiya surəsi, 62-65)**

Bu insanların, **"Axı sən bilirsən ki, bunlar danışmırlar"** deyərək əslində həqiqəti dərk etdiklərini ifadə edən olduqca əhəmiyyətli bir məqamdır. Hamısı əslində bütlərin danışa bilməyəcəklərini dərk edirlər. Bütlərinin heç bir şeyə gücü çatmadığını, cansız bir varlığı dirildə bilməyəcəklərini, kainatda mövcud olan qüsursuz nizamı yarada

bilməyəcəklərini çox yaxşı bilirlər. Ancaq atalarından qalan dinsizlik mirasını davam etdirə bilmək və Allahın varlığını inkar etmək üçün bu cansız varlıqları məbud qəbul etmişlər.

İndiki vaxtda təkamülçülər və materialistlər də tamamilə buna bənzər bir düşüncəyə sahibdirlər. Bu gün hər hansı bir təkamülçü səmimi olaraq düşündükdə canlıların təsadüflərlə əmələ gəlməyəcək qədər mürəkkəb və qüsursuz olduğunu başa düşəcək. Bununla yanaşı həmin elm adamları kainatın bir başlanğıcının olmasının lazım olduğunu, yəni əzəli və əbədi ola bilməyəcəyini də təsdiq edəcəkdirlər. Ancaq bəhsi keçən kəslər, bunu etiraf etmələrinə baxmayaraq, olduqca fanatik bir münasibət göstərməyə davam edərlər. Eynilə hz. İbrahim dövründə yaşayan bütpərəstlər kimi öz saxta məbudlarını tərk edib Allaha inanmalarının qeyri-mümkün olduğunu dilə gətirərlər. Təkamülçülərin və materialistlərin kitabın əvvəlindən bəri təsvir etdiyimiz atalarının dininə nə qədər kor-koranə bağlı olduqlarını başa düşmək üçün dövrümüzdəki təkamülçülərin bir neçəsinin bu məsələdəki etirafını dinləmək kifayətdir.

Məsələn, Harvard Universitetindən olan təkamülçü və materialist genetik Riçard Leontin özünün və digər materialistlərin ön mühakiməli və fanatik münasibətlərini belə ifadə etmişdir:

Bizim materializmə olan bir inancımız var ki, bu da "a priori" (əvvəldən qəbul edilmiş, doğru olduğu fərz edilmiş) bir inancdır. Bizi dünyaya materialist bir izah gətirməyə məcbur edən şey, elmin üsulları və qaydaları deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımıza görə də, dünyaya materialist bir izah gətirən araşdırma üsullarını və məhfumlarını mənimsəyirik. Materializm mütləq doğru olduğuna görə də, ilahi bir izahın səhnəyə girməsinə izin verməik.[20]

Məşhur ingilis zooloq və təkamülçü D.M.S. Vatson isə, təkamülçülərin əllərində təkamülün baş verdiyinə dair dəlillərinin olmamasına baxmayaraq, niyə hələ də bu nəzəriyyəni müdafiə etdiklərini belə izah etmişdir:

Təkamül nəzəriyyəsinin geniş kütlələr tərəfindən qəbul olunan bir nəzəriyyə olmasının səbəbi bu nəzəriyyəni isbat edəcək kifayət qədər dəlilin olması deyil, ancaq digər alternativin, yəni fövqəltəbii yaradılışın tamamilə yolverilməz olmasıdır.[21]

Məşhur ingilis elm adamı Çandra Vikramasinge də Allahın inkar edilməsi üçün insanların beyinlərinin necə zəhərləndiyini belə izah etmişdir:

Bir elm adamı olaraq təhsil aldığım müddət ərzində, elmin hər hansı bir şüurlu yaradılış məhfumu ilə uyğunlaşmayacağına dair çox güclü beyin zəhərlənməsinə məruz qaldım. Bu məhfuma qarşı güclü tədbir görülməlidir... Amma hal-hazırda, Tanrıya inanmağı tələb edən izaha qarşı irəli sürülə biləcək heç bir dəlil tapa bilmirəm...[22]

Yuxarıda nümunələri verilən təkamülçü elm adamlarının, doğru olmadığını bildikləri halda yalnız Allahı inkar edə bilmək üçün təkamül nəzəriyyəsinə və materializmə inandıqları öz sözləriylə aydın olur. Bu kəslər dövrümüzdəki qabaqcıl materialist təkamülçülərdən yalnız bir neçəsidir.

Bu insanlara verilən cavab isə, Quranda bildirilən, hz. İbrahimin öz qövmünə verdiyi cavabdır. Hz. İbrahimin qövmünə verdiyi cavab, onları qəflətdən oyatmaq və düşünməyə dəvət etmək olmuşdur. Ayələrdə hz. İbrahimin sözləri belə xəbər verilir:

**İbrahim dedi: "Elə isə Allahı qoyub sizə heç bir fayda və zərər verə bilməyən bütlərəmi tapınırsınız? Tfu sizə də, Allahdan başqa tapındıqlarınıza da! Doğurdandamı, siz dərk etmirsiniz?" (Ənbiya surəsi, 66-67)**

Hz. İbrahim necə bütpərəstlərin bütlərini sındıraraq və dinsizliyin bütün əsaslarını aradan qaldıraraq onların acizliyini ortaya qoyubsa, dövrümüzdəki inananların da dinsizlərin məbud kimi qəbul etdiyi maddə bütünü sındırmaqla dinsizliyi təsirsiz hala gətirmələri lazımdır.

Bu bütlərin sındırılmasında tətbiq olunacaq üsul isə, qısaca belə bəndlər halında sıralana bilər:

**1. Dinsiz cərəyanların ideologiyalarını və müdafiə etdikləri fikirləri çox yaxşı bilmək**

Hər insanın mənəvi dəyərləri məhv edəcək fəaliyyətlər göstərən dinsiz cərəyanları çox yaxşı tanıması, onların ideologiyalarını, hansı mövzuda hansı fikri müdafiə etdiklərini yaxşı bilməsi olduqca əhəmiyyətlidir. Çünki ancaq bu yolla bəhsi keçən dairələrin ağılsızlıqları, azğınlıqları, dövlətə və millətə zərər verəcək düşüncələri, elmə və ağıla zidd istiqamətləri sığortalana bilər. Bunun nəticəsində bu dinsiz ideologiyaların nə qədər zəif əsaslara dayandıqları, əsassızlıqları göz önünə gətirilə bilər. Həmçinin dinsiz ideologiyaları yaxından tanıyan vicdan sahibi kəslər, bunların dövlətə və millətə verə biləcəkləri ehtimal olunacaq zərərləri əvvəlcədən proqnozlaşdıra bilər, bunun sayəsində lazımlı tədbirlərin görülməsi üçün dövlətə dəstək və köməkçi olacaq bir fəaliyyət göstərə bilərlər.

**2. Materializmin və təkamül nəzəriyyəsinin əsassızlıqlarının elmi dəlillərlə ortaya qoyulması**

Kitabın əvvəlki hissələrində indiki vaxtda dinsizliyin ən təhlükəli və ən məşhur

dininin materializm olduğuna toxunulmuşdu. Materializmi digər dinsiz cərəyanlardan fərqləndirən və daha təsirli olmasına səbəb olan bir ünsür də, "elmi bir don" altında təqdim edilməsidir. Buna görə də bütpərəstlik ibtidailik olaraq adlandırıldığı halda, materializm və təkamül nəzəriyyəsi, bütpərəstlikdən elə də çox fərqlənməməsinə baxmayaraq saxta bir "elmi hörmət" qazanmışdır. Buna görə də materializmin və təkamül nəzəriyyəsinin əslində elmlə və ağılla ziddiyyət təşkil edən fikirlər olduğunun aydınlaşdırılması və bunun insanlara izah edilməsi olduqca əhəmiyyətlidir.

Təkamül nəzəriyyəsinin iddialarının tək-tək müzakirə edilərək, bütün dəlillərinin əslində saxta olduqlarının və ya bu dəlillərin insanlara təhrif edilərək təqdim edildiklərinin izah edilməsi olduqca əhəmiyyətlidir. Bunu edərkən ən son rəylərin, elm dünyasındakı inkişafların anbaan izlənilməsi, dünyanın hər bir yerində təkamül mövzusunda ortaya atılan iddialar heç atlanmadan elmi yolla çürüdülməli, hər mövzuda bir çox sayda dəlil təqdim edilməlidir.

Həmçinin bir məqamı da ifadə etməkdə fayda var: Əslində təkamül nəzəriyyəsinin dəlil olaraq irəli sürdüyü bir neçə mövzu var və bunlar da hələ ən başdan çürüdülmüşdür. Amma təkamülçülər bunları həmişə elmi terminlərlə bəzəyərək, müxtəlif şəxslərin əsərlərindən və ya ağızlarından, "elmi" bir don altında nəql etdikləri üçün, yeni-yeni dəlillər təqdim edirmiş kimi görünərlər. Halbuki, xalq tərəfindən başa düşülməyən ifadələrlə, xeyli latın sözləriylə, səhifələrlə yazdıqları mövzulara baxdıqda, elmi cəhətdən heç bir dəlil təqdim etmədikləri aydın olar.

Lakin bu gün dünyadakı insanların böyük əksəriyyəti darvinizmin nə cür axmaq bir iddia olduğunu görmür və bu nəzəriyyənin elmi bir həqiqət olduğunu zənn edirlər. Buna görə də, başqa bir əhəmiyyətli xidmət də, insanların məlumatlandırılması və bu təhlükəyə qarşı xəbərdar edilməsidir. Təqdir ediləcəyi kimi, bu xidmət ciddi bir səy tələb edir. Hər kəs əlindən gələni etməli, bu tarixi məsuliyyətin ağırlığını mümkün olduğu qədər öz boynuna götürməlidir.

### 3. Quranda bildirilən həqiqi dinin izah edilməsi

Materialist dairələr xalqa öz ideologiyalarını təlqin etdiyi halda, dinə qarşı təcavüzkar bir münasibət nümayiş etdirirlər. Ancaq bu dairələrin dinə hücum edərkən istifadə etdikləri materiallar, ya təhrif olunmuş köhnə dinlər ya da müsəlmanlıq adı altında yaşanan, xurafatların daxil olduğu üçün əslindən tamamilə uzaqlaşmış bəzi anlayışlardır.

Halbuki, həqiqi müsəlmanlıq bu dairələrin hədəf aldıqları mühafizəkar din anlayışından tamamilə fərqlidir. Buna görə də xurafatlarla dolu dinə qarşı olaraq,

Quranda bildirilən həqiqi din əxlaqı insanlara çox təsirli və geniş bir şəkildə izah edilməlidir. Quran içində heç bir ziddiyyət olmayan və Allah qatından endirilmiş bir kitabdır. Bu həqiqətin dəlillərinin açıq şəkildə ortaya qoyulmasıyla yanaşı, Quranda bildirilən ayələrin və izah edilən hadisələrin insanlara çatdırılmaları da olduqca əhəmiyyətlidir. Bədiüzzaman Səid Nursi də "materialist və naturalist fəlsəfələri" ilə mübarizədə ən təsirli yolun Quranın həqiqətlərini izah etmək olduğunu dəfələrlə ifadə etmişdir:

...Beşinci olaraq: İndiki dövrdə ən böyük təhlükə olan dinsizliyə, anarxizmə, materializmə qarşı bir çarə var: O da Quranın həqiqətlərinə sarılmaqdır. Yoxsa böyük Çini qısa bir vaxtda kommunist rejiminə çevirən bəla siyasi, maddi qüvvələr ilə susmaz. Onu yalnız Quran həqiqətləri susdura bilər.[23]

Göründüyü kimi Bədiüzzamanın, dinsizliyin gətirəcəyi təhlükələrə qarşı təqdim etdiyi çıxış yolu Quran əxlaqının yaşanması və yaşadılmasıdır. Həmçinin Bədiüzzamanın dinsizliyin səbəb olduğu anarxiya və dövlət düşmənçiliyinin də necə məğlub edilə biləcəyi ilə əlaqədar sözlərindən bəziləri də belədir:

Sarsılmaz bir iman istəyən və dinsiz anarxizmə qarşı qırılmaz bir qılınc axtaranlar, Qurana müraciət etsinlər. (Şualar, 599)

Çünki masonluq, kommunizm, dinsizlik birbaşa anarxizmi doğuran səbəbdir. Bu dəhşətli vəziyyətə qarşı ancaq və ancaq Quran həqiqətləri ətrafında İslam Birliyi tab gətirə bilər... (Beyanat ve Tenvirler, səh. 21)

### 4. Allahın varlığının dəlillərinin izah edilməsi

Ağlından və vicdanından istifadə edən bir insan üçün Allahın varlığı çox açıqdır. Allah yaratdığı hər varlıqda sonsuz elminin, ağlının, gücünün dəlillərini insanlara göstərir. Ancaq bəzi insanlar illərlə Allahı inkar etməyə əsaslanan bir təlqinə məruz qalırlar. Bəziləri də bu mövzuda şübhə içindədirlər. Buna görə də bu insanlara Allahın varlığının dəlillərini göstərmək lazımdır. Bu insanların sahib olduqları ön mühakimələri və fanatik münasibəti aradan qaldırmaq üçün onlara, Allahın varlığına dair dəlillər göstərmək, hər varlığı tək-tək araşdıraraq, bunların ən kiçik bir parçasının belə təsadüfən meydana gələ bilməyəcəyini izah etmək lazımdır. Həm yazılı, həm də vizual üsullardan istifadə edərək bu mövzuda çox geniş bir fəaliyyət aparılması müsəlmanların üzərinə düşən böyük bir vəzifədir.

Açıq-aşkar həqiqətləri görməyəcək qədər mənəvi cəhətdən aciz hala gələn insanlar ancaq ciddi bir səylə düşdükləri qəflətdən oyandırıla bilərlər. Allahın varlığını və ətrafında gördüyü qüsursuz sistemlərin öz-özünə, təsadüflər nəticəsində meydana

gələ bilməyəcəyi həqiqətini dərk edən bir insan üçün isə, dinsizlik təhlükəsi artıq aradan qalxmış olar. Çünki Allaha iman edən bir insan Ona qarşı məsul olduğunu və bundan sonrakı həyatını Onun rizası üçün yaşamasının lazım olduğunu da dərk edər.

Necə ki, Allah Quranın bir çox ayəsində insanları yaratdığı varlıqlar üzərində düşünməyə və bu varlıqlardan ibrət almağa çağırır:

**Məgər onlar başları üstündəki göyə baxıb onu necə yaratdığımızı və necə bəzədiyimizi görmürlərmi? Orada heç bir yarıq da yoxdur. Biz yeri döşədik, orada möhkəm dağlar yerləşdirdik və gözoxşayan bitkilərin hər növündən yetişdirdik. Bunlar səmimi olaraq Allaha üz tutan hər bir qul üçün hikmətlə baxan daxili bir göz və zikrdir. Biz göydən bərəkətli su endirdik, onunla bağlar və biçilən taxıl dənələri bitirdik. Eləcə də meyvələri salxım-salxım asılmış hündür xurma ağacları bitirdik. Qullara ruzi olsun deyə belə etdik! Biz onunla ölü bir məmləkəti diriltdik. Dirilib qəbirdən çıxmaq da belədir. (Qaf surəsi, 6-11)**

Məhz buna görə də, "dinsizliyin dini" ilə mübarizədə ən təsirli üsullardan biri də insanların ətraflarındakı iman həqiqətlərini, Allahın varlığının və ucalığının dəlillərini görmələrini təmin etməkdir. Allah Quranda **"və Rəbbinin nemətindən danış" (Duha surəsi, 11)** ayəsiylə bu həqiqəti xəbər verir. Müsəlmanların da Allahın insanlar üçün yaratmış olduğu bütün nemətləri, yaşadıqları əsrin ən təsirli üsullarından istifadə edərək, insanlara dayanmadan izah etmələri lazımdır.

### 5. Quran əxlaqı yaşandıqda necə bir həyat olacağını izah etmək

Allah Quranda insanlara gözəl əxlaqı, ədaləti, sevgi, şəfqət və mərhəməti, fədakarlığı, səbri, digər insanların mənfəətlərini öz mənfəətlərindən üstün tutmağı, dövlətə hörmət, sevgi və itaəti, sülh və təhlükəsizliyi təmin etməyi, insanların arasını düzəltməyi, kasıb və məzlumları qoruyub saxlamağı, çalışqanlığı, Allah rizası üçün xidmət etməyi əmr edir. Bu xüsusiyyətlərin hakim olduğu bir millətin necə bir üstünlüyə, rifah və əmin-amanlıq mühitinə sahib olacağı isə aydındır.

İnsanların bir çoxu Quranda bildirilən din əxlaqını tanımadıqları üçün, onlara Quran əxlaqının insanlara təqdim etdiyi gözəlliklər izah edilməli, əsl din əxlaqını yaşamağın asan və insanın yaradılışına ən uyğun həyat olduğu göstərilməlidir. Beləcə

insanlar bütün dünyada yaşanan problemlərin həllinin Quranda olduğunu da görəcəklər. Allah bir ayəsində Quranın nazil edilmə məqsədini belə bildirir:

**...Biz Kitabı sənə hər şey üçün bir izah, müsəlmanlara da doğru yol göstəricisi, mərhəmət və müjdə olaraq nazil etdik. (Nəhl surəsi, 89)**

**6. Vicdanlı insanların birlikdə olmaları**

Dinsizliklə mübarizə mövzusunda müsəlmanların səy göstərmələri, bütün imkanlarını birləşdirərək, əlbir olub dövləti və milləti bu təhlükədən qorumaları olduqca əhəmiyyətlidir. Hər insan bu fikri mübarizədə nə qədər çox xidmət etsə, dinsizliyin yer üzündən silinməsi və beləcə "yer üzündə fitnə qalmaması" da o qədər sürətlə baş verəcək.

Birlik imanlı insanlara həm maddi, həm də mənəvi bir qazanc təmin edər. Allah möminlərə bir çox ayəsində həmrəy olmalarını və bir-birləriylə mübahisə etməmələrini əmr edir:

**Allaha və Onun Elçisinə itaət edin, bir-birinizlə mübahisə etməyin, yoxsa ruhdan düşər və zəifləyərsiniz. Səbir edin, çünki Allah səbir edənlərlədir. (Ənfal surəsi, 46)**

Allah, başqa bir ayəsində də möminlərə əgər öz aralarında mübahisə etsələr, yer üzündə fəsad yaranacağını bildirir:

**Kafirlər də bir-birinə dostdurlar. Əgər siz bunu etməsəniz (bir-birinizə yardımçı olmasanız), yer üzündə fitnə və böyük bir fəsad baş verər. (Ənfal surəsi, 73)**

Bu ayədən də aydın olduğu kimi, Allahın dinini inkar edən, cəmiyyətləri məhvə məhkum edən zalım kəslərə qarşı şərəfli bir mübarizə imkanı olduğu halda, müsəlmanların bir-birləriylə mübahisə etmələrinin, xeyirli fəaliyyətlərinə mane olmalarının Allah qatında çox böyük bir məsuliyyəti ola bilər.

Peyğəmbər (s.ə.v) bir hədisində müsəlmanların həmrəy olmalarının lazım olduğunu belə bildirmişdir:

Bir-birinizə arxa çevirməyin. Bir-birinizə kin bəsləməyin. Bir-birinizi qısqanmayın. Bir-birinizlə dostluğunuzu pozmayın. Ey Allahın qulları qardaş olun. (Müslim İhya'u Ulum'id-Din Huccetü'l-İslam, İmam Gazali, 2-ci cild, səh. 407)

Möminlərin bir-birlərinə kömək etmələriylə yanaşı, bir-birlərini xidmət göstərməyə təşviq etmələri, yaxşı bir xidmət göstərəni də təqdir etməlidirlər. İmanlı insanların qardaşlıq duyğuları içində, bir-birlərinə dəstək olmalarının lazım olduğuna Bədiüzzaman da dəfələrlə diqqət çəkmişdir. Səid Nursinin bu sözlərindən biri belədir:

Ey əhli-iman! Zillət içində əsarət altına düşmək istəməsəniz, ağlınızı başınıza yığın. İxtilafınızdan istifadə edən zalımlara qarşı, "**Möminlər, həqiqətən də qardaşdırlar..." (Hucurat surəsi, 10)** müqəddəs qalasının içinə daxil olun, özünüzü qoruyun. Yoxsa nə həyatınızı qoruya bilər və nə də hüququnuzu müdafiə edə bilərsiniz. Məlumdur ki, iki qəhrəman bir-biriylə boğuşarkən, bir uşaq ikisini də döyə bilər. Bir tərəzidə iki dağ çəkilərsə, kiçik bir daş tarazlıqlarını pozub, onlarla oynaya bilər. Birini yuxarı, birini aşağı endirər.

Budur ey əhli-iman! Ehtiraslarınızdan və düşməncəsinə tərəfkeşliyinizdən ötrü gücünüz azalar. Az bir güclə məğlub edilə bilərsiniz. Sosial həyatla əlaqəniz varsa, "mömin mömin üçün möhkəm bir binanın bir-birinə güc verən daşları kimidir" yüksək prinsipini, həyat prinsipi edin. Dünya səfilliyindən və axirət çətinliyindən xilas olun.[24]

## Bədiüzzaman Səid Nursinin dinsizliklə mübarizədə göstərdiyi yol

Bədiüzzaman Səid Nursi, Risalə-i Nurun bir çox yerində dinsizliklə mübarizə mövzusunda möminlərə doğru yol göstərmişdir. Bir sözündə isə, yuxarıda toxunduğumuz mövzularla əlaqədar olaraq belə demişdir:

...Bizim düşmənimiz cəhalət, zərurət və ixtilafdır. Bu üç düşmənə qarşı sənət, bacarıq, ittifaq silahları ilə mübarizə aparacağıq...[25]

Səid Nursinin bu sözləri insanların dinsizliyə qarşı necə mübarizə aparacağını başa düşmək baxımından çox əhəmiyyətlidir. Bədiüzzaman yuxarıdakı sözündə üç təhlükəyə diqqət çəkmişdir: Cəhalət, zərurət və ixtilaf...

İlk təhlükəyə qarşı, yəni cəhalətə qarşı xalqın məlumatlandırılması olduqca əhəmiyyətlidir. Yaşadığımız cəmiyyətdə insanların böyük əksəriyyəti dindardır, Allaha və dinə inanır. Ancaq yenə də böyük əksəriyyəti dinin və mənəvi dəyərlərin qarşısında duran təhlükələrin fərqində deyil. Məsələn, "həm dindaram, həm də təkamülə inanıram"

deyə biləcək qədər təkamül nəzəriyyəsinin məzmunundan və hədəflərindən xəbərsiz olanlar vardır. Ya da reinkarnasiya kimi batil inanclara inanan və bunu İslamla uyğun zənn edən kəslər var. Buna görə də bu mövzudakı cəhalətin, yəni məlumat çatışmazlığının tezliklə aradan qaldırılması vacibdir.

Bədiüzzamanın diqqət çəkdiyi ikinci təhlükə isə zərurət, yəni kasıblıqdır. Hal-hazırda dünyadakı müsəlman ölkələrin böyük bir hissəsində, "aclıq, yoxsulluq, kasıblıq" fundamental problemlərin başında gəlir. "Kasıblığın" ölkədən ölkəyə fərqlənən səbəbləri var. Bəzi ölkələrdə iqtisadi çətinliklər, rəhbərlikdəki çatışmazlıqlar, bəzi ölkələrdə isə müharibələr, despot rəhbərliklər və ya daxili qarşıdurmalar insanların yoxsulluqla üzləşmələrinə səbəb olur. Qaçqın düşərgələrində çətin şərtlər altında yaşayan, evlərini tərk etmək məcburiyyətində qalan, ağır şərtlər altında işləməyə məcbur edilən, təhsil almaq imkanı olmayan insanlar köməyə möhtac vəziyyətdədirlər. Məhz bu çətin şərtlərdə yaşayan insanların Quran əxlaqı, Allahın yaradılış dəlilləri, materialist və darvinist nəzəriyyələrin dünyadakı dağıdıcı təsirləri haqqında məlumatlandırılması bütün müsəlmanların üzərinə düşən çox əhəmiyyətli bir məsuliyyətdir. Ancaq əvvəlcə bu insanların həyat şəraitini yaxşılaşdırmaq lazımdır. Bədiüzzamanın da diqqət çəkdiyi bu "zərurət" təhlükəsi mütləq aradan qaldırılmalı, müsəlmanların dinlərini rahatlıqla yaşaya biləcəyini bir mühit yaradılmalıdır. Bunun üçün Allaha iman edən hər müsəlman əlindən gəldiyi qədər səy göstərməlidir. Allah Nisa surəsində iman sahiblərinə bu məsuliyyətlərini bu şəkildə bildirir:

**Sizə nə olub ki, Allah yolunda və: "Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi təyin et, bizə Öz tərəfindən bir yardımçı təyin et!" - deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz? (Nisa surəsi, 75)**

Səid Nursinin son olaraq diqqət çəkdiyi ixtilaf təhlükəsi də bu gün də mövcuddur. Bu gün dünyadakı insanlar bir çox mövzuda ixtilafdadırlar. Çox vaxt ortaq bir fikrə gəlinmir və bir çox mövzu mübahisə və qarşıdurmalara çevrilir. Halbuki, ağılın və vicdanın yolu birdir. Buna görə də bu ixtilafın gətirəcəyi iğtişaş və xaos təhlükəsinə qarşı həqiqətlər çox aydın bir şəkildə və elmi dəlillərlə ortaya qoyulmalıdır. Canlıların mənşəyi mövzusunda da bu üsuldan istifadə edilməli, həqiqətlər bütün açıqlığı ilə izah edilməlidir. Bu yolla xalqla yanaşı, şübhə içində olan bir çox materialist və təkamülçü də vicdanlarına müraciət edərək, haqqa və doğru yola yönəlmə imkanı qazanacaq.

Bədiüzzaman bu üç təhlükəyə qarşı tədbir görərkən göz önündə saxlanmalı mövzuları da sözlərində vurğulayır. Bu məqamların birincisi sənətdir. İnsanların

dinsizliyin diniylə aparacaqları mübarizədə sənət çox əhəmiyyətli bir yer tutur. Burada işlənən “sənət” sözüylə bir çox şey nəzərdə tutulmuşdur. Allahın ətrafımızdakı yaratma sənətinin bütün gözəlliklərinin izah edilməsi ən əhəmiyyətli mövzulardan biridir. Həmçinin hər cür ədəbiyyatda istifadə edilən şəkillər, nitqdəki aydınlıq və sadəlik, nəşrdəki keyfiyyət dindar insanların üstün sənət anlayışlarını ortaya qoymaq da olduqca əhəmiyyətlidir. Bununla yanaşı şifahi izahatdakı hikmət də sənətin bir növüdür. Seçilən sözlər, istifadə edilən nümunələr, izahatdakı dərinlik və təsirlilik qarşıdakı insana təsir etmək baxımından çox əhəmiyyətlidir. Təkamül nəzəriyyəsi kimi guya elmi bir mövzunu izah edərkən olduqca mürəkkəb bir izahat yolu mənimsəyən təkamülçülərin əksinə izahatdakı sadəlik insanların həqiqətləri başa düşməsinə çox böyük bir asanlıq gətirəcək.

Bədiüzzamanın diqqət çəkdiyi bacarıqlı izahat da, Allaha səmimi qəlblə iman edən insanların diqqətə çarpan bir xüsusiyyətidir. Bu səmimiyyət və dürüstlük, onların izahatlarında çox aydın bir şəkildə öz əksini tapmışdır. Həmçinin izah ediləcək mövzuların aktuallığına görə seçilməsi, yenə vacib mövzuları xalqa çatdırılma yolları və formalarının müəyyənləşdirilməsi, həmişə vicdanlı insanlara xas olan bir bacarıqdır.

Bədiüzzaman Səid Nursinin göstərdiyi son üsul olan ittifaq isə, millətimizin rifahını və təhlükəsizliyini istəyən hər kəsin vəzifəsidir. İnananların Allahın varlığını inkar edən və mənəvi dəyərlərə qarşı müharibə açan kəslərə qarşı bir-birlərinə dəstək olmaları olduqca əhəmiyyətlidir. Bu birliyi pozmaq üçün ediləcək hər cür cəhd isə təsirin azalmasına səbəb olacaq. Əgər bir müsəlman “Darvinizm onsuz da yox olub getmişdir” və ya “Darvinizmi çürütməyə çalışmağın nə əhəmiyyəti var” deyərək bu istiqamətdə icra edilən fikri mübarizəni mənfi istiqamətdə tənqid edirsə, əslində fərqində olmadan bu mübarizə içində ixtilaf meydana gətirər. Halbuki, səmimi insanlar, dövlətimizin və millətimizin rifahını düşünənlər, darvinizmin və kommunizmin son zərrəsi də yox olana qədər fikri zəmində mübarizəyə davam etməlidirlər. Çünki darvinizm hələ tam mənasıyla yox olmamışdır. Təkamülçülər də ancaq böyük bir çaxnaşma içində son çırpınışlarını göstərirlər, amma hələ görüləcək çox iş var. Buna görə də bu təhlükənin bir daha meydana gəlməyəcək bir şəkildə kökünün kəsilməsi və bütün insanların qanına daxil olan bu zəhərin axıdılması olduqca əhəmiyyətlidir və çox böyük bir aktuallıq kəsb edir. Bu yanlış inancların dünyadan silindiyini ancaq, terrorun, anarxiyanın, din və dövlət düşmənçiliyinin, zülmün dayanması ilə anlaya bilərik. Bu gün günahsız insanlar qətlə yetirilirsə, dövlətin şərəfli əsgərinə, polisinə terroristlər tərəfindən silah çəkilirsə, dünyanın hər bir yerində zülm hökm sürürsə bu, materializmin və darvinizmin hələ də bitmədiyinin və bu ideologiyanın tərəfdarlarının hələ də fəaliyyətlərini davam etdirdiklərinin bir əlamətidir.

Bu vəziyyətdə vicdanlı insanların üzərinə düşən vəzifə məlumdur. Allah Quranda **"fitnə aradan qalxana qədər və din tamamilə yalnız Allaha həsr edilənədək..." (Ənfal surəsi, 39)** ayəsiylə dinsizliyin dini ilə mübarizə aparmağı əmr etmişdir.

# XƏBƏRDARLIQ

**Oxuyacağınız bu hissə, həyatın çox əhəmiyyətli bir sirrini ehtiva edir. Maddi dünyaya olan baxışınızı köklü surətdə dəyişdirəcək bu mövzunu, çox diqqətli bir şəkildə və dərk edə-edə oxumalısınız. Burada izah edilənlər yalnız bir dünyagörüşü, fərqli bir yanaşma və ya hər hansı bir fəlsəfi düşüncə deyil, dinə inanan və inanmayan hər kəsin qəbul edəcəyi, bu gün elmin də sübut etdiyi aydın bir həqiqətdir.**

# DİNSİZLİYİN DİNLƏRİNİ MƏĞLUB EDƏN HƏQİQƏT

Əvvəlki hissələrdə qeyd etdiyimiz kimi, inkarçıların din əxlaqına zidd olan bir mübarizə aparmalarının ən əhəmiyyətli faktorlarından biri, hər şeyi dünyəvi meyarlara görə dəyərləndirmələridir. Bunun səbəbi də, həyatlarının dünya ilə məhdudlaşmış olduğunu zənn etmələri və dünyaya qarşı ehtiras dolu bir bağlılıq duymalarıdır. Din əxlaqından uzaq yaşayan insanların bu ruh halı Quranda belə bildirilir:

**Dünya həyatımızdan başqa heç bir həyat yoxdur; ölüb dirilirik (birimiz ölür, digərimiz anadan olur) və biz dirilməyəcəyik. (Müminun surəsi, 37)**

Məhz bu ehtirasa görə də inkarçılar dünyanı tam mənada qavraya bilməzlər. Ətraflarında gördükləri hər şeyi müstəqil bir varlıqmış kimi zənn edər, bütün varlıqların ancaq Allahın diləməsiylə varlığını davam etdirdiyini qavraya bilməzlər. Allah inkarçıların dünya həyatının həqiqətlərini qavraya bilmədiklərini bir ayədə belə bildirmişdir:

**Onlar dünya həyatının görünən tərəfini bilir, axirətdən isə büsbütün qafildirlər. (Rum surəsi, 7)**

İnkarçıların bütün ömürləri boyunca dərk edə bilmədikləri çox əhəmiyyətli bir həqiqət vardır. Onlar bu həqiqətdən xəbərsiz bir şəkildə hər cür əxlaqsızlığı edər, dünyada öz aləmlərində mənfəət qazanmağa çalışar, yalan danışar, dinə istehza ilə yanaşar, inananlara iftiralar atar, onlara zərər verməyə çalışarlar... Ancaq əslində böyük bir qəflət içindədirlər, lakin bunu dərk etmirlər. Sonrakı səhifələrdə bu insanların necə böyük bir şüursuzluq və qəflət içində yaşadıqlarını ortaya qoyan bu böyük həqiqət izah ediləcək.

## Maddənin ardındakı sirr

Görmə, eşitmə, iybilmə, dadbilmə, toxunma duyğularımızın hamısı bir-birlərinə bənzər bir şəkildə fəaliyyətə malikdir. Çöldəki obyektlərdən gələn siqnallar (səs, qoxu, dad, görüntü, sərtlik və s.), sinir hüceyrələrimiz vasitəsiylə beyindəki duyğu mərkəzlərinə ötürülür. Beyinə daxil olan bu təsirlərin hamısı elektrik siqnallarından ibarətdir. Məsələn, görmə əməliyyatı əsnasında çöldəki bir mənbədən gələn işıq seli (fotonlar) gözün arxa tərəfindəki torlu qişaya çatar və burada bir sıra əməliyyatlar nəticəsində elektrik siqnallarına çevrilər. Bu siqnallar, sinir hüceyrələri vasitəsiylə beyinin görmə mərkəzinə ötürülür. Biz də, bir neçə kub santimetr həcmdə olan görmə mərkəzində rəngarəng, tərtəmiz, eni, uzunluğu, hündürlüyü olan bir dünya qəbul edərik.

Eyni sistem digər duyğularımız üçün də keçərlidir. Dadlar dilimizdəki bəzi hüceyrələr tərəfindən, iylər burundakı epitel toxumada yerləşən hüceyrələr tərəfindən, toxunmağa aid hisslər (sərtlik, yumşaqlıq və s.) dəri altına yerləşdirilmiş xüsusi reseptorlar tərəfindən, səslər isə qulaqdakı xüsusi bir mexanizm tərəfindən elektrik siqnallarına çevrilərək beyindəki əlaqədar mərkəzlərə göndərilir və o mərkəzlərdə qəbul edilir.

Mövzunu daha da dəqiqləşdirmək üçün belə bir nümunə verə bilərik: İndi bir fincan qəhvə içdiyinizi fikirləşin. Əlinizdə tutduğunuz stəkanın sərtliyi və istiliyi dəri altındakı xüsusi reseptorlar tərəfindən qəbul olunub elektrik siqnallarına çevrilərək beyinə ötürülür. Həmçinin qəhvənin kəskin iyi, onu içdiyiniz vaxt hiss etdiyiniz acı bir dad və fincana baxdığınız vaxt gördüyünüz tünd qəhvəyi rəng də əlaqədar duyğu orqanlarınıza aid sinir hüceyrələri tərəfindən beyinə çatdırılan bir elektrik axınıdır. Sonra da fincanı şüşə bir stolun üstünə qoyarkən onun şüşəyə dəyməsindən əmələ gələn səs də qulağınız tərəfindən qəbul olunub beyinə elektrik siqnalı şəklində göndərilir. Bu hisslərin hamısı beyindəki bir-birindən ayrı, amma bir-biriylə ortaq çalışan duyğu mərkəzləri tərəfindən hiss olunar. Siz də bu hisslərin bir nəticəsi olaraq bir fincan qəhvə içdiyinizi düşünərsiniz. Yəni əslində hər şey beyindəki duyğu

mərkəzlərində olub bitir, amma siz bütün bu hisslərinizin konkret bir varlığa aid olduğunu zənn edərsiniz.

Halbuki, bu məqamda yanılarsınız, çünki beyninizindən kənarda mövcud olan maddi bir dünyaya daxil olmağınız qeyri-mümkündür. Təmasda olduğunuz bütün əşyalar, əslində görmə, eşitmə, toxunma kimi hisslərin cəmindən ibarətdir. Müvafiq duyğu mərkəzlərində məlumatları analiz edən beyniniz, həyatınız boyu maddənin sizdən kənarda mövcud olan "əsli" ilə deyil, beyninizdəki surətləri ilə əlaqə saxlayar. Siz isə bu surətləri sizdən kənarda mövcud olan həqiqi bir maddə kimi zənn edərək yanılarsınız.

Şübhəsiz bu dərin düşünülməli çox vacib həqiqətdir. İndiyə qədər hər dəfə çölə baxdığınızda gördüyünüz hər şeyin mütləq varlıqlar olduğunu zənn etmiş ola bilərsiniz. Halbuki, elmin də sübut etdiyi kimi təmasda olduğunuz hər bir şey hisslərinizin cəmindən ibarətdir. Burada qısaca ümumiləşdirilən şey, həyatınızda dərk edə biləcəyiniz ən böyük həqiqətlərdən biridir.

## Süni olaraq yaradılan "Xarici dünya"

Buraya qədər izah etdiyimiz fiziki həqiqətlər bizi mübahisə edilməz bir nəticəyə gətirər: Bizim gördüyümüz, toxunduğumuz, eşitdiyimiz və "maddə", "dünya" ya da "kainat" deyə adlandırdığımız anlayışlar əslində beynimizdə hiss olunan elektrik siqnallarıdır. Biz heç vaxt maddənin, beynimizdən kənardakı, mövcud olan əslinə çata bilmərik. Ancaq bizdən kənardakı dünyanın beynimizdə əmələ gələn görünüşünü görər, eşidər və dadarıq.

Tanıdığımız yeganə dünya, beynimizdə mövcud olan, orada tərtib olunan, səsləndirilən və rəngləndirilən, bir sözlə, beynimizdə meydana gələn bir dünyadır. Beynimizdə seyr etdiyimiz bu hisslər bəzən "süni" bir mənbədən da gələ bilərlər. Hər hansı bir yolla beyinin xəbərdar olunmasıyla bütün duyğular fəaliyyətə başlaya bilər, hisslər, görünüşlər və səslər meydana gələ bilər. Maddi qarşılıqları olmayan hissləri həqiqət kimi zənn edərək aldanmaq çox asandır. Yuxularımız bunun ən aydın dəlilidir.

Yuxu gördüyünüz vaxt, bədəniniz ümumiyyətlə, qaranlıq və səssiz bir otaqda, hərəkətsiz bir şəkildə yatır və gözləriniz də bağlı olur. Çöldən beyninizin qəbul edə bilməsi üçün sizə çatan nə işıq, nə səs, nə də buna bənzər heç bir şey yoxdur. Ancaq yatdığınız müddətdə oyanıq olduğunuz vaxtda yaşadıqlarınızın çox bənzərlərini, eyni canlılıqda yaşayarsınız. Yuxuda da səhər yuxudan oyanar, işə gedib çatmağa çalışarsınız. Və ya səyahətə çıxar, dəniz sahilinə gedər, orada Günəşin istiliyini hiss

edərsiniz.

Üstəlik yuxu əsnasında, gördüklərinizin həqiqiliyindən qətiyyən şübhələnməz, ancaq oyandıqdan sonra düşündükdə hamısının bir yuxu olduğunu başa düşərsiniz. Yuxunuzda qorxu, həyəcan, sevinc, kədər kimi duyğular yaşamaqla yanaşı, həmçinin müxtəlif şeylər görər, səslər eşidər, maddənin sərtliyini hiss edərsiniz. Ancaq ortada bu hisslərə, gözəlliklərə səbəb olacaq heç bir mənbə yoxdur. Hələ də qaranlıq və səssiz bir otaqda yatırsınız.

Yuxuda tamamilə bir həqiqətmiş kimi görünən hadisələr yaşayar, insanlar, obyektlər və müxtəlif mühitlər görərsiniz. Amma hamısı bir hissdən başqa bir şey deyil. Yuxu ilə "həqiqi dünya" arasında isə əsas bir fərq yoxdur, çünki hər ikisi də beyində yaşanır.

## Bunları hiss edən kimdir?

İçində yaşadığımızı zənn etdiyimiz və "xarici dünya" adını verdiyimiz maddi dünyanın əslində beynimizdə meydana gəldiyinə şübhə yoxdur. Amma əsl əhəmiyyətli sual burada ortaya çıxır: Tanıdığımız bütün maddi varlıqlar həqiqətdə hisslərdən ibarətdirsə, onda beynimiz nədir? Beynimiz də qolumuz, ayağımız və ya başqa hər hansı bir obyekt kimi maddi dünyanın bir parçası olduğuna görə, o da digər maddələr kimi bir hiss olmalıdır.

Yuxudakı mühitlə həqiqi həyat dediyimiz mühit arasında hər hansı bir fiziki fərq olmadığını bilirik. Elə isə, bizə həqiqi həyat dediyimiz mühitdə "harada görürsən?" sualı verildikdə də "beynimdə" cavabını verməyin mənası yoxdur. Hər iki vəziyyətdə də görən və hiss edən, iradəsi olan ət parçasından ibarət beyin deyil. Bura qədər həmişə xarici dünyanın bir surətini beynimizdə izlədiyimizdən bəhs etdik. Bunun əhəmiyyətli bir nəticəsi xarici dünyanın mövcud olan əslini heç vaxt tam olaraq bilməyəcəyimizdir.

Ən azı bu qədər əhəmiyyətli olan ikinci bir həqiqət isə, beynimizdə seyr etdiyimiz bu dünyanı izləyən "iradə"nin, beynin özü ola bilməyəcəyidir. Beyin özünə gələn məlumatları qəbul edən və görünüşə çevirən bir kompyuter-monitor sistemi kimidir, amma diqqət yetirilsə kompyuterlər öz-özlərini seyr edə bilməz. Var olduqlarını da dərk etməzlər. Bu şüuru axtarmaq üçün beyini analiz etdikdə qarşımıza digər canlı orqanlarda da olan zülal və yağ molekullarından daha fərqli bir şey çıxmır. Yəni beyin dediyimiz ət parçasında, görüntüləri seyr edib şərh edəcək, şüuru meydana gətirəcək, bir sözlə "mən" dediyimiz şeyi yarada biləcək bir şey yoxdur.

Əlinizdəki kitab, içində oturduğunuz otaq, bir sözlə, bütün görüntülər beyninizin

içində görülür. Bəs atomlar bu görüntüləri görə bilərmi? Həm də kor, kar, şüursuz olan atomlar... Niyə atomların bir qismi bu xüsusiyyətləri qazanmış, digərləri isə qazana bilməmişdir?... Düşünməyimiz, qavramağımız, xatırlamağımız, sevinməyimiz, kədərlənməyimiz, bütün bunlar bu atomların arasında gedən kimyəvi reaksiyalardan ibarət ola bilərmi?

Bu sualları diqqətlə düşündükdə, atomlarda iradə, şüur axtarmağın mənasız olduğunu da görərik. Aydındır ki, görən, eşidən və hiss edən varlıq, maddədən daha dərin bir varlıqdır. Bu varlıq "canlı"dır və nə maddə, nə də görüntüdür. Bu varlıq bədən görüntümüzdən istifadə edərək qarşısındakı hisslərlə təmasda olur.

**Məhz bu varlıq "Ruh"dur.**

Bu sətirləri yazan və oxuyan ağıllı varlıqlar, bir atom və molekul yığını və bunların arasında gedən kimyəvi reaksiyaların nəticəsi deyil, bir "ruh"dur.

**Bizə ən yaxın Varlıq Allahdır**

İnsanlar bir maddə yığını deyil, bir "ruh" olduqlarına görə xarici dünya dediyimiz hissləri ruhumuza hiss etdirən, daha doğrusu bunları heç durmadan yaradan kimdir?

Şübhəsiz ki, bu sualın cavabı olduqca aydındır. İnsana "ruhundan üfürən" Allah ətrafımızdakı hər şeyin Yaradıcısıdır. Bu hisslərin tək qaynağı da Odur. Allahın yaratması xaricində hər hansı bir şeyin varlığından söhbət belə gedə bilməz. Allah bir ayəsində hər şeyi davamlı olaraq yaratdığını, yaratmağı dayandırdığı təqdirdə isə gördüyümüz heç bir şeyin öz varlığını davam etdirə bilməyəcəyini belə xəbər vermişdir:

**Həqiqətən, Allah göyləri və yeri tərpənməsinlər deyə, tutub saxlayır. Əgər tərpənsələr, Ondan başqa onları heç kəs tutub saxlaya bilməz. Həqiqətən də, O, Həlimdir, Bağışlayandır. (Fatir surəsi, 41)**

Əlbəttə ki, bu ayədə maddi kainatın Allahın qüdrətiylə tutub saxlanılması izah edilir. Allah kainatı, dünyanı, dağları, canlı-cansız bütün varlıqları yaratmışdır və onları hər an tutub saxlayır. Allahın Xaliq sifəti bu maddi kainatda təcəlli edir. Allah Xaliqdir, yəni hər şeyi yaradan, yoxdan var edəndir. Bu da bizə göstərir ki, beynimizin xaricində, Allahın yaratdığı varlıqlardan ibarət maddi bir kainat vardır. Ancaq Allah bir möcüzə və yaradılışındakı üstünlüyün və sonsuz elminin bir təcəllisi olaraq, bu maddi kainatı bizə bir "xəyal", "kölgə" və ya "görüntü" kimi seyr etdirir. Allahın yaratmasındakı

mükəmməlliyin bir nəticəsi olaraq, insan heç vaxt öz beyninin xaricindəki dünyaya çata bilməz. Bu həqiqət maddi kainatı bilən yalnız Allahdır.

Fatir surəsindəki ayənin başqa bir şərhi də, insanların gördükləri maddi kainatın görüntüsünü də Allahın hər an tutub saxlaması deməkdir. (Doğrusunu Allah bilir.) Allah beynimizə dünya görüntüsünü göstərmək istəməsə, bütün kainat bizim üçün yox olar və bir daha heç vaxt ünsiyyət qura bilmərik.

Bizim maddi kainatın əsli ilə heç vaxt təmasda ola bilmədiyimiz həqiqəti, insanların bir çoxunu maraqlandıran "Allah haradadır?" sualının da cavabını ortaya çıxarar.

İnsanların çoxu Allahın gücünü qavramadıqlarına, Onu göyün hər hansı bir yerində olan və dünya işlərinə müdaxilə etməyən bir varlıq kimi düşünürlər. (Allahı tənzih edirik) Bu yanlış məntiqin əsası, kainatın bir maddələr yığınından ibarət olduğu, Allahın isə bu maddələrin "xaricində" bir yerdə olduğu şəklindədir.

Halbuki, indiyə qədər araşdırdığımız kimi, maddi kainata heç vaxt çata bilmədiyimiz kimi, onun mahiyyətini də tam olaraq bilmirik. Tək bildiyimiz şey, bütün bunları yaradan Yaradıcının, yəni Allahın varlığıdır. İmam Rəbbani kimi böyük İslam alimləri bu həqiqəti ifadə etmək üçün "var olan tək mütləq varlıq yalnız Allahdır, Ondan başqa hər şey "kölgə varlıqlardır" deyiblər. Çünki gördüyümüz dünya beynimizdədir və bunun xarici dünyadakı əslinə çatmağımız qətiyyən mümkün deyil. Belə olduqda da, Allahın heç vaxt çata bilmədiyimiz bir maddi kainatın "xaricində" olduğunu düşünmək səhv olar.

Allah əslində "hər yerdə"dir və hər yeri əhatə edir. Bu həqiqət Quranda belə izah olunur:

**...Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, Ucadır, Uludur. (Bəqərə surəsi, 255)**

**Doğrudan da, onlar öz Rəbbi ilə qarşılaşacaqlarına şübhə edirlər. Həqiqətən, O, hər şeyi əhatə edir. (Fussilət surəsi, 54)**

Allahın məkandan münəzzəh olduğu və hər yeri əhatə etdiyi həqiqəti başqa bir ayədə belə ifadə edilir:

**Məşriq də, məğrib də Allahındır! Hansı səmtə yönəlsəniz, Allahın Üzü orada olar. Həqiqətən, Allah hər şeyi Əhatə edəndir, Biləndir. (Bəqərə surəsi, 115)**

İnsan özünə ən yaxın olan varlığın yenə özü olduğunu zənn edərək aldanır. Halbuki, Allah bizə, bizim özümüzdən belə daha yaxındır. **"Can boğaza yetişdiyi zaman, həmin an siz can verən adama baxırsınız. Biz ona sizdən daha yaxın oluruq, siz isə bunu görmürsünüz". (Vaqiə surəsi, 83-85)** ayələri ilə də bu həqiqətə diqqət çəkmişdir. Ancaq ayədə də bildirildiyi kimi insanlar gözləriylə görmədikləri üçün bu fövqəladə həqiqətdən xəbərsiz yaşayırlar.

Digər tərəfdən, İmam Rəbbaninin ifadəsiylə kölgə bir varlıqdan başqa bir şey olmayan insanın, müstəqil bir gücə sahib olması da qeyri-mümkündür. Necə ki, **"Axı sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır". (Saffat surəsi, 96)** ayəsi yaşadığımız bütün hadisələrin Allahın nəzarəti altında reallaşdığını göstərir. Quranda bu həqiqət bildirilir və **"...atdığın zaman sən atmadın, Allah atdı..." (Ənfal surəsi, 17)** ayəsiylə, heç bir hərəkətin Allahdan müstəqil olmadığı vurğulanır. İnsan kölgə varlıq olduğu üçün atmaq hərəkətini də özü edə bilməz. Lakin Allah bu kölgə varlığa özünün atdığı hissini verir. Həqiqətdə isə bütün hərəkətləri reallaşdıran Allahdır.

Həqiqət budur. Bir insan bunu qəbul etmək istəməyə bilər, özünü Allahdan müstəqil bir varlıq zənn etməyə davam edə bilər, amma bu heç bir şeyi dəyişdirməz.

**Sahib olduğumuz hər şey əslində bir xəyaldır...**

Aydın şəkildə göründüyü kimi, bizim "xarici dünya" ilə birbaşa təmasda olmadığımız, Allahın davamlı ruhumuza göstərdiyi bir surəti ilə təmasda olduğumuz elmi və məntiqi bir həqiqətdir. Necə ki, insanlar bunu çox düşünmək istəməzlər.

Bu mövzuda bir az səmimi və cəsur düşünsəniz, evinizin, içindəki əşyalarınızın və ya antikvarlarınızın, bağınızın, yeni aldığınız avtomobilinizin, ofisinizin, ləl-cəvahiratlarınızın, bankdakı hesabınızın, paltar şkafınızın, yoldaşınızın, uşaqlarınızın, iş yoldaşlarınızın və sahib olduğunuz digər şeylərin də, əslində beyninizdə olduğu həqiqətini fərq edərsiniz. Ətrafınızda gördüyünüz, eşitdiyiniz, iylədiyiniz, bir sözlə, beş duyğu orqanınızla hiss etdiyiniz hər şey bu "surət olan dünya"ya aiddir, ən sevdiyiniz artistin səsi, oturduğunuz stulun sərtliyi, iyi xoşunuza gələn bir ətir, sizi isidən günəş, rəngləriylə gözoxşayan bir çiçək, çöldə uçan bir quş, dənizin üstündə sürətlə üzən sürət mühərriki, bol məhsul verən bağınız, işinizdə istifadə etdiyiniz kompyuter ya da dünyadakı ən keyfiyyətli texnologiyaya sahib musiqi alətiniz...

Həqiqət budur, çünki dünya yalnız insanı sınamaq üçün yaradılan bir aləmdir.

İnsanlar qısa ömürləri boyunca heç vaxt əslinə çata bilməyəcəkləri hisslərlə imtahan olunurlar. Bu hisslər isə, xüsusilə bəzəkli və cazibədar göstərilir. Bu həqiqət, Quranda belə xəbər verilir:

**Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah yanındadır. (Ali İmran surəsi, 14)**

İnsanların çoxu sahib olduqları ya da olmağa çalışdıqları malların, pulların, yığdıqları qızılların, gümüşlərin, dollarların, ləl-cəvahiratların, daşıdıqları pul kisələrinin, kredit kartlarının, istifadə etdikləri şkaflar dolusu paltarların, son model avtomobillərin, bir sözlə, hər cür zənginliyin sehri ilə dinlərini tərk edər, axirəti unudar və yalnız dünyaya yönələrlər. "İşim var", "ideallarım var", "məsuliyyətim var", "vaxtım azdır", "işlərim var", "sonra edəcəyəm" deyərək, dünyanın "bəzəkli və cazibədar" üzünə aldanaraq oruc tutmaz, 5 vaxt namazlarını qılmaz, mallarını kasıblara verməz, axirətdə xeyir qazanacaqları ibadətlərə yönəlməzlər. Əksinə ömürlərini yalnız dünya qazancını əldə etməyə çalışaraq keçirərlər. **Onlar dünya həyatının görünən tərəfini bilir, axirətdən isə büsbütün qafildirlər. (Rum surəsi, 7)** ayəsində məhz elə bu aldanma təsvir edilir.

Kitabın bu hissəsində izah etdiyimiz həqiqət isə, bütün bu ehtirasların və bağlılıqların mənasız olduğunu aydınlaşdırmaq baxımından çox əhəmiyyətlidir. Çünki bu həqiqətin başa düşülməsi, insanların sahib olduqları və olmağa çalışdıqları hər şeyin, ehtirasla sahib olduqları mal dövlətlərinin, varlıqlarıyla öyündükləri uşaqlarının, özlərinə ən yaxın zənn etdikləri həyat yoldaşlarının, ən sevdikləri dostlarının, bədənlərinin, bir üstünlük olaraq gördükləri vəzifələrinin, oxuduqları məktəblərin, keçirdikləri tətillərin bir kölgə varlıqdan ibarət olduğunu göstərir. Bu vəziyyətdə bunların uğruna edilən ehtiraslar, keçirilən vaxtlar, göstərilən səylər də əbəsdir.

Onda bəzi insanlar sahib olduqları mal-dövlətləriylə, yaxtalarıyla, helikopterlərilə, fabrikləriylə, holdinqləriylə, villalarıyla, torpaq sahələriylə sanki bunların əsli ilə təmasda olurmuş kimi öyündükləri vaxt kiçik ixtilafdadırlar. Yaxtalarında "özünü darta-darta" gəzən zənginlər, dostlarına avtomobilləriylə reklam edənlər, zənginliklərini hər fürsətdə dilə gətirənlər, vəzifələrinin özlərini hər kəsdən üstün etdiyini zənn edənlər, bunlarla göstəriş etdiklərini zənn edənlər, əslində beyinlərindəki görüntülər ilə göstəriş etdiklərini başa düşdükdə nə vəziyyətə düşəcəklərini bilməlidirlər.

Bunların bənzərlərini yuxularında da tez-tez görərlər. Yuxularında da evləri, çox

sürətli avtomobilləri, olduqca qiymətli ləl-cəvahiratları, qat-qat dollarları, yığın-yığın qızıl və gümüşləri vardır. Yuxularında da yüksək bir vəzifədə olurlar, minlərlə adamın işlədiyi fabrikləri olar, bir çox insana hökm edən bir gücləri olar, hər kəsin heyran qaldığı paltarlar geyinərlər... Ancaq necə ki, yuxuda sahib olduqları şeylərlə öyünmələri onları gülməli hala salarsa, eynilə bu dünyada əlaqədə olduqları görüntülərlə də öyünmələri eynidir. Yuxularında gördükləri də, bu dünyada əlaqədə olduqları da nəticədə beyinlərindəki bir görüntüdən ibarətdir.

Bunun kimi dünyada yaşadıqları hadisələrə göstərdikləri reaksiyalar da, həqiqəti başa düşdükdə insanları utandıracaq. Özünü itirmiş şəkildə savaşanlar, qışqırıb-bağıranlar, fırıldaqçılıq edənlər, rüşvət alanlar, saxtakarlıq edənlər, yalan danışanlar, xəsislik edənlər, insanları incidənlər, onları döyüb söyənlər, gözü dönmüş təcavüzkarlar, içləri vəzifə ehtirası ilə dolu olanlar, həsəd aparanlar, göstəriş etməyə çalışanlar, özlərini üstün tutmağa çalışanlar və digərləri, bunları bir xəyal içində etdiklərini fərq etdiklərində rəzil olacaqlar.

Bilinməlidir ki, bütün kainatı yaradan və bunu hər insana ayrı-ayrılıqda göstərən Allah olduğuna görə, bu dünyadakı bütün malın həqiqi sahibi də yalnız Allahdır. Necə ki, bu həqiqət Quranda xüsusilə xəbər verilir:

**Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur. Allah hər şeyi əhatə edir. (Nisa surəsi, 126)**

Əsli ilə təmasda oluna bilməyən ehtiraslar uğruna dini bir kənara qoymaq və bunun nəticəsində əbədi həyatı itirmək isə, çox böyük bir ağılsızlıqdır. Üstəlik insana əbədi bir ziyan gətirər.

Bu mövzuda bu məqam çox yaxşı başa düşülməlidir: Qarşı-qarşıya olduğumuz həqiqət, "bütün bu sahib olduğunuz və hərisliklə sevdiyiniz mallar, zənginliklər, uşaqlar, yoldaşlar, dostlar, vəzifələr gələcəkdə yox olacaq, ona görə də bunların heç bir mənası yoxdur" demir. "Onsuz da bu sahib olduqlarınızın heç birinin əsli ilə bu anda təmasda deyilsiniz, hamısı yalnız beyninizdə seyr etdiyiniz bir hissdən ibarət olub, Allahın sizi sınamaq üçün göstərdiyi bir görüntüdür" deyir. Diqqət yetirsəniz ikisi arasında çox böyük bir fərq vardır.

İnsan bu həqiqəti indi qəbul etməsə və bütün sahib olduqlarını həqiqətən varmış kimi qəbul edərək özünü aldatsa belə, nəticədə öldükdən sonra yenidən dirildikdə, yəni axirətdə hər şey çox aydın bir şəkildə ortaya çıxacaq. O gün insan **"Sən bu gün çox yaxşı görürsən!" (Qaf surəsi, 22)** ayəsiylə ifadə olunduğu kimi, hər şeyi çox

yaxşı görəcək. Amma əgər dünyadakı həyatını xəyali məqsədlər uğruna sərf edibsə, orada heç yaşamamış olmağı diləyəcək, **"kaş ilk ölümüm həmişəlik olaydı! Var-dövlətim məni əzabdan qurtarmadı. Hökmranlığım da məhv olub getdi" (Haqqə surəsi, 27-29)** deyərək həlak olacaq.

Ağıllı bir insana düşən isə, bütün kainatın bu ən böyük həqiqətini vaxt var ikən burada qavramağa çalışmaqdır. Əks halda bütün ömrünü xəyallar arxasınca qaçmağa sərf edib sonunda böyük bir sarsıntıya məruz qalar. Allah dünyada xəyallar (ya da "ilğımlar") arxasınca qaçıb hər şeyin Yaradıcısı olan Allahı unudan bu insanların aqibətlərini belə bildirir:

**Kafirlərin əməlləri səhradakı ilğıma bənzəyir ki, susamış kimsə onu su hesab edər. Ona yaxınlaşdıqda isə onun heç nə olduğunu görər. O öz yanında Allahı tapar. O da onun cəzasını verər. Allah tez haqq-hesab çəkəndir. (Nur surəsi, 39)**

## Materialistlər tarixin ən böyük tələsinə düşüblər

Maddənin əslinə çata bilməyəcəyimiz həqiqəti, müasir elm tərəfindən isbat edilmiş və üstəlik çox aydın, qəti və güclü bir şəkildə ortaya qoyulur. Materialistlər bütün fəlsəfələrini əsaslandırdıqları maddi dünyanın, əslində heç vaxt əslinə çata bilməyəcəkləri hisslərdən başqa bir şey olmadığını görür və buna qarşı heç bir şey edə bilmirlər.

Materialist düşüncə bəşəriyyət tarixində həmişə mövcud olmuş və bu kəslər özlərindən və müdafiə etdikləri fəlsəfədən çox əmin bir şəkildə, onları yaradan Allaha baş qaldırmışdılar. Ortaya atdıqları ssenariyə görə maddə əzəli və əbədidir və bütün bunların bir yaradıcısı ola bilməz. Bu adamlar yalnız təkəbbürləndiklərinə görə, Allahı inkar etdikləri halda, təmasda olduqlarını zənn etdikləri maddənin ardına sığınırlar. Bu fəlsəfədən elə əminidilər ki, heç vaxt bunun əksini isbat edəcək bir izah gətirilə bilməyəcəyini düşünürdülər.

Məhz buna görə də maddənin əsli ilə əlaqədar olaraq bu hissədə izah edilən həqiqətlər bu kəsləri böyük bir qarışıqlığa salmışdır. Çünki burada izah edilənlər fəlsəfələrini köklü surətdə çürütmüş, haqqında mübahisə etməyə imkan verməmişdir. Bütün düşüncələrini, həyatlarını, qürurlarını və küfrlərini üstündə qurduqları maddə əllərindən bir anda uçub getmişdir. Heç bir insan maddənin əslini görməmişdir ki, buna əsaslanan bir fəlsəfə də mövcud ola bilsin. Allahın bir sifəti, inkarçılara tələ qurmasıdır. Quranda, **"...Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən**

**yaxşısıdır". (Ənfal surəsi, 30)** ayəsiylə məhz bu həqiqət bildirilir.

Məhz Allah maddəni mütləq bir varlıq zənn etdirərək materialistləri tələyə salmış və onları tarixdə bənzəri görülməmiş şəkildə alçaltmışdır. Mal-dövlətlərini, vəzifələrini, ləqəblərini, yaşadıqları cəmiyyəti, bütün dünyanı mütləq varlıq zənn etmişlər, üstəlik bunlara etimad edərək Allaha qarşı təkəbbürlənmişlər. Təkəbbürlə Allaha üsyan etmiş və küfrlərini artmışdırlar. Bunları edərkən də güc aldıqları tək şey maddənin mütləq olduğu inancı olmuşdur. Amma elə bir düşüncəsizliyə düşmüşlər ki, Allahın onları hər tərəfdən əhatə etdiyini heç düşünməmişlər. Allah inkarçıların düşüncəsizlikləri nəticəsində düşəcəkləri vəziyyəti Quranda belə xəbər vermişdir:

**Yoxsa bir hiylə qurmaq istəyirlər? Amma kafirlər özləri o hiylənin qurbanı olacaqlar. (Tur surəsi, 42)**

Bu, bəlkə də tarixdəki ən böyük məğlubiyyətdir. Materialistlər öz aləmlərində təkəbbürlənərkən, dinlə və iman edənlərlə lağ edərkən əslində böyük bir tələyə düşmüşlər, Allaha qarşı çirkin bir cəsarət göstərməklə başladıqları mübarizədə qəti olaraq məğlub olmuşlar.

Quranda xəbər verilən, **"Beləliklə hər bir ölkədə oranın günahkarlarını başçılar təyin etdik ki, onlar orada mümkün qədər yaramaz işlər görsünlər. Halbuki, onlar o yaramaz işləri yalnız özlərinə qarşı edirlər və bunu da hiss etmirlər". (Ənam surəsi, 123)** ayəsi Yaradıcımız olan Allaha baş qaldıran bu kimi inkarçıların necə bir şüursuzluq içində olduqlarını və necə bir aqibətlə üzləşəcəklərini ən aydın bir şəkildə xəbər verir.

Başqa bir ayədə isə bu həqiqət belə vurğulanır:

**Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar. Halbuki, yalnız özlərini aldadır və bunu anlamırlar. (Bəqərə surəsi, 9)**

İnkarçılar öz aləmlərində tələ qurmağa çalışdıqları halda ayədəki "anlamırlar" ifadəsiylə qeyd olunduğu kimi, çox əhəmiyyətli bir həqiqəti anlaya bilməmişlər: Yaşadıqları bütün hadisələrin əslində beyinlərində reallaşdığını və gördükləri bütün əməllər kimi, qurduqları tələlərin də beyinlərində olduğu həqiqətini... Bu düşüncəsizliklərindən ötrü də, Allah ilə tək olduqlarını unudaraq hiyləyə düşmüşlər.

Hər dövrdə Allah inkarçıları qurduqları bütün hiylələrini özülündən yox edəcək bir həqiqətlə üz-üzə gətirmişdir. Allah **"...şübhəsiz ki, şeytanın hiyləsi zəifdir" (Nisa**

**surəsi, 76)** ayəsiylə, bu tələlərin hələ ilk qurulduqları anda, aqibətlərinin yoxluq olacağını da xəbər vermişdir. Və möminləri də **"...onların qurduğu hiylə sizi ziyana sala bilməz..." (Ali İmran surəsi, 120)** ayəsiylə müjdələmişdir.

Allah başqa bir ayəsində, **" Kafirlərin əməlləri səhradakı ilğıma bənzəyir ki, susamış kimsə onu su hesab edər. Ona yaxınlaşdıqda isə onun heç nə olduğunu görər. O öz yanında Allahı tapar..." (Nur surəsi, 39)** şəklində xəbər verir. Materializm də bu ayədə işarə edildiyi kimi, üsyan edənlər və dünya həyatlarını dinə lağ etməklə keçirənlər üçün bir "ilğım" meydana gətirər, ona inanaraq əllərini uzatdıqlarında, bu fəlsəfənin yanlış olduğunu başa düşərlər. Allah onları belə bir ilğımla aldatmış, maddəni mütləq varlıq kimi göstərmişdir. "Nəhəng" adamlar, professorlar, astronomlar, bioloqlar, fiziklər, ləqəbləri, vəzifələri hər nə olursa olsun maddəni özlərinə məbud qəbul etdiklərinə görə bu tələyə düşmüşlər, bir uşaq kimi aldanmış və alçalmışlar. Heç vaxt əslinə çata bilməyəcəkləri maddəni mütləq zənn edərək onun əsasında öz fəlsəfələrini, ideologiyalarını qurmuşlar, haqqında ciddi mübahisələrə girmişlər, istehza xarakterli izahatlardan istifadə etmişlər. Bütün bunlara görə də özlərini çox ağıllı saymışlar, kainatın həqiqəti haqqında fikir yürüdə biləcəklərini düşünmüşlər və ən əhəmiyyətlisi də öz məhdud ağılları ilə Allahı şərh edə biləcəklərini zənn etmişlər. Allah onların düşdükləri bu vəziyyəti bir ayədə belə bildirir:

**Onlar hiylə qurdular, Allah da hiylə qurdu. Allah hiylə quranların ən yaxşısıdır. (Ali İmran surəsi 54)**

Dünyada bəzi tələlərdən xilas olmaq olar, ancaq Allahın inkar edənlərə qurduğu bu tələ elə güclüdür ki, heç vaxt bir qurtuluş imkanları qalmamışdır. Nə edirlərsə etsinlər, kimə müraciət edirlərsə etsinlər, özlərini xilas edəcək, Allahdan başqa bir yardımçı tapmaları da qeyri-mümkündür. Uca Allahın Quranda xəbər verdiyi kimi, **"...Onlar Allahdan başqa özlərinə nə bir himayədar, nə də bir yardımçı tapacaqlar" (Nisa surəsi, 173)**

Materialistlər belə bir tələyə düşəcəklərini heç gözləmirdilər. 21-ci əsrin bütün imkanları əllərində olduqları halda rahatlıqla inkarda israr edə biləcəklərini və insanları da inkara sürükləyə biləcəklərini güman edirdilər. Allah inkarçıların tarix boyu daşıdıqları bu düşüncəni və düşdükləri aqibəti Quranda belə xəbər vermişdir:

**Onlar hiylə qurdular, Biz də hiylə qurduq. Lakin onlar bunu hiss etmədilər. Bax gör onların hiylələrinin aqibəti necə oldu. Biz onları bütün tayfalarıyla birlikdə yerlə-yeksan etdik. (Nəml surəsi, 50-51)**

Ayələrdə izah edilən həqiqətin bir mənası da budur: Materialistlərə sahib olduqları hər şeyin əslində beyinlərində olduğu izah olunmuş, yəni əllərindəki hər şey kütləvi halda yox edilmişdir. Və onlar, mütləq varlıq zənn etdikləri mallarının, fabriklərinin, qızıllarının, dollarlarının, uşaqlarının, yoldaşlarının, dostlarının, məqam və vəzifələrinin, hətta öz bədənlərinin əllərindən çıxdığına şahidlik edərkən, bir mənada "yox olmuşlar". Maddənin deyil, Allahın mütləq varlıq olduğu həqiqətiylə üz-üzə gəlmişlər. Şübhəsiz ki, bu həqiqətin fərqinə varmaq materialistlər üçün mümkün ola biləcək ən qorxunc hadisədir. Çünki çox etimad etdikləri maddənin özlərindən aşılmaz bir sərhəd ilə ayrılmış olması, öz ifadələriylə desək, onlar üçün hələ dünyada olarkən, "ölmədən bir ölüm" hökmündədir.

Bu həqiqətlə yanaşı, bir Allah, bir də özləri qalmışdır. Necə ki, Allah **"Tək yaratdığım bu insanı Mənə burax" (Müddəssir surəsi, 11)** ayəsiylə, hər insanın Öz qatında əslində tək-tənha olduğu həqiqətinə diqqət çəkmişdir. Bu fövqəladə həqiqət hələ bir çox ayə ilə xəbər verilmişdir:

**Hüzurumuza ilk dəfə sizi xəlq etdiyimiz kimi tək-tənha, həm də sizə verdiyimiz nemətləri arxanızda qoyub gəldiniz... (Ənam surəsi, 94)**

**Onların hər biri Qiyamət günü Onun hüzuruna tək-tənha gələcək. (Məryəm surəsi, 95)**

Bu ayələrdə izah edilən həqiqətin bir mənası da budur: Maddəni məbud qəbul edənlər, Allahdan gəlmiş və yenə Ona dönmüş və ya dönməyi gözləyirlər. Onlar istəsələr də, istəməsələr də Allaha təslim olmuşlar. İndi hər kəs kimi hesablaşma gününü gözləyirlər və o gün hamısı tək-tək sorğuya çəkiləcəklər. Hər nə qədər başa düşmək istəməsələr də...

### Mövzunun əhəmiyyəti

Bu hissədə izah etdiyimiz maddənin ardındakı sirr mövzusunu doğru qavramaq olduqca əhəmiyyətlidir. Gördüyümüz bütün varlıqlar, dağlar, düzənliklər, çiçəklər, insanlar, dənizlər, bir sözlə desək, gördüyümüz hər şey, Allahın Quranda var olduğunu, yoxdan var etdiyini bildirdiyi hər varlıq yaradılmışdır və mövcuddur. Ancaq insanlar bu varlıqların əslini duyğu orqanları yolu ilə görə bilməz və ya hiss edə və ya eşidə

bilməzlər. Gördükləri və hiss etdikləri, bu varlıqların beyinlərindəki surətləridir. Bu elmi bir həqiqətdir və bu gün başda tibb fakültələri olmaqla bütün məktəblərdə öyrədilən elmi bir mövzudur. Məsələn, indi bu yazını oxuyan bir insan, bu yazının əslini görə bilməz, bu yazının əslinə toxuna bilməz.

Bu yazının əslindən gələn işıq, insanın gözündəki bəzi hüceyrələr tərəfindən elektrik siqnalına çevrilir. Bu elektrik siqnalı, beyinin arxa tərəfindəki görmə mərkəzinə gedərək, bu mərkəzi xəbərdar edər. Və insanın beyninin arxa tərəfində bu yazının görüntüsü əmələ gələr. Yəni siz indi gözünüzlə, gözünüzün önündəki bir yazını oxumursunuz. Bu yazı sizin beyninizin arxasındakı görmə mərkəzində meydana gəlir. Sizin oxuduğunuz yazı beyninizin arxasındakı "surət olan yazı"dır. Bu yazının əslini isə Uca Allah görür.

Ancaq unudulmamalıdır ki, maddənin beynimizdə əmələ gələn bir xəyal olması onu "yox" hökmünə gətirməz. Bizə insanın təmasda olduğu maddənin mahiyyəti haqqında məlumat verilir ki, bu da maddənin əsli ilə heç bir insanın təmasda olmadığı həqiqətidir. Qaldı ki, bizdən kənarda olan maddənin varlığını, bizdən başqa görən varlıqlar da vardır. Allahın mələkləri, insanların əməllərini yazmaq üçün seçdiyi elçiləri də bu dünyaya şahidlik edirlər:

**Sağında və solunda iki mələk oturub onun əməllərini qeydə alır. Dediyi elə bir söz yoxdur ki, onu yazmaq üçün yanında hazır durmuş gözətçi olmasın. (Qaf surəsi, 17-18)**

Hər şeydən əhəmiyyətlisi, ən başda Allah hər şeyi görür. Bu dünyanı hər cür incəliyi ilə Allah yaratmışdır və Allah hər halıyla görür. Quran ayələrində belə xəbər verilir:

**...Allahdan qorxun və bilin ki, Allah sizin nə etdiklərinizi görür. (Bəqərə surəsi, 233)**

**De: "Mənimlə sizin aranızda Allahın şahid olması yetər. Həqiqətən, O, qullarından Xəbərdardır, nə etdiklərini Görəndir". (İsra surəsi, 96)**

Həmçinin unutmamaq lazımdır ki, Allah bütün hadisələri "Lövhi-məhfuz" adlı kitabda qeydə almışdır. Biz görməsək də, bunların hamısı Lövhi-məhfuzda vardır. Hər şeyin, Allahın Qatında, Lövhi-məhfuz olaraq adlandırılan "Ana Kitab"da olduğu belə

bildirilir:

**Şübhəsiz ki, o, yanımızdakı Ana Kitabdandır. O, ucadır, hikmətlə doludur. (Zuxruf surəsi, 4)**

**...Bizdə hər şeyi qoruyan bir Kitab (Lövhi-məhfuz) vardır (Qaf surəsi, 4)**

**Göydə və yerdə elə bir gizli şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-məhfuzda) olmasın. (Nəml surəsi, 75)**

# NƏTİCƏ

Kitabın əvvəlindən bəri izah edilənlər oxucuların “dinsizliyin dinləri”nin meydana gətirdiyi ciddi təhlükələri görmələri və onlara düşən böyük məsuliyyətin fərqinə varmaları məqsədiylə yazılmışdır. Yaxşılığı əmr edib, pislikdən çəkindirmək bir-birlərinin vəliləri olan möminlərə Allahın əmr etdiyi əhəmiyyətli bir ibadətdir. Kitab boyu bu şərəfli məsuliyyət xatırladılmışdır. Bu xatırlatmağı eşidən və ya oxuyan adamın qarşısında iki variant vardır: Bunlardan birincisi “necə olsa bir adam edər” deyə düşünüb geri planda qalmaq, ikincisi isə bu Allahın ona yüklədiyi məsuliyyəti dərk edərək dərhal hərəkətə keçməkdir.

İnananlara gözəl bir nümunə olaraq bu mövzuda qabaqcıl olan peyğəmbərləri və saleh möminləri göstərmək olar. Quranda hekayələri izah edilən peyğəmbərlərin və onların yanlarındakı saleh möminlərin hamısı dinsizliklə fikri mübarizə aparmışlar, dinsiz fikirləri yox etmək üçün tarix boyu insanlara Allahın birliyini izah etmək üçün səy göstərmişlər. İnsanlara çata bilmək üçün bir çox yolu sınamışlar və bu yolda heç bir maneə onların qabağını ala bilməmişdir. Bu mübarək insanların dinsizliklə mübarizə mövzusundakı əzmləri, dözümlü olmaları, səbirləri və cəsarətləri bütün inananlara nümunə olmalıdır.

Yaxın keçmişdə yaşamış və həyatı möminlərə əhəmiyyətli bir nümunə olan bir çox əhəmiyyətli İslam alimi də vardır. Məsələn, Bədiüzzaman Səid Nursi çox çətin şərtlər altında, hər cür fədakarlığı göstərərək dinsizliyin dinləri ilə mübarizə aparmış, dövlətini və millətini bu təhlükədən qorumaq naminə canıyla və malıyla səbirli bir mübarizə aparmış mübarək bir şəxsiyyətdir. Bədiüzzamanın bu sözləri vicdan və ağıl sahibi bütün insanları “dinsizliyin dinləri ilə mübarizə” mövzusunda xeyli şövqləndirəcəkdir:

Tək bir əsas məqsədim vardır: O da məzara yaxınlaşdığım bu vaxtlarda, İslam məmləkəti olan bu vətəndə bolşevik bayquşlarının səsini eşidirik. Bu səs İslam aləminin iman əsaslarını zədələyir. Xalqı, xüsusilə də gəncləri imansız edərək özünə bağlayır. Mən yaşadığım müddət ərzində bütün bunlarla mübarizə apararaq gəncləri və müsəlmanları imana dəvət edirəm. Bu imansız kütləyə qarşı mübarizə aparıram. Bu mübarizəylə inşaAllah Allah hüzuruna çıxmaq istəyirəm. Məni bu məqsədimdən döndərənlər də, qorxuram ki, bolşeviklər olsun! Məni sərbəst buraxın. Əlbirliklə kommunizmlə zəhərlənən gənclərin islah olunmasına və məmləkətin imanına, Allahın birliyinə xidmət edim.[26]

Bu sətirləri oxuyan vicdanlı hər insan tezliklə hərəkətə keçməli və vicdanının səsini dinləyərək özünə xidmət etmək üçün yollar axtarmalıdır. Allah iman edən və digər insanları da imana dəvət edən qulları ilə yalnız "iman etdim" deyən, amma bu imanın tələb etdiyi mübarizədən qaçanların arasını ayıracaqdır. Bir ayədə **"İnsanlar elə güman edirlər ki, təkcə: "İman gətirdik!" – demələri ilə onlardan əl çəkiləcək və onlar imtahan edilməyəcəklər?" (Ənkəbut surəsi, 2)** – deyə buyrulur. Başqa bir ayədə isə, dinsizliklə mübarizə aparmadan həqiqi imanın və cənnətin əldə edilə bilməyəcəyi belə bildirilir:

**Yoxsa elə güman edirdiniz ki, Allah içərinizdən cihada çıxanları və səbir edənləri bəlli etmədən siz Cənnətə daxil olacaqsınız? (Ali İmran surəsi, 142)**

Peyğəmbər (s.ə.v)-in iman ilə əlaqədar hədislərindən biri belədir:

Sənə ərşin altından, cənnət xəzinələrindən bir sözə dəlalət edimmi? Belə deyərsən: "La havlə vəla qüvvətə illa billah" (Allahdan başqa nə çəkindirəcək və nə də yaradacaq bir güc vardır.) Onda Allah buyurur ki: "Qulum təslim oldu və salamatlıq tapdı". (Ramuz el-Ehadis-1, səh. 166/3)

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

**Darvini məhv edən çətinliklər**

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

“Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür”. *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

### XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

“Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir”. *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *(“New Evidence on Evolution of Early Atmosphere and Life”, Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü “Earth” jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

### Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün

olduğu nəticəsinə gəlir”. *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: “Növlərin mənşəyi, təbii seleksiya yolu ilə...”

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və “Növlərin mənşəyi” adlı kitabında: **“Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz”**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, “Növlərin mənşəyi” kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi

əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

### İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk “meymunabənzər əcdadları”na “cənub meymunu” mənasını verən “australopithecus” adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki

məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir

canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

### Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə

bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

### Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

### Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**“Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar”. *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar “təsadüf”lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

Bu kitabda dünyada hakim olan materializm, kommunizm kimi ideologiyaları, bunların özlərinə guya elmi dayaq saydıqları darvinizmi və bunlardan başqa dinsizliyə əsaslanan bütün sistemləri "dinsizliyin dinləri" olaraq adlandırdıq. Çünki bu ideologiyalar, inanclarıyla, praktikasıyla, gündəlik həyata istiqamətli normalarıyla dinsiz bir din halına gəlmişlər. Hər birinin sanki məbud kimi gördükləri liderləri, hər bir sözünü əzbərdən bildikləri və heç vaxt dəyişdirilməyəcək bir həqiqət kimi qəbul etdikləri kitabları vardır. Bu saxta dinlər çox böyük bir sürətlə yayılır, sitayiş edənlərin sayı gündən günə artır. Çünki bunların ardınca gedənlər "dinsizliyin dini"ni dünyaya hakim etmək üçün çox ciddi səy göstərirlər.

Ötən 20-ci əsrdə və hal-hazırda yaşadığımız dövrdə, dinsizlik dini bəlkə də tarixdə ilk dəfə bu qədər çox yayılmağa imkan tapmış və bu dinin tərəfdarları da Allahın Quranda bildirdiyi kimi **"...kafirlər isə batil dəlilləri ilə haqqı aradan qaldırmaq üçün..." (Kəhf surəsi, 56)** mübarizə aparırlar. Buna görə də xüsusilə bu dövrdə, Quranda təsvir edilən bu şərəfli mübarizədə iştirak etmək, dinsizliyin dininin bütün əsaslarını fikrən qüvvədən salmaq çox böyük bir əhəmiyyətə malikdir.

Allah bu şərəfli vəzifəni boynuna götürən qullarına çox əhəmiyyətli bir müjdə də vermişdir.

**"Xeyr, Biz haqqı batilin üstünə atarıq və o da onun işini bitirər. Bir anda batilin yox olub getdiyini görərsiniz. Allaha aid etdiyiniz sifətlərə görə vay halınıza!" (Ənbiya surəsi, 18)**